Xalqın qəzeti!

# Xalq qəzeti

№ 220 (30914) 14 oktyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Yaxın Şərq sülh planını fəal dəstəkləyir

## Azərbaycan Prezidenti İlham Əliyevin Misirə işgüzar səfəri

### Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfərə gəlib.**

Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Misirin gənclər və idman naziri Əşrəf Subhi və digər rəsmi şəxslər qarşıladılar.

## Düşənbə görüşü: Azərbaycan ədalət və rifah deyir

### Təyyarə olayı və... rəsmi Bakının regional gündəliyi



**Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da Düşənbədə Rusiya Prezidenti Vladimir Putinlə görüşü Qərbin bəzi dairələrinin Cənubi Qafqazda Kremlə qarşı ikinci cəbhə açmaq planlarını alt-üst etdi. Yəni zahirən görünən reallıq həm də bunu deməyə əsas verir. Ancaq daha vacib məqam var. Söhbət Azərbaycan amilinin əhəmiyyətindən gedir və buna sonda Qərb–Rusiya ziddiyyətləri fonunda aydınlıq gətirəcəyik. Hələlik bəzi cəhətlərə nəzər salaq.**

*(ardı 4-cü səhifədə)*

## Sülhə töhfə verən ölkə nümunəsi



Səhifə ⇨ 5

## Azərbaycan–Rusiya–İran görüşü və yeni geosiyasi sinerji

Səhifə ⇨ 4



## Dünənin tale ortaqları keçmişi unuda bilməzlər

*Araqarışdıranların onları üz-üzə qoymaq cəhdi əbəsdir*



**Günün belə bir həqiqəti var: Xalqımızın gələcəyini düşünən elə bir azərbaycanlı tapmaq olmaz ki, o, qonşu ölkələrlə münasibətlərimizin korlanmasını istəsin. Qəsdən ara vurmağa çalışanlar, bizi daim münaqişələr məngənəsində saxlayıb zəiflətmək istəyənlər, bölgəyə sahiblənmək niyyəti güdənlər aramızda yaşasalar da, bizdən olmayanlar isə istisnadır. Tarixi və əbədi coğrafiyamızda rahat yaşamağın bir şərti də çevrəndəki ölkələrlə barış mühiti yaratmaq və o mühiti qoruyub saxlamaqdır.**

*(ardı 10-cu səhifədə)*

## Adamı yerində belə oturdurlar...



Səhifə ⇨ 6

## Yaxın Şərq üçün tarixi qurtuluş



Səhifə ⇨ 15

## "İslam bankçılığı pəncərələri" ölkəmizə nələr vəd edir?

*Dünyanın 60-dan çox ölkəsində 300-dən artıq belə bank fəaliyyət göstərir*



**Azərbaycanda "İslam bankçılığı pəncərələri"nin tətbiqi banklar üçün yeni gəlir mənbələri açacaq. Bu barədə nüfuzlu "Moody's" agentliyi məlumat yayıb.**

Açıqlamada qeyd olunub ki, 2024-cü il oktyabrın 7-də Azərbaycan Mərkəzi Bankı (AMB, reytinqi Baa3, proqnoz "müsbət") İslam bankçılığı məhsullarının 2026-cı ildən etibarən ölkədə tətbiq ediləcəyini elan edib. Hazırda Azərbaycanda müvafiq dövlət qurumlarının ölkədə İslam maliyyəsinin inkişafı məqsədilə əlavə normativ tədbirlər üzərində işlədiyini vurğulayan agentlikdən bildirilib ki, bu çərçivədə Mülki Məcəlləyə, Banklar haqqında Qanuna və Vergi Məcəlləsinə dəyişikliklər nəzərdə tutulur.

*(ardı 8-ci səhifədə)*

## Qəfil ölümlərə necə sipər çəkək?



Səhifə ⇨ 9

# Azərbaycan Prezidenti İlham Əliyev Şarm əl-Şeyx şəhərində Yaxın Şərq Sülh Sammitində iştirak edib












**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirdə işgüzar səfərdə olub.**

Dövlətimizin başçısı oktyabrın 13-də Sammitin keçirildiyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəldi.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını qarşıladı, sonra birgə foto çəkdirildi.

Daha sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamladı.

Azərbaycan və ABŞ prezidentləri birgə foto çəkdirdilər.

Sonra Yaxın Şərq Sülh Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.

Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq dedi: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır.

*

Sonra sülh sazişinin imzalanması mərasimi oldu.

*

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirdi: "Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun".

***AZƏRTAC***




## S.H.Əliyevanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Sevil Heydər qızı Əliyeva "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 oktyabr 2025-ci il**

## Azərbaycan dəmir yolu nəqliyyatı işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli**
**"Əmək" ordeni ilə**

Cəfərov Şamil Rəcəb oğlu
Qocayev Telman Rza oğlu
Mustafayev İlqar Abdulməcid oğlu
Talıbov Şəmsəddin İsmayıl oğlu

**"Tərəqqi" medalı ilə**

Boqolyubova Aleksandra Vladimirovna
Cabbarov Elxan Məhəmməd oğlu
Cəfərov Kazım Novruz oğlu
Əfəndi-zadə Məmməd Şamil oğlu
Gülmaliyev Rafiq Məhərrəm oğlu
Hidayətov Arif Ramiz oğlu
Kazımov Kazım Silahdar oğlu
Kərimov Hikmət Şirəli oğlu
Kərimov Pənah Sabir oğlu
Quliyev Nicat Tofiq oğlu
Məmmədov Vəfadar Şikar oğlu
Muradov Elyar Həbib oğlu
Nəzərov Afiq Allahşükür oğlu
Pənahov Məhəmməd Yaqub oğlu
Şixəmirov Mədəd Aydın oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

## Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Beynəlxalq Hakimlər Assosiasiyasının Bakı şəhərində keçirilən 67-ci illik iclasında səmimi-qəlbdən salamlayır, ədalət mühakiməsinin inkişafına və hakimlərin müstəqilliyinin təmin olunmasına həsr edilən bu mötəbər tədbirin işinə uğurlar arzulayıram.

Özündə 100-ə yaxın ölkənin milli hakimlər assosiasiyalarını birləşdirən Beynəlxalq Hakimlər Assosiasiyası yarandığı gündən bəri hakimlərin müstəqilliyinin müdafiəsi, qanunun aliliyinin möhkəmləndirilməsi, ədalət mühakiməsinin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində mühüm təşəbbüslərə imza atmış vacib təsisata çevrilmişdir. Bu gün Beynəlxalq Hakimlər Assosiasiyası eyni zamanda hüquqi dövlət quruculuğunun əsas dayaqlarından biri olan məhkəmə sisteminin təkmilləşdirilməsi üçün beynəlxalq dialoq və əməkdaşlıq məkanı rolunu oynayır.

Azərbaycanın Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasına ev sahibliyi etmək hüququnu qazanması ölkəmizin qlobal nüfuzunun göstəricisi, beynəlxalq hüquq ictimaiyyəti tərəfindən onun məhkəmə-hüquq sisteminə olan inam və etimadının əyani təzahürüdür.

Bu mötəbər tədbirin məhz bu il Azərbaycanda keçirilməsi ölkəmiz və bütün hüquq ictimaiyyətimiz üçün xüsusi rəmzi məna daşıyır. 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunmuşdur. 30 il əvvəl – 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Konstitusiyada təsbit olunmuş prinsiplər əsasında ölkəmizdə müstəqil, üçpilləli məhkəmə sistemi formalaşmış, hakimiyyət bölgüsü, insan hüquqlarının qorunması və qanunun aliliyi dövlət idarəçiliyinin əsas dayaqlarından birinə çevrilmişdir. Azərbaycan işğal altında olan torpaqlarını azad edərək Əsas Qanunda ali niyyət olaraq bəyan edilmiş ərazi bütövlüyünü və suverenliyini təmin etməyə nail oldu.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu dövlət siyasətimizin strateji prioritetlərindən biridir. İnsan hüquqlarının müdafiəsinin əsas təminatçısı kimi ədalət mühakiməsinin rolunun daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda genişmiqyaslı tədbirlər görülür. Ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar nəticəsində məhkəmə fəaliyyətinin səmərəliliyi artırılmış, vətəndaşların ədalət mühakiməsinə müraciət imkanları genişləndirilmiş, hakimlərin müstəqilliyi möhkəmləndirilmişdir. Eyni zamanda, informasiya texnologiyalarının və rəqəmsal həllərin tətbiqi ilə məhkəmə idarəçiliyində şəffaflıq və çeviklik təmin olunmuş, vətəndaşların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar cəmiyyətdə ədalət mühakiməsinə inamın güclənməsinə, məhkəmələrin hüquqi dövlətin əsas sütunlarından biri kimi mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir.

Müasir dövrün çağırışları, qlobal miqyasda baş verən sosial-iqtisadi transformasiya, sürətlə inkişaf edən rəqəmsallaşma, yeni texnologiyaların, xüsusilə də süni intellektin tətbiqi məhkəmə sistemlərindən daim adaptasiya olunmağı, yeni yanaşmaları tətbiq etməyi tələb edir. Bu baxımdan, Beynəlxalq Hakimlər Assosiasiyasının illik iclasları müasir reallıqlar fonunda məhkəmə-hüquq sistemlərinin gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi, onların qarşısında duran çağırışlara cavab verilməsi üçün faydalı təcrübə mübadiləsi və səmərəli dialoq platformasıdır.

Əminəm ki, Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasında aparılacaq fikir mübadiləsi, qəbul ediləcək tövsiyələr və nəticələr hakimlərin müstəqilliyinin möhkəmlənməsinə, ədalət mühakiməsinin keyfiyyətinin artırılmasına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinin daha etibarlı təmin olunmasına, eləcə də beynəlxalq həmrəyliyin inkişafına mühüm töhfələr verəcəkdir.

Sizi Bakıda bir daha ürəkdən salamlayır, 67-ci illik iclasın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 oktyabr 2025-ci il**

## İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

**Əlahəzrət!**

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İspaniya xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

# Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası

**Oktyabrın 12-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası öz işinə başlayıb.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmiz haqqında tanıtım videoçarxı nümayiş etdirilib.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan öz məhkəmə sistemini demokratiya, qanunçuluq və ədalət prinsipləri əsasında qurmağa başladı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya hazırlandı, ümumxalq referendumu ilə qəbul olundu və orada hakimiyyət bölgüsü, qanunun aliliyi, insan ləyaqətinin təmin edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi ifadə edildi. Beləliklə, bu təməl Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlarla daha da möhkəmləndirildi. Onun qətiyyətli səyləri nəticəsində ədalətin təşkili dövlətin ən dinamik dayaqlarından birinə çevrildi.



Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov bildirib ki, məhkəmə hakimiyyəti hər hansı bir cəmiyyətin ən fundamental dəyərlərinin keşiyində dayanan bir qarantdır.

F.Əhmədov çıxışında Azərbaycanda qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında əməkdaşlığın mövcudluğunu və bunun ədalət mühakiməsinin ortaya qoyulmasında əsas götürüldüyünü də diqqətə çatdırıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Duro Sessa isə düzgün ədalət mühakiməsinin heç zaman diqqətdən kənarda qalmamalı olduğunu bildirib. Onun sözlərinə görə, məhkəmə hakimiyyətinin səsinin hər tərəfdə eşidilməsi üçün anlaşma və etimadın qurulmasında məhz konstitusion strukturların fəaliyyətinin tarazlı şəkildə həyata keçirilməsi önəmlidir: "Bütün bu dəyərlər çox vacibdir ki, məhkəmə hakimiyyəti müstəqilliyini qoruyub saxlaya bilsin. Bu gün bəzi hallarda siyasətçilər bizə müəyyən mesajlar verirlər. Lakin bu mesajlar birmənalı şəkildə qəbul edilməli deyil. Onlar heç bir şəkildə hər hansı bir siyasi maraqlara qurban verilməli deyil".

Daha sonra Beynəlxalq Hakimlər Assosiasiyasının "Məhkəmə müstəqilliyi mükafatı"nın təqdimetmə mərasimi keçirilib. Mükafatı Beynəlxalq Hakimlər Assosiasiyasının Baş katibi Giacomo Oberto təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, Assambleyanın açılış mərasimində dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə — hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Oktyabrın 17-dək davam edəcək Baş Assambleya çərçivəsində qurumun idarəetmə orqanlarına seçkilər keçiriləcək, müxtəlif dövlətlərin məhkəmə-hüquq sistemindəki vəziyyət, mövcud problemlər və müsbət təcrübələr müzakirə olunacaq. Həmçinin ev sahibi kimi Azərbaycanın məhkəmə-hüquq sistemi ilə tanışlıq da nəzərdə tutulur.

Oktyabrın 14-də "Məhkəmə hakimiyyəti və digər hakimiyyət qolları arasındakı münasibətlər" mövzusunda beynəlxalq konfrans keçiriləcək. Konfransda qanunun aliliyinin təmin olunmasında məhkəmələrin rolu geniş şəkildə təhlil ediləcək.

Assambleya çərçivəsində, həmçinin Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti vəzifəsinə seçkilərin keçirilməsi planlaşdırılır.

Bununla yanaşı, oktyabrın 17-dək "Ədalət mühakiməsi rəmzləri" adlı sərgi təşkil olunacaq. Sərgidə dünyanın 80 ölkəsindən gətirilmiş 150-yə yaxın hakim, vəkil və dövlət ittihamçısına məxsus cübbələr, ordenlər, döş nişanları, markalar və pul əsginasları nümayiş etdiriləcək.

Xatırladaq ki, 1953-cü ildə təsis olunmuş Beynəlxalq Hakimlər Assosiasiyasının əsas məqsədi dünyada məhkəmə hakimiyyətlərinin müstəqilliyinin qorunmasıdır. Hazırda təşkilat öz sıralarında 93 ölkənin hakimlər birliklərini birləşdirir və illik toplantılarını yalnız qanunun aliliyinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunduğu ölkələrdə keçirir.

Baş Assambleyanın 2025-ci ildə Bakıda keçirilməsi barədə qərar ötən il Cənubi Afrika Respublikasının Keyptaun şəhərində təşkilat üzvlərinin gizli səsverməsi yolu ilə qəbul edilib.

*XQ*

# İranla əməkdaşlığın aktual məsələləri

**Oktyabrın 13-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqlə görüşüb.**



Görüşdə Azərbaycan ilə İran arasında münasibətlərin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlər, xüsusilə də nəqliyyat-tranzit, energetika, gömrük və digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantılarının inkişafı layihəsi çərçivəsində Araz çayı üzərində Ağbənd-Kəlalə avtomobil yolları körpüsünün və gömrük-sərhəd infrastrukturunun tikintisi üzrə işlərin yekunlaşdırılması ilə bağlı məsələlər müzakirə olunub.

Tərəflər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi ilə bağlı gündəlikdə duran aktual məsələləri nəzərdən keçiriblər.

Qeyd olunub ki, "Şimal-Cənub" dəhlizi ilə daşımaların həcmi 2025-ci ilin 9 ayı ərzində 8,3 faiz artıb və bunun da 10,4 faizi avtomobil, 2 faizi isə dəmir yolu daşımalarının payına düşür.

Dəhliz boyunca infrastrukturun genişləndirilməsi istiqamətində görülən işlərin uzlaşdırılmış şəkildə aparılmasının və yükdaşımaların həcminin davamlı artımının təmin edilməsinin mühüm önəm kəsb etdiyi bildirilib. Bu kontekstdə dəhlizin vacib komponenti olan Cənub Yük Terminalının tikintisi üzrə işlərin tamamlanmasının əhəmiyyəti vurğulanıb.

Həmçinin Astaraçay çayı üzərində inşa olunmuş avtomobil körpüsünün tam gücü ilə işə salınması üçün görüləcək zəruri tədbirlər barədə fikir mübadiləsi aparılıb.

Tərəflər, eyni zamanda, Bakıda keçirilən Azərbaycan-İran-Rusiya görüşünün üç ölkə arasında ticarət-iqtisadi, nəqliyyat və enerji əlaqələrinin daha da genişləndirilməsi baxımından önəmini qeyd ediblər.

*XQ*

# Azərbaycan və Rusiya iqtisadi əməkdaşlığı inkişaf yolunda

**Oktyabrın 13-də Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk arasında görüş keçirilib.**



Söhbətdə Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının müxtəlif istiqamətlərdə mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 10 faizdən çox artdığı qeyd edilib, bu müsbət dinamikanın cari ildə də davam etdiyi və 8 ay ərzində qarşılıqlı ticarətin ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,5% artaraq 3 milyard 350 milyon dollar olduğu vurğulanıb.

"Şimal-Cənub" dəhlizi ilə daşımaların həcmi 2025-ci ilin 9 ayı ərzində 8,3 faiz artıb. Bunun 10,4 faizi avtomobil, 2 faizi isə dəmir yolu daşımalarının payına düşür.

Bu ilin 8 ayı ərzində Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracında 15% artım müşahidə olunub ki, bunun da 23 faizi meyvə-tərəvəz məhsullarının payına düşür.

Tərəflər investisiyalar, sənaye, nəqliyyat-tranzit, energetika, gömrük və digər sahələrdə həyata keçirilən birgə layihələrin gedişindən məmnunluq ifadə ediblər.

Nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi kontekstində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələsinə xüsusi diqqət yetirilib, dəhliz boyunca infrastrukturun genişləndirilməsi işlərinin sinxron şəkildə həyata keçirilməsinin və yük axınlarının davamlı artımının təmin edilməsinin önəmi vurğulanıb.

Görüş zamanı, həmçinin əməkdaşlığın mövcud potensialından səmərəli istifadə olunması, qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi və yeni birgə təşəbbüslərin reallaşdırılması imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Bakıda keçirilən Azərbaycan-İran-Rusiya üçtərəfli görüşünün əhəmiyyətinə toxunulub, aparılan danışıqların və qəbul edilən qərarların əməkdaşlığın müvafiq sahələrdə daha da möhkəmlənməsinə töhfə verməklə, hər 3 ölkə üçün və ümumilikdə region üçün faydalı olacağına əminlik ifadə olunub.

*XQ*

# Azərbaycan-Pakistan-Türkiyə parlament sədrlərinin görüşü

**Oktyabrın 13-də Pakistanın paytaxtı İslamabadda Azərbaycan-Pakistan-Türkiyə parlament sədrlərinin üçüncü üçtərəfli görüşünün açılış mərasimi olub.**

Mərasimdə Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq parlament platformasının ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin daha da dərinləşməsi baxımından mühüm istiqamət olduğunu vurğulayıb. Milli Assambleyanın sədri Azərbaycan, Pakistan və Türkiyənin dost və qardaş ölkələr olduğunu qeyd edərək, taleyüklü məsələlərdə üç qardaş dövlətin daim bir yerdə olduğunu bildirib. Sərdar Ayaz Sadiq Kəşmir məsələsinə münasibətdə Azərbaycan və Türkiyənin göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü ifadə edib və Pakistan xalqının bu dost münasibəti heç vaxt unutmayacağını diqqətə çatdırıb.




Milli Məclisin sədri Sahibə Qafarova çıxışında parlamentlərimizin əməkdaşlığının ortaq tarixi, mədəni, dini və mənəvi dəyərlərlə bir-birinə bağlı olan ölkələrimizin və xalqlarımızın qardaşlığına, birliyinə və həmrəyliyinə əsaslandığını söyləyib. O vurğulayıb ki, Azərbaycan, Pakistan və Türkiyə hər zaman bir-birinin yanında olublar və bir-birini dəstəkləyiblər. Xalqımız 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi heç bir zaman unutmayacaq. Qeyd edilib ki, Azərbaycan da bütün məsələlərdə hər zaman Türkiyəyə və Pakistana dəstək nümayiş etdirib. Cari ilin may ayında Pakistan və Hindistan arasında gərginlik zamanı Azərbaycan ilk gündən Pakistanla həmrəyliyini açıq şəkildə ifadə edib. Ölkəmiz Kəşmir məsələsinin dialoq və sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan həllini hər zaman dəstəkləyib və bunu bütün beynəlxalq platformalarda səsləndirib.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş beynəlxalq hüquqda mövcud olan problemlərin, xüsusilə ikili standartların müşahidə olunduğu bugünkü şəraitdə üç qardaş ölkə arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Numan Kurtulmuş qeyd edib ki, Türkiyə Azərbaycan və Pakistan parlamentləri ilə üçtərəfli əməkdaşlığın daha da gücləndirilməsinə böyük önəm verir. Qeyd edilib ki, qlobal problemlərə qarşı ortaq həll yollarının müəyyənləşdirilməsində parlamentlərin rolu olduqca vacibdir.

Pakistan İslam Respublikası Senatının sədri Syed Yusuf Raza Gilani isə çıxışında parlamentlərin üçüncü görüşünün əhəmiyyətini vurğulayaraq, müasir geosiyasi şərait fonunda qardaş ölkələr arasında əməkdaşlığın vacibliyini, eləcə də parlamentlərarası əlaqələrin gücləndirilməsinin önəmini qeyd edib.

*XQ*

# Şeyxülislamın ABŞ-a səfəri



**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyətinin ABŞ-a səfəri davam edir. Allahşükür Paşazadə səfər çərçivəsində BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb.**

Söhbət zamanı görüşdə şeyxülislam A. Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını BMT Baş katibinə çatdırıb. Səmimi dialoq şəraitində keçən görüşdə dinlərarası dialoqa dair konstruktiv müzakirələr aparılıb.

*

Qafqaz Müsəlmanları İdarəsinin sədri ABŞ-a səfəri çərçivəsində Vaşinqtonda, Ağ Evdə ABŞ vitse-prezidenti ofisinin Milli təhlükəsizlik məsələləri üzrə xüsusi müşaviri Endryu Lumis, Vitse-Prezident Aparatının strateji məsələlər üzrə xüsusi müşaviri Maykl İmbrenda və Dövlət Departamentinin Siyasət Planlaşdırma Şöbəsinin üzvü Conatan Askonas ilə də görüşüb.

Görüşdə tərəfləri maraqlandıran məsələlər, o cümlədən avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən paraflanan sülh sazişindən sonra Cənubi Qafqaz regionu üçün yaranmış yeni fürsətlər, ölkəmizin nümunəvi məzhəblərarası və dinlərarası təcrübəsinin beynəlxalq miqyasdakı önəmi, Azərbaycan-ABŞ dinlərarası əməkdaşlıq münasibətlərinin inkişafı və davamlı sülhün qurulmasında multikultural dəyərlərin rolu kimi mövzular müzakirə olunub.

*XQ*

# Şəkidə qida festivalı






**Oktyabrın 11-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı, tabeliyindəki Azərbaycan Turizm Bürosu və Azərbaycan Milli Kulinariya Mərkəzinin, eləcə də "Slow Food International" hərəkatının əməkdaşlığı ilə Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində "Terra Madre Shaki" qastronomiya festivalı keçirilib.**

Festivalın açılış mərasimində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, "Slow Food International"ın prezidenti Edvard Mukibi çıxış edərək, UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan və tarixi İpək Yolu şəhəri olan Şəkidə təşkil edilən "Terra Madre" qastronomiya festivalının əhəmiyyətindən danışıblar.

Bildirilib ki, Azərbaycanda ilk dəfə keçirilən və ölkəmizə "Slow Food" təcrübəsini gətirən festivalın əsas məqsədi kənd icmalarının balanslı inkişafına dəstək olmaqla dayanıqlı qida sistemini, yerli kulinariya ənənələrini və mədəni irsi təşviq etmək, eyni zamanda, aqrobiomüxtəliflik ehtiyatlarının səmərəli istehsal və istehlakına töhfə verməkdir.

Qeyd edək ki, Şəkinin tarixi mərkəzində keçirilən festivalda kənd təsərrüfatı siyasəti və qastronomiya üzrə ekspertlərin forumu, hökumət nümayəndələri və sənaye mütəxəssislərinin iştirakı ilə biomüxtəliflik, şərabçılıq üzrə dəyirmi masa müzakirələri təşkil edilib, 30-a yaxın yerli istehsalçı fermer tərəfindən hazırlanan məhsulların yarmarkası, həmçinin dequstasiya və ustad dərsləri keçirilib.

*XQ*

# Düşənbə görüşü: Azərbaycan ədalət və rifah deyir

(əvvəli 1-ci səhifədə)



Əlbəttə, Putinin şəxsində rəsmi Moskva Cənubi Qafqazda özünə qarşı planların mövcudluğundan ehtiyatlansa da, xüsusi əndişə duymur. Məsəl var, islanmışın yağışdan qorxusu yoxdur. Hazırda Rusiya, bir növ, tarana gedir. Ölkə rəhbərliyi geridönüşü olmayan yoldadır, bu, öz yerində. Azərbaycan isə müstəqillik illərində həmişə balanslı siyasət yürüdüb. Daha doğrusu, bütün çətinliklərə və məhrumiyyətlərə baxmayaraq, Qərbin regional ambisiyalarında alət olmayıb.

İndi Azərbaycan dövləti kənar təsirlərə daha dayanıqlıdır. Rəsmi Bakının onu hansısa oyunların alətinə çevirmək niyyəti güdənlərə qarşı immuniteti əvvəlki illərlə müqayisədə çox güclüdür. Ölkəmiz öz gündəliyini əzmlə qorumaq potensialına malikdir. Deməli, lap nəzəri yanaşsaq belə, hazırda dünyanın nəbzini yoxlayıb Rusiyaya zidd mövqedə dayanmağın mənası yoxdur. Haşiyə çıxaq ki, Bakı indiyədək cənub qonşusu İrana qarşı koalisiyalara da qatılmayıb. Yəni Bakının hadisə və proseslərə individual yanaşması hər zaman olub.

*

Azərbaycan rəsmiləri son on aydakı müsahibə və açıqlamalarının hər birində bildiriblər ki, Rusiya ilə yaranmış problemin kökündə ötən ilin dekabrında AZAL-ın təyyarəsinin Qroznı səmasında vurulması dayanır. Bununla bağlı fikirlərin yalnız birinə diqqət yetirək. Məsələn, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev təxminən üç ay əvvəl Almaniyanın "Berliner Zeitung" nəşrinə müsahibədə Bakı–Moskva münasibətlərində əsaslı dəyişikliklərin baş vermədiyini demiş, lakin son aylarda ikitərəfli gündəlikdə müəyyən anlaşılmazlığın və gərginliyin artdığından söz açmışdı. Hikmət Hacıyev, eyni zamanda, bu fikirləri də diqqətə çatdırmışdı: "Belə hadisələr qonşu ölkələr arasında da baş verə bilər. Hər şey Azərbaycan cəmiyyətini dərindən sarsıdan təyyarə qəzası (AZAL təyyarəsi - red.) ilə başladı. Qəza Rusiyanın ərazisində, Rusiyanın hava məkanında baş verib və biz bunun necə baş verdiyini bilirik – bu, artıq sirr deyil. Azərbaycan qonşu və tərəfdaş kimi Rusiyanın məsuliyyəti öz üzərinə götürəcəyini və bu işdə ədaləti təmin edəcəyini gözləyir".

Doğrudur, son aylarda Rusiyada yaşayan soydaşlarımıza qarşı total "miqrant ovu" həyata keçirildi. Eyni hal yenə müşahidə edilir və Azərbaycan Xarici İşlər Nazirliyinin buna reaksiyası olmuşdu. Qurumun reaksiyasında iki xüsusiyyət rəhbər tutulmuşdu. Birincisi, diplomatik norma və prinsipləri gözləmək, ikincisi, Moskva ilə əlaqələrdəki sərinliyin başlıca motivi olan təyyarə olayını arxa plana atmamaq. Yəni rəsmi Bakı, böyük ölçüdə, Kremllə yeni gərginlik fazası müəyyənləşdirməkdən uzaq durmuşdu. Hazırda yaşananlar bu qərarın uzaqgörənliklə verildiyinin sübutudur.

*

Bəli, Prezident İlham Əliyevin Düşənbədə rusiyalı həmkarı ilə bir araya gəlməsi göstərir ki, dövlətimizin təyyarə olayına ədalət gözləntisi reallaşıb. Hər halda, Prezident Putinin hava gəmimizə hücumla bağlı hüquqi məsuliyyətin müəyyənləşəcəyini, o cümlədən təzminatın ödəniləcəyini bildirməsi adi məsələ deyil. Gedişatın Kreml rəhbərinin dediyi kimi olacağına inamımız böyükdür. Yəni onun vədi yerinə yetməlidir.

Ümumən, Azərbaycan rəhbərliyi özünün balanslı siyasət kursunun Rusiya vektorunu kənara qoymaq barədə də düşünməyib. Yəni Şimal qonşumuzdakı bəzi dairələrin gərginliyi əldə bayraq edib ölkəmizin, guya, birbaşa Qərbə meylləndiyini bildirmələri cəfəngiyyatdan başqa bir şey deyildi. Təkcə Rusiyada yox, bütün dünyada bilməlidirlər ki, Azərbaycan yalnız öz maraq və mənafelərindən çıxış edir. Maraqlarımız isə kimlərinsə, hansısa xarici qüvvələrinsə ədalət anlayışına yamaq ola bilməz. Siyasətimiz praqmatizmə və rasionallığa söykənir. Rəsmi Bakı ətraf aləmlə münasibətlərini qarşılıqlı hörmət və ehtiram əsasında qurur, özünə qarşı heç bir haqsızlığı qəbul etmir və etməyəcək.

Sevindirici haldır ki, Rusiyada Azərbaycanın tutduğu yolun mütərəqqiliyini dərk edən qüvvələr var. Heç şübhəsiz, Prezident İlham Əliyevlə Prezident Putinin uzun fasilədən sonra bir araya gəlmələrində bu amil də həlledici rola malikdir. Rusiyanın hadisə və proseslərə yanlış pəncərədən baxan siyasi kəsimi kimi, Qərbdəki avantüristlər də anlamalıdırlar ki, Bakı–Moskva gərginliyinə siyasi sərmayə yatıraraq nəyəsə nail olmaq cəhdləri tam mənasızdır. Əslində, rəsmi Bakı belə cəhdləri önləyir də.

Məsələn, bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderləri arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Birgə Bəyannamənin imzalandığı zaman kəsiyinə diqqət yetirək. Həmin vaxt bəzi siyasi ekspertlər həm Birləşmiş Ştatların vasitəçik görüntüsünü, həm də Birgə Bəyannamənin "Tramp marşrutu" kazusunu rəhbər tutaraq vurğuladılar ki, Bakı və İrəvan Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq naminə birləşib.

Üstəlik, rəsmi Moskvanın ayrı-ayrı təmsilçilərinin Vaşinqtonda əldə edilmiş razılığın əhəmiyyətini şübhələndirən çiy açıqlamaları oldu. Onlar da öz növbələrində, bəlkə də fərqinə varmadan, Qərbin görüntüsünü formalaşdırdığı Cənubi Qafqazda anti-Rusiya ovqatına dramatik obraz qazandırdılar. Halbuki, bir qədər konseptual davranmaq, diqqətli olmaq lazım idi. Axı duruma müfəssəl aydınlıq gətirən ali şəxs var. Elə isə Prezident İlham Əliyevin avqustun 26-da Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində Vaşinqton anlaşması ilə regional kommunikasiyaların açılması məsələsinə verdiyi izahdan söz açaq.

Nəzərə alaq ki, dövlətimizin başçısı həmin müsahibədə regional kommunikasiyaların açılması mövzusunun Azərbaycan dövləti üçün prioritet məqamını vurğuladı. Söhbət Naxçıvana maneəsiz yoldan gedir. O yol ki, 44 günlük müharibənin nəticələrini təsdiqləyən, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da əksini tapmışdı. O yol ki, rəsmi İrəvan ötən müddətdə onun açılmasına qarşı çıxır və ən müxtəlif siyasi spekulyasiyalara baş vururdu. Onu da nəzərə alaq ki, Vaşinqtonda "Tramp marşrutu" kimi leqallıq qazanmış marşrut, faktiki olaraq, Zəngəzur dəhlizidir və dəhlizin işlək duruma gəlməsi Rusiyanın da maraqları daxilindədir.

Əlqərəz, Azərbaycan Rusiya ilə gərginliyə baxmayaraq, ötən on ayda Kremlin regional kommunikasiyaların açılması marağını ikinci plana daşıyacaq heç bir addım atmadı. Əksinə, Prezident Əliyev "Əl-Ərəbiyyə" müxbirinin Zəngəzur dəhlizinin ənənəvi Şimal–Cənub marşrutuna ziyan verib-verməyəcəyi barədə sualını cavablandırarkən bildirdi ki, birinci ikinciyə yalnız dəstək olacaq: "Bəli, bu, sadəcə, dəstək olacaq. Çünki əvvəlcə planlaşdırılmış və layihələndirilmiş Şimal–Cənub dəhlizi Şimaldan, Şimali Avropadan, Rusiyadan, Azərbaycandan, İrandan, Fars körfəzindən düz xətlə gedir. Xəritəyə baxsanız, o, Azərbaycan ərazisindən, qismən də Xəzər dənizinin sahilindən keçməkdədir".

Dövlətimizin başçısı müsahibəsində onu da vurğuladı ki, ölkəmizin Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəsi var. Ardınca isə Prezident İlham Əliyev son dərəcə ciddi trayektoriya cızdı ki, əslində, onun dedikləri yeni dünya düzəninin region seqmentini canlandırdı: "Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs, Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, oradan isə – bizim İranla dəmir yolu əlaqəmiz var, – və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq–Qərb deyil, həm də Şimal–Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal–Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq – Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək".

Prezident İlham Əliyevin hər fikri və sözü, az qala, hər cümləsi istər Qərbdə, istərsə də Rusiyada ciddi şəkildə təhlil olunur, ölkəmizə münasibət və yanaşma dövlətimizin başçısının bildirdiklərinə nəzərən formalaşır. Heç şübhəsiz, ölkəmizin Moskva ilə ziddiyyətlər fonunda siyasi oyun qaydalarını pozmadığını Kremldə də yetərincə yaxşı gördülər.

Vaşinqton anlaşması ilə ölkəmizin Qərbə yaxınlaşdığına dair ab-havanın yaradıldığı zamanda da Azərbaycan dövlətinin Rusiya ilə soyuqluğun təyyarə faciəsi motivini qabartması və məlum şərtlər irəli sürməsi, əslində, əvvəlki düzənə qayıtmaq üçün yalnız bir yolun olduğuna dair mesaj idi. Hesab edirik ki, Prezident Putin Düşənbədəki görüş zamanı məhz o yolda addımladı. Hər halda, görüşün hamımızın seyr etdiyi məcrada keçəcəyi, Azərbaycan üçün prinsipial etirafın açıqlanacağı, başqa sözlə desək, Putinin ölkəmizin tələbinin yerinə yetiriləcəyi ilə bağlı fikirləri dilə gətirəcəyi əvvəldən aydın olmaya bilməzdi. Əks halda, çox güman, ikitərəfli təmas baş tutmazdı.

*

Sonda əvvəldə vurğuladığımız fikrə qayıdaq və diqqətə çatdırdıqlarımız fonunda Qərbin bəzi dairələrinin Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhəni açmaq planlarının iflasa uğradığına nəzər salaq. Əlbəttə, Moskvaya da belə bir cəbhənin mövcudluğu qətiyyən sərf etməz. Amma islanmışın yağışdan qorxusunun olmadığını təsadüfən vurğulamadıq. Yəni Ukrayna müharibəsi fonunda dünyanı qarşısına alan ölkənin tarixən özünə bağlı Cənubi Qafqaz coğrafiyasında da inadlı davranacağı birmənalıdır. İnad ona daha böyük ziyan gətirəcək, bu, başqa söhbətin mövzusudur.

Mövcud siyasi labirintdə əsas olan Azərbaycan amilidir. O amil ki, Prezident İlham Əliyevin diqqətə çatdırdığımız fikirlərinə nəzərən onun xeyli dərəcədə birləşdirici, yaxud tənzimləyici missiya daşıdığı aşkardır. Bu missiya Rusiyaya qarşı barışmaz mövqedə dayanmış Qərbə də sərfəlidir. Axı Cənubi Qafqazda regional kommunikasiyaların açılması dünya üçün vacibdir.

Nəticəyə gəlirik ki, Azərbaycan tərəfi istər həmin vacibliyi nəzərə alaraq, istərsə də öz maraqlarını düşünərək bütün qütblərə faydalı gündəlik təklif edir. Üstəlik, ölkəmiz, müəyyən mənada, regional təminatçı ampluasındadır. Bu ampluanın isə diktə etdiyi iki şərt var. Birincisi, Qərb Rusiya ilə ziddiyyətlərinin davamını istəyirsə, onu başqa müstəvidə axtarmalıdır, Cənubi Qafqazda yox. İkincisi, Moskva Qərbə qarşı inadından geri dayanmayacaqsa, öz baxış bucağı naminə regionumuzdan istifadə etməməlidir.

Nəhayət, Cənubi Qafqaz bütün konfrontasiyalardan uzaq iqtisadi platforma olmalıdır ki, həmin platforma özündə Qərbə və Kremlə bərabər ədalətli şərtlər altında mənfəətlə yanaşı, region xalqlarına sülh, asayiş və rifah gətirməlidir. Prezident Putinin şəxsində Rusiya Düşənbədə məhz bu cür təminata görə təyyarə olayına obyektiv münasibət göstərməli idi və göstərdi də. Bəs doğrudanmı faciə ilə əlaqədar əsl təfərrüatları bilmək bu qədər vaxt apardı? Yəni, əvvəldən heç nə aydın deyildi ki? Güman edirik, bu suallara cavabı zaman özü verəcək.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Azərbaycan–Rusiya–İran görüşü və yeni geosiyasi sinerji

**Azərbaycan, Rusiya və İran nümayəndələrinin qatıldığı üçtərəfli görüşə hər bir iştirakçı strateji maraqlarını qorumaq və regional təsir imkanlarını gücləndirmək məqsədilə qatılıb. Görüş regionda güc balansını və siyasi nüfuz dairələrini müəyyən edən bir dialoq kimi çıxış edir. Bakı bu üçlük vasitəsilə Cənubi Qafqazdan İran körfəzinə və Mərkəzi Asiyaya qədər uzanan yeni regional təsir xəritəsinin konturlarını formalaşdıracaqmı?**





2022-ci ildən sonra formalaşan qlobal və regional reallıqlar Azərbaycanın regionda rolunu gücləndirib. Qərb sanksiyaları, enerji və tranzit dəhlizlərinin yenidən dizaynı, həmçinin postsovet məkanında dəyişən geosiyasi balanslar Bakının mövqeyini yalnız enerji ixracatçısı deyil, həm də geosiyasi tranzit mərkəzi kimi önə çıxarıb. Burada diqqət çəkməli olan əsas məqam budur: Bakı artıq yük və enerji axını üçün keçid nöqtəsi deyil, eyni zamanda, marşrut siyasətinin subyektidir. Bütün bunlar isə o deməkdir ki, Azərbaycan həm Rusiya, həm İran, həm də Qərb ölkələri ilə paralel əməkdaşlıq imkanını qoruyur, balanslı və çoxvektorlu diplomatiya aparır.

Görüşün üçlük dinamikasına nəzər yetirdikdə daha maraqlı nüansları görmək mümkündür. Bəzi müşahidəçilər bunu "3+3 formatının kiçik texniki modeli" adlandırır. Söhbət Ermənistan, Gürcüstan və Türkiyənin iştirak etmədiyi bir platformadan gedir, lakin bu məhdudiyyət görüşün əhəmiyyətini azaltmır. Əksinə, Bakı formatı regionun cənub və şimal qonşularının maraqlarını birləşdirərək gələcəkdə daha geniş əməkdaşlıq platformalarının sınaq meydanına çevrilir. Burada hər bir iştirakçı həm də regionda geosiyasi mövqeyini gücləndirmək və strateji təsir imkanlarını qorumaq məqsədilə çıxış edir.

Rusiya üçün bu görüş Ukrayna müharibəsindən sonra Qərbin tətbiq etdiyi iqtisadi və maliyyə sanksiyalarına qarşı alternativ dəhliz və iqtisadi marşrutlar yaratmaq imkanıdır. Rəsmi Moskva burada regiondakı nüfuzunu qorumaq, iqtisadi təsirini artırmaq və Qərbin sanksiyalarına qarşı müqavimət mexanizmi yaratmaq niyyətindədir. Bakı formatı Rusiyaya həm iqtisadi, həm də geosiyasi resurslarını Şimal–Cənub və Şərq–Qərb dəhlizləri vasitəsilə regionda möhkəmləndirmək imkanı verir.

İrandan ötrü bu görüş beynəlxalq təcrid vəziyyətində strateji qopma və təsir imkanlarını bərpa etmək deməkdir. Sanksiyalar, enerji və tranzit sahəsində məhdudiyyətlər İranı uzun illər xarici əlaqələrdən kənarda qoymuşdur. Bakı platforması ona regional nəqliyyat və enerji axınlarında aktiv iştirak, eyni zamanda siyasi nüfuzunu qoruyub gücləndirməyə şərait yaradır. İran burada regional siyasi balansda mövqeyini bərpa etmək və Qərb təzyiqlərinə qarşı strateji çeviklik nümayiş etdirmək imkanına malik olur.

Azərbaycan isə bu üçlüklə sinxron çıxış edərək, sabit və balanslaşdırılmış mərkəz rolunu oynayır. Bakı hər iki tərəfin geosiyasi maraqlarını uyğunlaşdıraraq, həm sanksiyalara məruz qalmış tərəflərlə, həm də Qərb ilə əlaqələrini qoruyur. Rəsmi Bakı bununla regional güc balansını koordinasiya edən və strateji diplomatiya həyata keçirən aktor olduğunu göstərir.

Deməli, görüş transmilli iqtisadi və siyasi simmetriyanın formalaşması üçün strateji addımdır. Rusiya və İran sanksiyalara qarşı özlərinin müqavimət imkanlarını sınayır, Azərbaycan isə bütün bu prosesi idarə edərək regionda uzunmüddətli sabitliyi təmin edir.

Platformanın Qərb kontekstində də nəyi ifadə etdiyini diqqətlə qiymətləndirmək lazımdır. Bəlkə ilk baxışdan üçtərəfli görüş Qərbə qarşı alternativ kimi görünə bilər, lakin, əslində, reallıq bundan daha mürəkkəbdir. Bakı burada Qərblə rəqabət aparmaq məqsədindən çox, öz müstəqil, çoxmərkəzli diplomatiyasını nümayiş etdirir. Azərbaycan həm Qərb ölkələri ilə enerji və iqtisadi əməkdaşlığı qoruyur, həm də Rusiya və İranla strateji layihələri inkişaf etdirir. Rəsmi Bakının bu yanaşması, eyni zamanda, regiondakı geoiqtisadi prosesləri idarə etmək və strateji üstünlüyünü təmin etmək qabiliyyətinin göstəricisidir.

Belə bir mövqe Bakı üçün iki mühüm üstünlük yaradır: bir tərəfdən, Qərb ölkələri ilə iqtisadi və enerji əlaqələrini saxlamaqla beynəlxalq etibarlılığını qoruyur; digər tərəfdən, Rusiya və İranla əməkdaşlıq vasitəsilə regionda alternativ dəhlizlər və strateji təsir zonaları yaratmaq imkanı əldə edir. Bütün bunlar həm də geosiyasi çevikliyi və diplomatik manevr qabiliyyətini təmin edən bir mexanizmdir.

Bakı modelində diqqətçəkən əsas nüans budur ki, hər bir addım Qərbə qarşı deyil, çoxvektorlu strateji balansın bir elementidir.

Görüşün iqtisadi və siyasi nəticələrini qiymətləndirdikdə isə diqqətçəkən daha dərin nüanslar ortaya çıxır. Gömrük və logistika sahəsində razılaşmalar siyasi mesaj xarakteri daşıyır. Hər bir koordinasiya, sərhəd prosedurlarının sadələşdirilməsi və yük axınlarının optimallaşdırılması tərəflərin qarşılıqlı etibarının artması deməkdir. Deməli, bu amil uzunmüddətli perspektivdə regionda etibarlı inteqrasiya mexanizmi yaradır və gələcəkdə daha geniş regional əməkdaşlıq formatlarının təməlini qoyur. Burada inteqrasiya mexanizmi dedikdə, tərəflərin yalnız ticarət və nəqliyyat axınlarını optimallaşdırması nəzərdə tutulmur. Əslində, bu, qarşılıqlı etimadın qurulması, qarşılıqlı asılılığın formalaşdırılması və regional qərarvermə proseslərində koordinasiyanın təmin edilməsi deməkdir.

Məsələn, sərhəd prosedurlarının sadələşdirilməsi və yük axınlarının optimallaşdırılması hər bir tərəf üçün iqtisadi fayda, amma eyni zamanda siyasi güvən və davamlı əməkdaşlıq üçün zəruri şərtlər yaradır. Belə bir mexanizm tərəflərə imkan verir ki, regional layihələrdə qərarları birlikdə qəbul etsin, qarşılıqlı maraqlar pozulmadan əməkdaşlıq strukturunu qorusun. Yəni tərəflərin maraqlarını balanslaşdıran, uzunmüddətli sabitliyi təmin edən və regional siyasətdə koordinə olunmuş hərəkəti mümkün edən sistem nəzərdə tutulur.

Ən maraqlısı isə budur ki, "Bakı üçlüyü" artıq bir regional əməkdaşlıq laboratoriyasına çevrilir. Burada tərəflər gələcəkdə iqtisadi və siyasi layihələr üçün praktik modellər sınayırlar. Eyni zamanda bu əməkdaşlıq siyasi simmetriyanın qorunmasına da xidmət edir: hər bir tərəf öz maraqlarını qoruyur, amma qarşılıqlı asılılıq vasitəsilə sabitliyin yeni mexanizmini yaradır.

Bütün bunlar göstərir ki, Bakıda keçirilən görüş regionda yeni güc arxitekturasının sınağı, diplomatik çevikliyin və çoxvektorlu siyasətin təzahürüdür. Azərbaycan–Rusiya–İran üçtərəfli görüşü regional sabitliyin, qarşılıqlı asılılığın və transmilli inteqrasiyanın ilkin konturlarını nümayiş etdirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Sülhə töhfə verən ölkə nümunəsi

## *Kopenhagen, Qəbələ və Düşənbədən sonra yolumuz Misirədir*



**Ölkəmizin diplomatik uğurları silsilə xarakter daşıyır. Kopenhagen, Qəbələ və Düşənbədə keçirilən beynəlxalq tədbirlərdə iştirak edən ölkəmiz bu dəfə Yaxın Şərq Sülh Sammitinə dəvət alıb. Sammitə dəvət dövlətimizin beynəlxalq siyasətdə qazandığı etimad və nüfuzun növbəti parlaq nümunəsidir. Əslində, son illərdə formalaşdırılan balanslı, sülhyönümlü və çoxqütblü siyasəti nəzərə alsaq, Yaxın Şərq kimi mürəkkəb geosiyasi mühitdə keçirilən sülh sammitinə dəvət Azərbaycanın qlobal miqyasda da siyasi oyunçuya çevrildiyini göstərir.**

Bu, həm də beynəlxalq aləmdə Qarabağda sülhü bərpa etmiş, postmünaqişə dövrünü real inkişaf modelinə çevirən ölkə modelinin yüksək qiymətləndirildiyinin əyani sübutudur. Bəs, Yaxın Şərq sülh sammitində iştirak hansı mənaya gəlir? İlk növbədə vurğulayaq ki, keçirilən sülh sammiti Yaxın Şərqdə təhlükəsizlik, enerji və humanitar məsələlərin müzakirə olunduğu ən mühüm platformalardan biridir. Azərbaycanın sammitə dəvət olunması artıq ölkəmizin regiondankənar böhranlarda da vasitəçi, dialoq təşəbbüskarı kimi qəbul olunduğunu təsdiqlədi. Xüsusi vurğulanmalıdır ki, bu etimadın bünövrəsini Prezident İlham Əliyevin sülh diplomatiyası, əməkdaşlığı əsas götürən xarici siyasət fəlsəfəsi qoyub. Azərbaycan BMT, Qoşulmama Hərəkatı və COP29 kimi platformalarda sübut etdi ki, sülh çağırışları əməli siyasətin tərkib hissəsi olmalıdır.

Şarm əl-Şeyx Sammitinə aparan diplomatik yol, əslində, son on gündə Azərbaycanın keçdiyi üç strateji mərhələnin (Kopenhagen–Qəbələ–Düşənbə) məntiqi davamı kimi qiymətləndirilməlidir. Bu, ölkə başçısının oktyabr ayı ərzində iştirak etdiyi dördüncü beynəlxalq tədbirdir.

Yeri gəlmişkən, 1-2 oktyabr tarixində Danimarkanın paytaxtı Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin VII Zirvə toplantısı qitənin enerji təhlükəsizliyi, regional münaqişələr və strateji tərəfdaşlıq münasibətləri baxımından mühüm siyasi platforma kimi yadda qaldı. Tədbir Avropanın mövcud geosiyasi balansında yeni diplomatik xəritələrin cızıldığı bir zamanda baş tutdu. Toplantıda Azərbaycan Prezidentinin iştirakı və səsləndirdiyi fikirlər xüsusi siyasi çəkiyə malik idi. Çünki Avropanın enerji arxitekturasında Azərbaycan strateji tərəfdaş kimi qəbul olunur. Ötən ildən etibarən ölkəmizin enerji resursları Avropanın 12 dövlətinə ixrac olunur ki, bu da Cənub Qaz Dəhlizinin Avropanın enerji təminatı üçün real alternativ kimi təsdiqləndiyini göstərir. Rəsmi Bakının 2027-ci ilə qədər qaz ixracını 20 milyard kubmetrə çatdırmaq planı isə Azərbaycanın geoiqtisadi mövqeyinin Avropa enerji strategiyasına inteqrasiyasının təcəssümüdür.

Azərbaycan Prezidentinin 6-7 oktyabr tarixlərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən XII Zirvə Görüşündə iştirakı isə regional inteqrasiya prosesləri, həm də Türk dünyasının gələcək siyasi arxitekturasının formalaşması baxımından mühüm tarixi hadisə kimi qiymətləndirilir. Zirvə müasir beynəlxalq münasibətlər sistemində türk dövlətlərinin ortaq maraqlar əsasında vahid diplomatik mövqe sərgiləmək potensialını nümayiş etdirdi. Bir məqamı da qeyd edək ki, Qəbələnin Zirvə məkanı kimi seçilməsi təsadüfi deyildi. Azərbaycanın tarixi-mədəni irsinin, tolerantlıq ənənələrinin və Şərqlə Qərbin qovuşduğu sivilizasiyaların simvolu olan Qəbələdə keçirilən toplantı həm mənəvi, həm də strateji baxımdan türk dövlətlərinin birliyinə yeni məna qazandırdı. Qəbələ bu dəfə Türk dünyasının gələcək inkişaf konsepsiyasının "siyasi laboratoriyasına" çevrildi. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı qeyd etdi ki, Türk Dövlətləri Təşkilatı tarixi, dil və mədəniyyət birliyi üzərində, iqtisadi, nəqliyyat, enerji və təhlükəsizlik maraqlarının strateji uyğunluğu əsasında möhkəmlənməlidir. Rəsmi Bakı faktiki olaraq, TDT-nin qərb dayağı və ən mühüm strateji tranzit mərkəzidir. Zəngəzur dəhlizinin işə düşməsi, Orta Dəhliz layihələrinin genişlənməsi və enerji əməkdaşlığı istiqamətində Azərbaycanın rolu Türk dünyasını Avrasiya məkanında real geosiyasi qüvvəyə çevirən əsas faktorlardandır.

Oktyabrın 9-10-da baş tutan Düşənbə Sammiti də mühüm məqamlarla yadda qaldı. Prezident İlham Əliyev Düşənbədə toplantısında çıxışı zamanı, ilk növbədə, Azərbaycan–Tacikistan münasibətlərinin ardıcıl və dinamik inkişafını vurğuladı. Dövlət başçısının bu mesajı ikitərəfli əlaqələrlə yanaşı, Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində əməkdaşlıq modelinə yanaşmanı ifadə edirdi. Bununla bir daha təsdiqləndi ki, MDB məkanında münasibətlərin səmərəli şəkildə inkişafı dostluq, qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və real dəstək prinsipləri üzərində mümkün ola bilər. Məhz yanaşma ölkəmizin regional diplomatiyasının mahiyyətini müəyyən edən əsas xətti, qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq fəlsəfəsini bir daha önə çıxardı.

Sonda bir daha qeyd edək ki, on günlük uğurlu diplomatik marafonun məntiqi davamı kimi İlham Əliyevin Misirdə keçirilən Sülh Sammitinə dəvət alması artıq Azərbaycanın qlobal arenada nüfuzunun yeni mərhələyə yüksəldiyini göstərir. Bu həm də son günlər ərzində formalaşan çoxvektorlu diplomatik fəallığın təbii nəticəsi sayılmalıdır.

**P.S.** *"Prezident İlham Əliyevin Şarm əl-Şeyxdə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirak etməsi Azərbaycanın artan regional rolunun və orta güc kimi qlobal xarici siyasətinin təzahürüdür. Azərbaycan Yaxın Şərqdə sülh gündəliyi baxımından bütün tərəflər üçün arzuolunan tərəfdaşdır". Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında yazıb.*

***Nəzrin ELDARQIZI***
***XQ***

***Ekspert rəyi***



**Zaur MƏMMƏDOV,**
**Bakı Politoloqlar Klubunun rəhbəri**

**Yaxın Şərq Sülh Sammitinə qatılmaq, əlbəttə ki, hər ölkə başçısına nəsib olmur. Biz çox az sayda dünya liderlərinin həmin vacib tədbirdə iştirakına şahidlik edirik. Bu, ilk növbədə, həmin liderlərin beynəlxalq nüfuzu və eyni zamanda, ABŞ-la münasibətlərinin səviyyəsi ilə bağlıdır. Azərbaycan–ABŞ münasibətləri hazırda yüksək səviyyədə inkişaf edir, həm Vaşinqtonda, həm də Yaxın Şərqdə yaxşı başa düşülür ki, Azərbaycan bu gün regionlar arasında birləşdirici, inteqrasiyaedici rol oynayır. Misirin yerləşdiyi coğrafiya və Yaxın Şərqdə son illər baş verən hadisələr fonunda Azərbaycanın bölgədə fəallaşdığını görürük.**

44 günlük Vətən müharibəsindəki qələbədən Azərbaycanın xarici siyasəti yeni istiqamətlərə, yeni hədəflərə yönəlib. Müstəqillik illərindən bəri ilk dəfədir ki, Azərbaycan Yaxın Şərq və Afrika istiqamətində bu qədər ardıcıl və məqsədyönlü siyasət yürüdür, həmin bölgələrdə siyasi, iqtisadi fəallığını artırır. Yaxın Şərqdə davam edən mürəkkəb geosiyasi vəziyyət fonunda dünya ictimaiyyəti ilk dəfə bu qədər ciddi şəkildə münaqişəyə son qoyulmasına ümid bəsləyir. Nəticə etibarilə, Şarm əl-Şeyxdə keçirilən tarixi görüşlər Prezident İlham Əliyevin iştirakı baxımından Azərbaycanın beynəlxalq imici və statusu üçün son dərəcə əhəmiyyətlidir. Azərbaycan bu gün qlobal məsələlərin həllində fəal iştirak edən təşəbbüskar dövlət kimi tanınır. Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində atılan addımlar göstərdi ki, Azərbaycanın xarici siyasət fəlsəfəsi digər dövlətlərin suverenliyinin və müstəqil siyasət yürütmək imkanlarının möhkəmlənməsinə dəstək verir. Prezident İlham Əliyevin fəaliyyəti xalqların əmin-amanlıq, sabitlik və iqtisadi uğur əldə etməsində mühüm rol oynayıb.

Bu gün dünyanı narahat edən qlobal problemlər – dövlətlərarası münaqişələr, ekoloji böhranlar, "yaşıl enerji" keçidi kimi məsələlər Azərbaycanın diqqət mərkəzindədir. Ölkəmiz bu mövzuları beynəlxalq platformalarda fəal şəkildə qabardır və onların müzakirəsinə, eləcə də praktiki həllinə mühüm töhfə verir. Qarşıdakı illərdə də Azərbaycanın kiçik coğrafi ölçülərinə baxmayaraq, qlobal miqyaslı proseslərdə iştirak edən və böyük dövlətlərlə eyni platformalarda söz sahibi olan ölkə kimi nüfuzunun artacağı şübhəsizdir.

# Qonşuluq diplomatiyasının zəfəri

## *Moskva–Bakı dialoqunun bərpası Cənubi Qafqazda sabitliyə dəstək qazandırır*



**Milli maraqların hökmü dövlətlərarası münasibətlərin axarını müəyyən edən qüdrətli qanunauyğunluqdur. Həmin proses müvəqqəti anlaşılmazlıqların və ya kənar təsirlərin yaratdığı süni bəndlərlə ləngiyə bilər, amma strateji zərurətin dəyişməz hökmü gec-tez yolunu açır. Azərbaycan və Rusiya arasında münasibətlərdə son dövrlər müşahidə olunan istiləşmə və dialoqun yenidən intensivləşməsi məhz həmin məntiqin təntənəsidir. İki qonşu dövlətin siyasi iradə nümayiş etdirərək süni maneələri dəf etməsi, hər iki tərəf üçün şübhəsiz qazanc, məsuliyyətli qonşuluq diplomatiyasının zəfəri və Cənubi Qafqazda dayanıqlı sülhün gələcəyi naminə atılmış mühüm addımdır.**

Münasibətlərin hazırkı mərhələdəki uğurunun və effektivliyinin əsas açarı, şübhəsiz ki, prosesin geniş ictimai diskursun səs-küyündən, media manipulyasiyalarından və populist çağırışlardan kənarda sakit, təmkinli və işgüzar təmaslar formatında aparılmasıdır. Diplomatiya tarixi sübut edir ki, emosiyaların və subyektiv mülahizələrin soyuq dövlətçilik məntiqini və siyasi məqsədəuyğunluğu kölgədə qoyduğu anlarda ən dayanıqlı, möhkəm təmələ söykənən münasibətlər belə ciddi sınaqlara çəkilə bilər. Məhz buna görə də iki ölkənin dövlət institutları və siyasi rəhbərlikləri arasında aparılmış sakit, qapalı və konfidensial təmaslar münasibətlərin sağlam məcraya qaytarılması üçün ən optimal yol kimi seçilib. Bu yanaşma, ilk növbədə, emosiyalardan kənar, sırf qarşılıqlı maraqlar, regional təhlükəsizlik reallıqları və iqtisadi zərurətlər nəzərə alınmaqla dialoqun davam etdirilməsinə imkan yaratdı. İctimai müzakirələrə çıxarıldığı təqdirdə siyasi spekulyasiya obyektinə çevrilə biləcək həssas məsələlər peşəkar diplomatların və mütəxəssislərin masası arxasında sakit şəkildə müzakirə edildi. Bu cür metod, eyni zamanda, hər zaman Azərbaycan-Rusiya münasibətlərində gərginlik yaratmaqda maraqlı olan təxribatçı üçüncü qüvvələrin prosesə müdaxilə etmək, yalan məlumatlar yaymaqla ictimai rəyi çaşdırmaq və danışıqları pozmaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Normallaşma prosesinin hərtərəfli, dərin və səmimi xarakter alması cəmiyyətlər səviyyəsində hiss olunması üçün növbəti fundamental vacib addım, heç şübhəsiz, Rusiyada yaşayan və bu ölkənin vətəndaşı olan milyonlarla azərbaycanlıya qarşı son vaxtlar intensivləşən təqiblərin, təzyiqlərin və ayrı-seçkilik hallarının tamamilə və qeyd-şərtsiz dayandırılmasıdır. Dövlətlərarası münasibətlərin həqiqi səmimiliyi və strateji dərinliyi, imzalanan sənədlərin sayından daha çox, vətəndaşlara, xüsusilə də iki xalq arasında canlı körpü rolunu oynayan diaspora qarşı real münasibətdə özünü aydın şəkildə büruzə verir. Rusiya cəmiyyətinin sosial, iqtisadi, mədəni və elmi həyatına əsrlər boyu misilsiz töhfələr vermiş, yaşadıqları ölkənin qanunlarına hörmətlə yanaşan qanunpərəst azərbaycanlıların etnik mənsubiyyətlərinə görə hədəfə alınması, kütləvi yoxlamalara məruz qalması, dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq ruhuna zidd olan, münasibətlərin ümumi pozitiv fonunu kölgə altına alan arzuolunmaz vəziyyətdir. Bu cür hallar həm münasibətlərin səmimiliyinə inamı sarsıdır, həm də iki ölkə arasında gərginlik yaratmaq istəyən qüvvələrin əlinə əlavə fürsət verir. Ümid etmək istərdik ki, dövlət başçıları səviyyəsində əldə olunmuş anlaşmalardan və keçirilmiş görüşlərdən sonra Rusiya Federasiyasının aidiyyəti dövlət qurumları, xüsusilə hüquq–mühafizə bloku lazımi siyasi impulslar aldı və cəmiyyətdə narahatlıq yaradan həmin mənfi tendensiyaya ən qısa zamanda son qoyulacaq.

Bütün mürəkkəb tarixi dövrlərə, regional böhranlara və bəzən üst-üstə düşməyən fərqli maraqlara baxmayaraq, Azərbaycan və Rusiya üçün heç zaman dəyişməyən və dəyişməyəcək fundamental həqiqət var: biz dostuq və ən əsası, qonşuyuq. Coğrafiyanı və minilliklərlə formalaşan tarixi dəyişmək, sadəcə olaraq, mümkün deyil. Həmin coğrafi qonşuluq, iki ölkəyə və xalqa həm böyük imkanlar verir, həm də böyük məsuliyyət yükləyir. Təhlükəsizlikdən iqtisadiyyata, nəqliyyatdan humanitar əlaqələrə qədər saysız-hesabsız sahədə iki ölkənin taleyi bir-birinə bağlıdır. Şimaldan gələn təhdidlərin qarşısının alınmasında Azərbaycanın sabitliyi Rusiya üçün nə qədər əhəmiyyətlidirsə, Şimal–Cənub nəqliyyat dəhlizinin tam gücü ilə işləməsində Rusiyanın rolu Azərbaycan üçün o qədər vacibdir. Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunması hər iki ölkənin strateji maraqlarına cavab verir. Məhz buna görə də münasibətlərə pozitiv yanaşma hər iki ölkənin milli maraqlarından irəli gələn praqmatik və strateji imperativdir. Yaranmış anlaşılmazlıqları aradan qaldırmaq və əməkdaşlığı dərinləşdirmək hər iki dövlətin gücünü artırır, regionda onların mövqelərini möhkəmləndirir. Bu reallığı dərk etmək, müvəqqəti emosional partlayışlara və konyunktur maraqlara uymamaq məsuliyyətli dövlətçilik təfəkkürünün əsas tələbidir.

Azərbaycan–Rusiya münasibətlərinin normallaşması bütövlükdə Cənubi Qafqaz regionunun sabitliyinə, təhlükəsizliyinə və inkişafına xidmət edən mühüm hadisədir. Tarixi Zəfərdən sonra regionda yaranmış geosiyasi reallıqlar bütün regional liderlərdən daha konstruktiv və məsuliyyətli yanaşma tələb edir. Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanla regionun ən böyük qonşusu və təhlükəsizlik məsələlərində mühüm rola malik Rusiya arasında işlək və etimada əsaslanan dialoqun mövcudluğu bütün regional proseslərin müsbət məcrada inkişafı üçün həlledici şərtdir. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesinin irəliləməsi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası kimi mürəkkəb məsələlərin həllində Bakı və Moskvanın konstruktiv əməkdaşlığı müsbət təsirə malikdir. Eyni zamanda, "3+3" formatı kimi regional əməkdaşlıq platformasının fəaliyyətinin effektivliyi də birbaşa Azərbaycan–Rusiya münasibətlərinin səviyyəsindən asılıdır. İki ölkə arasında münasibətlərdəki gərginlik regionda qeyri-müəyyənlik yaradır və regiondankənar qüvvələrin Cənubi Qafqazın işlərinə müdaxiləsi üçün əlverişli şərait yaradır. Əksinə, Bakı və Moskva arasında sağlam və işgüzar münasibətlər regionun problemlərinin bölgə ölkələri tərəfindən həlli prinsipinə xidmət edir və Cənubi Qafqazın kənar geosiyasi oyunların meydanına çevrilməsinin qarşısını alır. Buna görə də hazırkı normallaşma prosesi Cənubi Qafqazda daha təhlükəsiz və firavan gələcəyin qurulması istiqamətində atılmış mühüm addım kimi qiymətləndirilməlidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

***Ekspert rəyi***



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

**Oktyabrın 9-da Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş ikitərəfli münasibətlərdə mühüm dönüş nöqtəsi oldu. Görüş zamanı Rusiya Prezidenti AZAL-ın təyyarəsinin vurulmasına görə rəsmi şəkildə üzr istədi, hadisəyə görə məsuliyyəti qəbul etdi, zərərçəkən ailələrə kompensasiyanın ödəniləcəyini və günahkar şəxslərin hüquqi müstəvidə cəzalandırılacağını bəyan etdi. Bu açıqlamalar Azərbaycan–Rusiya münasibətlərində yaranmış gərginliyin aradan qaldırılmasına və yeni diplomatik mərhələnin başlanmasına real imkanlar açdı.**

Şübhəsiz ki, münasibətlərdə yaranmış böhrana görə məsuliyyət qarşı tərəfin üzərinə düşürdü. Buna görə də əlaqələrin normallaşdırılması istiqamətində ilk addımı atmalı olan tərəf Rusiya idi. Moskvanın atdığı ilkin addımlar və səsləndirilən bəyanatlar bir tərəfdən Azərbaycanla təzyiq və təhdid dili ilə danışmağın faydasız olduğunu göstərdi, digər tərəfdən isə münasibətlərin gərginləşməsində maraqlı olan dairələrin planlarını puç etdi. Simonyan, Solovyov, Zatulin və digər ermənipərəstlərin münasibətləri uçuruma sürükləmək cəhdlərinin qarşısı liderlərin mövqeyi sayəsində alındı.

Rusiya tərəfindən səhvlərin etiraf edilməsi göstərdi ki, Azərbaycanla münasibətlərin davamlılığı yalnız qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsipləri əsasında mümkündür. Azərbaycan–Rusiya münasibətlərinin normallaşması hər iki tərəfin strateji maraqlarına uyğundur və bu istiqamətdə Rusiya tərəfindən davamlı və ardıcıl addımların atılması vacibdir.

İlk növbədə Rusiyada anti-Azərbaycan mövqeyindən çıxış edən media qurumları, ekspertlər, deputatlar və bəzi rəsmi şəxslər Prezident Putindən nümunə götürməli, münasibətlərə zərbə vuran ritorikadan imtina etməlidirlər. Eyni zamanda, Rusiyada yaşayan və çalışan soydaşlarımıza – iş adamlarına, diaspor təşkilatlarına qarşı haqsızlıq və əsassız hücumlar dayandırılmalı, Yekaterinburq hadisələrində "fərqlənənlərin" cəzalandırılması istiqamətində konkret tədbir görülməlidir.

*Replika*

**Əvvəlcə yazımıza sərlövhə olaraq “Erməni lobbisti Adam Şiffin “Sizif əməyi”, yaxud “Sizif daşı” kimi fikirləşmişdik. Amma Kaliforniya haylarının puluna hərisliyinin dərəcəsi itirilmiş senatoru qədim yunan mifologiyasındakı küləklər hökmdarı Eolun oğlu Siziflə müqayisə etməyi küfr saydıq. Allahları aldatdığı üçün ömürlük cəzaya – dağın ətəyindən zirvəsinə kimi daşı diyirlətməyə məhkum edilmiş qələtkar onu son nöqtəyə çatdıran kimi daş üzüaşağı yuvarlanırmış. Sizifin gördüyü işin səmərəsizliyini və mənasızlığını həyatın boşluğu ilə müqayisə kontekstində ədəbiyyata gətirən Əlcəzair əsilli məşhur fransız yazıçısı Albert Kamyu rəvayəti “Zirvəyə doğru təkbaşına didinməyin belə bir insanın ürəyini doldurmağa yetər” fəlsəfəsi ilə ifadə edib.**

# Adamı yerində belə oturdurlar...

İndi biz ibrətamiz mif qəhrəmanının əbədi əzabını ürəyi vicdandan, düşüncəsi ədalətdən məhrum demokrat senatorun əməlləri ilə müqayisə edə bilmərik. Çünki ABŞ-da ermənilərin kompakt yaşadığı Kaliforniya ştatından Senata üzv seçilmiş Adam Şiffin anti–Azərbaycan fəaliyyəti – kriminal xarakterli cinayət əməlləri miflərlə deyil, qanunvericiliklə tövsif olunmalıdır. Bəri başdan deyək ki, onun da son “mənzilinin” hayperəst həmkarı Bob Menendez kimi dəmir barmaqlıqlar arxasında olacağına şübhəmiz yoxdur. Amma hələlik Şiff boynuna qoyulan missiyanı yerinə yetirməyə, yəni Azərbaycana qarşı şər-böhtan dolu çıxışlar etməyə, hansısa qanun layihəsinə Bakıya təzyiqi nəzərdə tutan düzəlişi irəli sürməyə borcludur. Amma daha nə Ağ Ev əvvəlki Ağ Evdir, nə də Kapitolidə bir il əvvəlki ab-hava hökm sürür.



Senat Adam Şiffin 2026-cı maliyyə ili üçün Milli Müdafiə Səlahiyyəti Aktına təklif etdiyi anti-Azərbaycan düzəlişinə baxmaqdan imtina etməklə təkcə təşəbbüsün müəllifini deyil, həm də erməni lobbisini yerinə oturtmuş oldu. Azərbaycana təzyiq etmək məqsədi daşıyan budəfəki düzəliş o qədər siyasiləşmiş və reallıqdan uzaq idi ki, heç səsvermə mərhələsinə gedib çıxa bilmədi. Demokrat Şiff təklif etmişdi ki, Vaşinqton rəsmi Bakını “Həbsdə olan ermənilərə qarşı saxta məhkəmələrə (?) son qoymağa, bütün erməni hərbi əsirləri (?) və əsir götürülmüş mülki şəxsləri (?) Ermənistana qaytarmağa” çağırsın. Layihəyə düşəlişdə, həmçinin Tramp administrasiyasına “ATƏT-in Minsk qrupu (?) vasitəsilə” Bakıya diplomatik təzyiqi artırmaq tövsiyə olunurmuş. Əlavə təzyiq vasitəsi kimi hətta “Maqnitski Aktı” ilə Azərbaycan məmurlarına qarşı fərdi sanksiyaların tətbiqi imkanlarının nəzərdən keçirilməsi də irəli sürülübmüş.

Senatın gündəliyinə belə salınmağa layiq görülməyən bu təkliflər ABŞ qanunverici orqanının stenoqram yaddaşına Şiffin siyasi şousu kimi yazıldı. Bu Adamın elementar siyasi məntiqlə düşünmək qabiliyyəti olsaydı, Ağ Evin Azərbaycan və Ermənistan arasında sülh dialoqunun inkişaf etdirilməsi missiyasına zidd sənədi ağlı başında olan heç bir senatorun dəstəkləməyəcəyini anlamalı idi. Ən azı, bu səbəbdən nəticə əvvəlcədən gözlənilirdi. İndi Şiff kimi erməni lobbisi də papağı qarşılarına qoyub fikirləşməli və dərk etməlidir ki, Azərbaycana qarşı saxta arqumentlər, emosional bəyanatlar, tarixi miflər erası arxada qaldı. Adam Şiffin onsuz da uzun illər ABŞ-dakı erməni diasporu ilə “qırılmaz tellərlə” bağlılıqda hallanırdı.

Erməni icmasının ənənəvi olaraq güclü sayıldığı Kaliforniya ştatından Senata seçilən Adam Şiff ardıcıl, həm də nümayişkaranə şəkildə anti-Azərbaycan mövqe tutub. O, Ermənistan–Azərbaycan münaqişəsinin səbəb və nəticələrini təhrif edən, işğalçını deyil, bizi “təcavüzkar” kimi qələmə verən çoxsaylı qətnamələrin müəllif–sponsorlarından biri olub. Dəfələrlə Bakını Qarabağ ermənilərinə qarşı “müharibə cinayətləri” törətməkdə, “soyqırımı”nda ittiham edib. Hələ 5 il bundan əvvəl, 44 günlük müharibənin gedişində Şiff Konqresdəki çıxışında ABŞ-dan “insidentə müdaxilə və Bakını dayandırmağı” tələb etmişdi. O, Azərbaycanın öz ərazilərinin işğalçıdan azad etməsini “humanitar fəlakət” kimi qiymətləndirmiş, erməni separatizmini isə “effektiv müdafiə” kimi qələmə vermişdi.

Amma Adamın siyasi portretinin cizgiləri bununla tamamlanmır. Bədnam senatorun adı ABŞ-dakı erməni diasporuna sadiq siyasətçi kimi uzun müddət erməni lobbisinin başqa bir züytutanı, indi həbsxanada səmadan məhrum edilmiş senator Robert Menendezlə eyni ampluada hallanır. Sonuncu təkcə özünün çoxsaylı anti-Azərbaycan təşəbbüsləri ilə deyil, həm də böyük korrupsiya qalmaqalları – rüşvət almaqda, xarici şirkətlərlə qanunsuz sövdələşmələrdə, vəzifə səlahiyyətlərindən sui-istifadədə, hətta casusluqda ittiham olundu. Bu ifşalar fonunda Şiffin də hayperəst “fəaliyyəti” ciddi suallar doğurur. Onun “prinsipləri” çox vaxt Konqresdəki “dostlarının” seçki kampaniyalarını səxavətlə maliyyələşdirən erməni diasporunun maraqları ilə üst-üstə düşür. Çox güman ki, ABŞ Femidası senator Adam Şifflə bağlı da “Menendezgeyt”ə bənzər bir cinayət dosyesi üzə çıxaracaq.

Maraqlı bir məqama diqqət yetirək. Şiffin düzəlişi bu il iyulun 31-də dərc edilib. Həmin düzəlişdə o, Donald Tramp Administrasiyasını bütün səviyyələrdə, o cümlədən ATƏT-in Minsk qrupu çərçivəsində Azərbaycan hökumət orqanlarına təzyiq göstərməyə çağırıb. Cəmi bir həftə sonra, avqustun 8-də Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Vaşinqtonda keçirilən sammitində həm ATƏT-in Minsk qrupunun və ona bağlı prosesin bağlanması ilə bağlı qurumun sədrinə birgə müraciət imzaladılar, həm də liderlər Birgə Bəyannamə ilə sülh sazişinin mətnini parafladılar. Yəni Vaşinqton tərəflər arasında sülh qurarkən, Adam Şiff kimi gerizəkalılar otuz illik mantraları təkrarlamaqla, keçmişə boylanmaqla məşğul olurlar. Demokratlar arasında heç kim Ağ Evin Azərbaycan və Ermənistan arasında sülh dialoqunun inkişaf etdirilməsi ilə bağlı öhdəliyinə zidd hər hansı sənədi dəstəkləməyib. Cəmi on il əvvəl hayperəstlərin bu cür təşəbbüsləri onlarla imza toplaya bildiyi halda, bu gün qıcıqdan başqa heç nəyə səbəb olmur, mifdən çox macəraya bənzəyən bu son hadisə isə acı gülüşdən başqa heç bir reaksiya doğurmur. Dünya dəyişib və Amerikanın xarici siyasəti getdikcə etnik lobbilərdən azad olur. Bu gün prioritetlər sabitlik, enerji marşrutları və strateji ittifaqlardır. Azərbaycan isə bu memarlığın əsas elementidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Paşinyan “üçlüyə” meydan oxuyur

## *Nikol sələflərini milli xəyanətdə ittiham edir*



**Ermənistanın üç keçmiş prezidenti – Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyanın ölkənin baş naziri Nikol Paşinyana qarşı apardıqları siyasi mübarizə az qala sinfi mübarizə müstəvisinə keçib. Onlar əllərində olan bütün vasitələrdən – təmsil olunduqları parlamentin tribunasından, kütləvi informasiya vasitələrindən, sosial şəbəkələrdən, mitinq və yürüşlərdən, müxtəlif kampaniyalardan istifadə edərək Paşinyanın reytinqini aşağı salmağa, onu cəmiyyətin gözündə hörmətsiz etməyə çalışırlar.**

Bu mübarizənin mahiyyətində şəxsi ambisiyalarla yanaşı, erməni xalqının 2018-ci ildə tarixin zibilliyinə tulladığı siyasi elitanın itirdiyi mövqeləri bərpa etmək istəyi dayanır. Keçmiş prezidentlər üçün Paşinyanın hakimiyyətdə qalması onların həm siyasi nüfuzunun, həm də maddi dayaqlarının tam çökməsi deməkdir. Ona görə də mübarizə yalnız ideoloji deyil, həm də iqtisadi maraqlar üzərində qurulub. Hakimiyyət daxilindəki sabitliyi, monolitliyi pozmaq, hökumət daxilində parçalanma yaratmaq bu düşərgənin əsas taktikasına çevrilib.

Lakin bütün bu səylərə baxmayaraq, Paşinyan hələlik kütləvi dəstəyini qorumaqda və öz siyasi gündəmini diktə etməkdə davam edir. Eyni zamanda, o, sabiqlərin heç bir ağır ittihamını cavabsız buraxmır, onların dediklərinin və yazdıqlarının yalan olduğunu bildirir. Nikol “üçlüyü” dəfələrlə debata çağırması ilə də öz siyasi üstünlüyünü nümayiş etdirməyə çalışır. Paşinyan bununla həm ictimai rəydə şəffaf və açıq siyasətçi obrazını gücləndirmək, həm də rəqiblərinin arqumentsizliyini ifşa etmək niyyətindədir. Lakin keçmiş prezidentlər debat meydanına çıxmaqdan yayınaraq tənqidi hücumlarını daha çox mediada və qapalı dairələrdə davam etdirirlər. Bu isə onların cəmiyyətdə etimad qazanmaq imkanlarını xeyli məhdudlaşdırır. Nəticədə “üçlüyün” mübarizəsi çox vaxt revanşist emosiyalarla müşayiət olunan taktiki gedişlərdən o tərəfə keçə bilmir.

*

Oktyabrın 13-də Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirə – Şarm əl-Şeyx şəhərinə işgüzar səfərindən qabaq “Facebook” sosial şəbəkəsindəki hesabında yerləşdirdiyi videoda Paşinyan belə bir sual ünvanlayıb: “Ermənistanın üç keçmiş rəhbəri Qarabağ məsələsi ilə bağlı təsəvvür etdikləri “möhtəşəm həll” yollarını niyə həyata keçirməyiblər?”

Onun sözlərinə görə, burada iki variant ola bilər: “Birincisi odur ki, onlar cinayətkar hərəkətsizliyə yol verərək, bəlkə də Ermənistanın deyil, xarici dövlətlərin maraqlarına xidmət edərək, bizi Qarabağ məsələsinin “möhtəşəm həll yollarından” məhrum ediblər. İkinci variant bundan ibarətdir ki, onların təsəvvür etdiyi “möhtəşəm həllər” sadəcə ağıllı məşğuliyyətlərə əsaslanan siyasi yalandır və onları həyata keçirilməsi heç vaxt mümkün olmayıb”.

Ermənistan siyasi səhnəsində son illər müşahidə olunan əsas tendensiya keçmişin qalıqları ilə yeni siyasi elitanın sərt toqquşmasıdır. Bu qarşıdurmanın mərkəzində isə, şübhəsiz ki, üç keçmiş prezident və Paşinyan dayanır. 2018-ci ildə xalq etirazlarının dalğası üzərində hakimiyyətə gələn Paşinyan özünü “köhnə Ermənistan”ın korrupsiyaya bulaşmış sisteminə alternativ kimi təqdim etmişdi. Lakin “üçlük” üçün bu dəyişikliklər onların illərlə qurduqları siyasi-iqtisadi nizamın dağılması anlamına gəlirdi. Elə buna görə də bu gün Ermənistan siyasətində müşahidə etdiyimiz qarşıdurma, sadəcə, ideoloji ziddiyyət deyil, həm də sistemlərin toqquşmasıdır. Bir tərəfdə özünü islahatçı kimi təqdim edən, Qərblə yaxınlaşma xəttini yürüdən Paşinyan dayanırsa, digər tərəfdə Rusiyayönümlü, keçmiş klan maraqlarını qorumağa çalışan məlum “üçlük” dayanır. Onların apardığı kampaniyalar, mediada və sosial şəbəkələrdə Paşinyana qarşı yönələn tənqidlər bu mübarizənin dərinliyini göstərir.

Paşinyanın oktyabrın 13-də “Facebook”da yayımladığı video bu mübarizənin növbəti mərhələsinin başlanğıcı kimi qiymətləndirilə bilər. Baş nazirin keçmiş prezidentlərə ünvanladığı “əgər Qarabağ məsələsinin möhtəşəm həll yollarını bilirdinizsə, niyə onları həyata keçirmədiniz?!” sualı, sadəcə, ritorik deyil, həm də strateji mahiyyət daşıyan bəyanatdır. Bu sual vasitəsilə Paşinyan öz siyasi opponentlərini həm məsuliyyətsizlikdə, həm də saxtakarlıqda ittiham edir. Onun cavab kimi irəli sürdüyü iki variant – “ya cinayətkar hərəkətsizlik, ya da siyasi yalan” – əslində, Ermənistanın son 30 illik dövlət idarəçiliyinə verilən qiymətdir. Bu cümlələr Paşinyanın ritorikasında təkcə keçmişin tənqidi kimi yox, həm də öz siyasi legitimliyinin əsaslandırılması üçün istifadə olunur.

Paşinyanın “möhtəşəm həll” ifadəsini dırnaq işarəsi daxilində, ironik şəkildə işlətməsi təsadüfi deyil. Çünki uzun illər ərzində Ermənistanın siyasi rəhbərləri Qarabağ məsələsini həm daxili siyasətdə, həm də beynəlxalq münasibətlərdə alətə çeviriblər. Koçaryan və Sarkisyanın hakimiyyəti dövründə Qarabağ klanı təkcə siyasi güc mərkəzi deyil, həm də iqtisadi resursların idarə olunmasında əsas rol oynayan struktur idi. Bu mənada Paşinyanın sualı əslində, keçmişin necə deyərlər dondurulmuş həqiqətlərini üzə çıxarır: əgər bu qədər illər ərzində Qarabağ məsələsi “milli maraq” kimi təqdim olunurdusa, niyə bu “milli maraq” nəticədə Ermənistanı regionda təcrid vəziyyətinə saldı? Niyə onların “möhtəşəm həll” dediyi siyasət Ermənistanı nə təhlükəsiz, nə də güclü edə bildi?

Paşinyanın ritorikasında bu sualların arxasında həm ictimai rəyin formalaşdırılması məqsədi, həm də keçmiş elitanın reputasiyasını tam sarsıtmaq cəhdi dayanır. O, cəmiyyətə açıq şəkildə demək istəyir ki, Ermənistanın məğlubiyyəti və geosiyasi təcridi onun yox, məhz sələflərinin yanlış qərarlarının nəticəsidir.

Ancaq Paşinyanın tənqidlərinin hədəfində olan üç keçmiş prezident bu arqumentləri qəbul etmir. Onlar Paşinyanın bu çıxışlarını “məsuliyyətdən yayınmaq və məğlubiyyətin izahını manipulyasiya etmək” cəhdi adlandırırlar. Lakin reallıq bundan ibarətdir ki, “üçlük” bu gün Ermənistanın daxilində real alternativ siyasi proqram təqdim edə bilmir. Onların mitinqləri və bəyanatları daha çox nostalji xarakter daşıyır. Yəni keçmişə qayıdış arzusunu ifadə edir. Bu isə müasir Ermənistan cəmiyyətində ciddi rezonans doğurmur.

Paşinyanın tənqidlərindəki bir məqam xüsusilə diqqət çəkir: o, keçmiş rəhbərləri xarici maraqlara xidmət etməkdə ittiham etməklə faktiki olaraq onları milli xəyanətdə suçlayır. Bu, çox riskli, amma siyasi baxımdan hesablama nəticəsində atılmış addımdır. Çünki o, öz auditoriyasına belə mesaj verir: “Keçmiş elita xalqın deyil, mənsub olduğu klanın xarici dövlətin və ya dövlətlərin maraqları üçün çalışıb. Paşinyanın bu ittihamı təkcə daxili siyasət müstəvisində deyil, həm də beynəlxalq münasibətlər kontekstində ciddi mesaj kimi qiymətləndirilə bilər. O, bu yolla həm keçmiş elitanın xarici dayaqlarını zəiflətmək, həm də hazırkı hökumətin qərbyönlü xəttini haqlı göstərmək istəyir. Çünki Ermənistan cəmiyyətində illərlə davam edən rusiyapərəst siyasi ənənə artıq etimad böhranı ilə üzləşib. Paşinyan isə bu ənənəni sarsıtmaq üçün keçmiş liderlərin adını “xarici maraqlara xidmət” konsepsiyası ilə eyniləşdirir.



Mövzu ilə bağlı **politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Paşinyan üçün bu ritorika təkcə emosional deyil, həm də siyasi baxımdan faydalıdır. Onun sözlərinə görə, Nikol öz üzərində yönəlmiş təzyiqləri azaltmağa, xalqı keçmişə qayıdışın təhlükəsi ilə qorxutmağa çalışır: “Bu yanaşma, onun seçki strategiyasının da əsasını təşkil edir. Yəni ya islahatlar, ya köhnə rejim. Ancaq bu siyasətin də müəyyən riskləri var. Çünki keçmişin daimi tənqidi bəzən real problemlərin – iqtisadi çətinliklərin, sosial narazılıqların və təhlükəsizlik risklərinin arxa plana keçməsinə gətirib çıxarır. Buna baxmayaraq, Paşinyan üçün əsas məsələ indiki mərhələdə cəmiyyətdə alternativsiz lider imicini qorumaqdır”.

İ.Hüseynov onu da bildirdi ki, keçmiş prezidentləri xarici maraqlara işləməkdə ittiham etməsi, eyni zamanda, onun Qərbə verdiyi siqnaldır: “Nikol bununla demək istəyir ki, biz artıq köhnə sistemin girovu deyilik. Lakin bu cəsarətli ritorikanın riskli tərəfləri də var. Əvvəla, keçmiş rəhbərləri bu şəkildə ittiham etmək Ermənistan daxilində siyasi qütbləşməni daha da dərinləşdirir. İkincisi, belə bəyanatlar Moskvanın gözündə Paşinyanı daha etibarsız tərəfdaş kimi göstərir və bu, ölkənin təhlükəsizlik balansını sarsıda bilər. Bununla belə, Paşinyan üçün əsas məqsəd daxili auditoriyanı inandırmaqdır ki, keçmişin korrupsioner elitası Ermənistanı müstəqil dövlət kimi deyil, xarici güclərin təsir zonasında saxlayıb. Beləliklə, o, özünü milli iradəni bərpa edən lider kimi təqdim edir və bununla həm siyasi, həm də psixoloji üstünlüyünü qorumağa çalışır”.

***Səxavət HƏMİD***
***XQ***

*2025 – “Konstitusiya və Suverenlik İli”*

**Müstəqillik hər bir xalqın ən böyük arzusu, milli dövlətçiliyin isə möhtəşəm təməlidir. Dövlət müstəqilliyini əldə etməklə yalnız siyasi azadlıq qazanmır, həm də öz gələcəyini sərbəst şəkildə müəyyən etmək imkanı əldə edir.**



# “Dəmir yumruğ”un bütövləşdirdiyi Vətən və tam suverenlik

Müstəqilliyin verdiyi imkanlar sayəsində dövlət suverenliyini möhkəmləndirir, daxildə xalqın iradəsinə söykənən idarəçilik qurur, xaricdə isə bərabərhüquqlu tərəfdaş kimi mövqeyini gücləndirir. Müstəqillikdən güc alan dövlətçilik onun suverenliyinin, xalqının milli kimliyinin, ərazi bütövlüyünün və gələcək nəsillərinin azadlığının təminatıdır.

Müstəqillik dövlətin sərbəst yaşamaq, öz taleyini özü müəyyən etmək haqqıdır. Lakin müstəqillik yalnız suverenliklə möhkəmlənir. Biz müstəqilliyimizi qorumaqla, əslində, suverenliyimizi gücləndiririk. Güclü dövlətçilik yalnız siyasi atributlarla deyil, həm də milli ruh, iqtisadi dayanıqlılıq, mədəni dəyərlərin qorunması, hüquqi və ədalətli idarəetmə ilə möhkəmlənir, güclənir. Bu güc isə xalqın birliyi və dövlətə bağlılığı ilə daim artmaqda davam edir. Güclü dövlətçilik həm də müstəqil məhkəmə, qanunun aliliyi və vətəndaşların hüquqlarının qorunması ilə təmin olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrdə apardığı və daim yeniliklər etdiyi islahatlardan biri də hüquqi islahatlardır. Həmin islahatlar öncə ulu öndər Heydər Əliyevin sədrlik etdiyi komissiya tərəfindən hazırlanmış və 12 noyabr 1995-ci il ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının və həmin konstitusiyanın ruhuna uyğun olaraq demokratik, dünyəvi qanunların, məcəllələrin prinsiplərini özündə əks etdirən qanunların qəbul edilməsidir.

Bu gün hüquq-mühafizə orqanlarının, hakimlərin, vəkillərin, mülki hüquq subyektlərinin gündəlik stolüstü kitabları olan məcəllələrimiz, qanunlarımız məhz Ulu öndərin apardığı qətiyyətli hüquq islahatları nəticəsində sovet ruhundan xilas olaraq milli, müasir dövrün tələblərinə cavab verir. Vətəni, xalqı, dövlətçilik qarşısında misilsiz xidmətlərinə görədir ki, hər il 10 may tarixində xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olması yüksək təntənə ilə qeyd edilir. Bu il – “Konstitusiya və Suverenlik İli”ndə də dahi liderin anadan olmasının ildönümünü növbəti dəfə ölkəmizdə və onun hüdudlarından kənarda hər bir azərbaycanlı yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə bayram etdi.

Ulu öndərin layiqli davamçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin suverenliyimizin təmini sahəsində gördüyü işlər və həyata keçirilən kompleks məhkəmə-hüquq islahatları nəticəsində insan hüquqlarının qorunması sahəsində qanunvericiliyə edilmiş mühüm dəyişikliklərin səmərəliliyi bütün bunların bariz nümunəsidir.

Mənfur erməni işğalına son qoyan Vətən müharibəsi xalqımızın haqq, ədalət uğrunda mübarizəsinin təcəssümü olaraq müstəqillik tariximizə qızıl hərflərlə yazılıb. Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı ədaləti bərpa etmək, öz hüququnu təmin etmək, dövlətini, dövlətçiliyini qorumaq uğrunda daim mübarizə aparıb. 2020-ci il sentyabrın 27-də xalqımızın mənfur düşmənin hərbi təxribatlarına cavab olaraq başladığı haqq savaşında olduğu kimi.

44 gün davam edən Vətən müharibəsində müzəffər Ali Baş Komandan dəmir iradəsi, yenilməz sərkərdəliyi və bənzərsiz diplomatik məharəti ilə bütün dünyaya göstərdi və sübut etdi ki, Azərbaycan haqlı tərəfdir və torpaqlarını işğaldan azad etməyə, zəfər çalmağa qadir, güclü ordusu var. Vətən müharibəsində tarixi qələbənin davamı olaraq 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar oldu. Prezidentin 2024-cü il 19 sentyabr tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi.

Təsadüfi deyil ki, Azərbaycan Ordusunun Vətən müharibəsində təkrarsız və çevik əməliyyatları dünya hərb tarixinə düşərək bu gün dərindən öyrənilir, tədqiq edilir. Xalqı zəfərə aparan ən vacib məqam isə, ilk növbədə, qətiyyətli liderin, orduya layiqli komandanlıq etməyi bacaran, səriştəli, dünya siyasətinə dərindən bələd olan, nəyi nə zaman, necə etmək olduğunu yaxşı bilən bir rəhbərin olmasıdır. Azərbaycan xalqı xoşbəxtdir ki, həyatını müasir müstəqil dövlətimizin hərtərəfli davamlı tərəqqisinə həsr edən, 30 illik erməni işğalına son qoyaraq əzəli torpaqlarımızı, o cümlədən Qarabağın tacı olan Şuşanı azad edərək parlaq Qələbə qazanan Müzəffər Ali Baş Komandanı var.




Dövlət müstəqilliyimiz yenidən bərpa olunduqdan sonra məhkəmə sisteminin inkişafına xüsusi diqqət və qayğı göstərilmişdir. Bu müddətdə qanunvericilik əsaslı surətdə yenilənmiş, məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı dövlətimizin başçısı tərəfindən fərman və sərəncamlar imzalanmış, dövlət proqramları qəbul edilərək icra olunmuşdur.

Ümummilli liderin layiqli davamçısı olaraq İlham Əliyevin prezidentliyi dövründə məhkəmə işçilərinin məsuliyyəti daha da artmış, bu quruma qayğı və diqqət yüksəlmişdir. Məhkəmə işçiləri öz fəaliyyətlərində dövlət başçısının qayğısını hiss edir. Belə ki, möhtərəm Prezident dəfələrlə məhkəmə işçilərinin maddi və sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncamlar imzalamışdır.

Məhkəməyə əlçatanlığın məhkəmə sisteminin quruluşundan, xüsusilə ixtisaslaşdırılmış və regional məhkəmələrin fəaliyyətindən çox dərəcədə asılı olduğu nəzərə alınaraq, məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzalanmış 19 yanvar 2006-cı il və 15 iyul 2010-cu il tarixli fərmanlarla bu sahədə institusional islahatlar davam etdirilmişdir. Belə ki, regionların sosial-iqtisadi inkişafı şəraitində ölkə başçısının tapşırıqlarına uyğun olaraq bölgələrdə yaşayan insanların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması məqsədilə 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, 3 yerli iqtisad məhkəməsi təşkil edilmişdir. 2010-cu ildə isə respublika üzrə vahid olan ağır cinayətlər məhkəməsinin əvəzində bölgələrdə yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı ümumilikdə 6 olmuş, hərbi məhkəmə sistemi təkmilləşdirilmişdir.

Eyni zamanda, məhkəmə-hüquq sistemimizin inkişafında ən mühüm hadisələrdən biri kimi ilk dəfə olaraq inzibati ədliyyə institutu təsbit edilərək, 2011-ci ildən ölkəmizin 7 bölgəsində dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayan yeni inzibati məhkəmələr fəaliyyətə başlamışdır. Hələ 21 oktyabr 2005-ci il tarixdə qəbul edilən “İnzibati icraat haqqında” Qanunun və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 2011-ci il 1 yanvar tarixindən etibarən eyni anda qüvvəyə minməsi ilə Azərbaycanda inzibati orqanların qərar və hərəkətlərinə (hərəkətsizliyinə) qarşı hüquqi müdafiənin yeni təkmil mexanizmlərinin tətbiqinə başlanılmışdır.

İslahatlar həyata keçirilərkən Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olması nəzərə alınaraq əhali üçün əlverişli şəraitin yaradılması məqsədilə orada da yeni məhkəmələr təsis olunmuş, Muxtar Respublikanın Ali Məhkəməsi tam apellyasiya instansiyası xarakteri almışdır.

Ölkə başçısının “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanı ölkəmizdə məhkəmə islahatlarının yeni mərhələsini təşkil etməklə, məhkəmə hakimiyyətinin daha da möhkəmləndirilməsini və məhkəmə sisteminin inkişafını şərtləndirmişdir. Belə ki, həmin fərmanda nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində digər mühüm tədbirlərlə yanaşı, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə ölkə Prezidentinin 2019-cu il 19 iyul tarixli sərəncamı ilə yeni regional kommersiya və inzibati məhkəmələr yaradılmışdır. Həmin məhkəmələr 2020-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır. Bir sözlə, məhkəmə sistemi islahatlar yolu ilə müasirləşir. Bütün bunlar isə müstəqillikdən güc alan dövlətçiliyin təzahürüdür.

“Konstitusiya və Suverenlik İli”ndə qalib xalqın nümayəndələri kimi böyük qürur hissi ilə məhkəmə işçiləri tarixi Zəfər günlərini bizlərə yaşatdığına görə Prezidentə və Ordumuza bir daha sonsuz minnətdarlıqlarını bildirirlər. Əminik ki, “Dəmir yumruq” xalqımızın firavan gələcəyi naminə bundan sonra da ölkəmizə yeni-yeni möhtəşəm qələbələr qazandıracaq.

***Tağı QƏNBƏROV,***
***Tərtər Hərbi Məhkəməsinin hakimi***

*Xuntaçıların məhkəməsi*

# Şəhərlərimizə raket atəşi əmrlərini Ermənistan hərbi rəhbərliyi vermişdi

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 13-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Sənədlərdən birində qeyd edilib ki, qondarma qurumun mövcud olduğu müddət ərzində mediada həftəlik “Qoyamart” (“yaşamaq uğrunda döyüş”) hərbi proqramı yayımlanıb. Həmin verilişlər izlənilərək təhlil edilib, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalının təşviq edilməsi və Azərbaycanın vaxtilə işğal altında olan ərazilərindəki Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığının yüksəldilməsi üzrə orada xidmət edən yüksəkrütbəli zabitlərin fəaliyyətinin qeydiyyatı aparılıb.

Belə zabitlərdən biri general-mayor ali hərbi rütbəli, hazırda təqsirləndirilən David Manukyandır. “Qoyamart” hərbi proqramının 2020-ci il mayın 16-da yayımlanmış buraxılışına əsasən, Azərbaycanın işğal altında olmuş ərazilərində təlimlərə rəhbərliyi silahlı birləşmənin komandanı general-leytenant Calal Arutyunyan və onun 1-ci müavini general-mayor David Manukyan ediblər.

Elan olunan sənədlərdən biri “Krunq” təşkilatının yaradılması və fəaliyyəti ilə bağlı olub.





Növbəti sənədlər Ermənistan Respublikası Müdafiə Nazirliyinin yaradılması, formalaşması barədə bir sıra məlumatlarla bağlı olub. Bildirilib ki, 1992-ci il yanvarın 28-də Ermənistan hökumətinin qərarı ilə Nazirlər Şurası yanında Əlahiddə Müdafiə Komitəsi ləğv olunub və onun bütün əmlakı yeni yaradılmış Müdafiə Nazirliyinin tərkibinə verilib. Müdafiə naziri vəzifəsinə Vazgen Sarkisyan təyin edilib.

Daha sonra Ermənistan silahlı qüvvələrinə məxsus bir sıra məxfi sənədlər elan olunub. Ermənistan silahlı qüvvələrinin müxtəlif strukturlarına, habelə qondarma qurumun “ordusu”na (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsinə - red.) Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində icra edilməsi məqsədilə müxtəlif hərbi tapşırıqlar verilib. Məsələn, Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi general-polkovnik Yuri Xaçaturovun 4 may 2016-cı il tarixli məxfi əmrindən - döyüş tapşırığından görünür ki, qondarma qurumun “ordusunun komandiri”nə döyüş düzülüşündə olan vasitələri maskalamaq tapşırılıb.

Məhkəmədə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant Movses Akopyanın və silahlı qüvvələrin Baş Qərargahının Kəşfiyyat idarəsinin rəisi, polkovnik V.Sarqsyanın 24 dekabr 2016-cı il tarixli birgə məxfi əmri - döyüş tapşırığı da açıqlanıb və sənədin fotosu nümayiş etdirilib.

2017-ci il yanvarın 10-14-də 24-cü Xüsusi Təyinatlı Əlahiddə Radiotexniki Alayının işçi qrupunun İrəvan-Xankəndi-Ağdərə-Suqovuşan-Xankəndi-İrəvan marşrutu üzrə səfərinin təşkil edilməsi, həmin əmrin icrasına nəzarət isə Ermənistan Respublikası silahlı qüvvələrinin Baş Qərargahının Kəşfiyyat idarəsinin rəisinə tapşırılıb.

Məhkəmədə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant A.Davtyanın 24 sentyabr 2019-cu il tarixli məxfi əmri ilə qondarma qurumun “ordusu”nun “müdafiə rayonları”na 26 komplekt 82 millimetrlik BM-37 minaatanlarının verilməsi tapşırılıb.



Qondarma qurumun “ordusu” “komandanın 1-ci müavini - qərargah rəisi” general-mayor Kamo Vardanyanın “Düşmənin yaşayış məntəqələrinin atəşlə məhv edilməsi barədə” 25 sentyabr 2020-ci il tarixli məxfi əmri də açıqlanıb. Əmrdən görünür ki, Xankəndi şəhərində birləşmə və hərbi hissə komandirlərinə 2020-ci il sentyabrın 28-dək qeyd olunan əmrə əlavə edilmiş yaşayış məntəqələrini atəş hədəfinə almaq tapşırılıb. Əmrə əlavə edilmiş atəş məhvetmə hədəfinə alınmış yaşayış məntəqələrinin siyahısına Azərbaycanın Mingəçevir və Naftalan şəhərləri, Tərtər, Yevlax, Beyləqan, Ağcabədi və digər rayonları, habelə bir sıra qəsəbələri, kəndləri daxildir.

Elan olunan sənədlərə əsasən, Vətən müharibəsinə qədər Azərbaycanın işğal altında olmayan, mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilməsinə dair direktiv, həmin yaşayış məntəqələrinin dəqiq koordinatları, hansı növ raketlərdən istifadə edilməsi təqdim olunub.

Bildirilib ki, həmin sənəddə hədəf kimi göstərilən koordinatlar Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən yoxlanılıb və həmin koordinatların Azərbaycan Respublikasının yaşayış məntəqələrinə uyğun gəldiyi öz təsdiqini tapıb.

Məhkəmə prosesi oktyabrın 16-da davam etdiriləcək.

***XQ***

# “İslam bankçılığı pəncərələri” ölkəmizə nələr vəd edir?



(əvvəli 1-ci səhifədə)

“Əsas təkliflərdən biri İslam maliyyə əməliyyatlarının əlavə dəyər vergisindən azad edilməsidir. Yeni normativ-hüquqi baza təsdiqləndikdən sonra ənənəvi banklar İslam bankçılığı xidmətlərini belə adlandırılan “İslam pəncərələri” vasitəsilə təklif edə biləcəklər. İlkin məqsəd bazarı şəriət normalarına uyğun məhsullarla tanış etmək və onların geniş tətbiqi üçün əsas yaratmaqdır. Mərkəzi Bank tətbiq prosesinə nəzarət edəcək və zərurət yarandıqda məhsul çeşidinin genişləndirilməsindən əvvəl tənzimləmələri dəqiqləşdirəcək”, – deyə məlumatda qeyd olunur.

Qurum analitiklərinin fikrincə, “İslam pəncərələri”nin tətbiqi Azərbaycan banklarına bazarın az əhatə olunan seqmentinə çıxış imkanı verəcək, sukuk (İslam istiqrazları) buraxılışı üçün normativ baza yaradılması isə onlara İslam maliyyə institutlarından vəsait cəlb etməyə, likvidliyi gücləndirməyə və onun idarə olunması üçün alətlər əldə etməyə şərait yaradacaq. Bundan əlavə, şəriət prinsiplərinə uyğun məhsulların təklifi banklar üçün yeni gəlir mənbələri formalaşdıracaq.

Azərbaycanda tamamilə İslam prinsipləri ilə fəaliyyət göstərən bank və ya “İslam pəncərəsi”nin mövcud olmadığına toxunan analitiklər onu da bildiriblər ki, hazırda ölkə əhalisinin 97 faizi (10,4 milyon nəfər) İslam dininə etiqad edir və bu, potensial tələbin yüksək olduğunu göstərir. Onların fikrincə, uyğun tənzimləmə mexanizminin olmaması isə bu sektorun inkişafını tarixi olaraq ləngidib. Bununla belə, yüksək tələbat fonunda əməliyyat və normativ çətinliklər yeni alətlərin tətbiqini müəyyən qədər səngidə bilər.

Qeyd edək ki, İslam bankçılığı son illərdə dünya maliyyə sektorunda geniş yayılmış bir sahə kimi diqqət çəkir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda İslam bankçılığı sektorunun illik inkişaf tempi, təxminən, 15-20 faiz təşkil edir ki, bu da onu ən sürətlə inkişaf edən bankçılıq növlərindən birinə çevirir. İslam bankçılığı faizsiz bankçılıq prinsiplərinə əsaslanır və şəriət qanunlarına uyğun olaraq maliyyə əməliyyatları həyata keçirir. Bu növ bankçılığın ən önəmli xüsusiyyəti faizin qadağan olunmasıdır. İslam hüququna görə faiz qazanmaq haramdır, buna görə də bu banklar kredit və əmanət əməliyyatlarında faiz yığmırlar və ya vermirlər. Bunun əvəzinə, İslam bankları risk və gəliri müştəri ilə birlikdə paylaşaraq ədalətli maliyyə münasibətləri qururlar. Bu yanaşma, maliyyə sektorunda riskin paylaşılması və şəffaflığın təmin olunması baxımından yeni bir model təqdim edir.

Son illərdə Azərbaycanın maliyyə sektorunda müşahidə olunan yeni trendlər arasında İslam bankçılığına marağın artması diqqət çəkir. Faizsiz və ədalətli maliyyə prinsiplərinə əsaslanan, dünyada sürətlə yayılan bu sistem ölkəmizdə hələ tam formalaşmasa da, İslam bankçılığı gələcək üçün böyük perspektivlər vəd edir. 2024-cü ilin məlumatlarına əsasən, ölkədə İslam bankçılığı üzrə ixtisaslaşmış banklar yoxdur.

Lakin faizsiz və şəriətə uyğun maliyyə məhsulları təqdim edən müəyyən sayda mikromaliyyə təşkilatı və banklar fəaliyyət göstərir. Ümumilikdə, ölkəmizdə mövcud olan 70-dən çox bankın cüzi hissəsi faizsiz məhsullar təqdim etməyə cəhd göstərir. Məsələn, bəzi banklar “mürabaha” (öncədən müəyyən edilmiş qiymətə məhsul satışı), “mudaraba” (gəlir paylaşımı) və “icarə” (kirayə) kimi İslam bankçılığı prinsiplərinə uyğun maliyyə xidmətləri təklif edir.

Ötən ilin statistik məlumatlarına görə, Azərbaycanda İslam bankçılığı məhsullarından istifadə edən fiziki və hüquqi şəxslərin sayı 15 mindən çox olub. Sahibkarların 20 faizi bizneslərini maliyyələşdirmək üçün faizsiz kreditlərə üstünlük verir. Daha bir maraqlı fakt ondan ibarətdir ki, 2019-cu ildən 2023-cü ilə qədər ölkəmizdə İslam bankçılığına uyğun investisiyaların həcmi 25 milyon dollardan 50 milyon dollara çatıb. Bu da 5 il ərzində 2 dəfədən çox artım deməkdir.

Yeri gəlmişkən, Azərbaycanda İslam bankçılığının gələcəyi ilə bağlı nikbin fikirdədirlər. Onlar hesab edirlər ki, ölkəmizdə bu növ bankçılıq yaxın illərdə həm biznes, həm də cəmiyyət üçün vacib maliyyə platformasına çevriləcək.

### *Ekspert rəyi*



**Ruslan ATAKİŞİYEV,**
**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisad üzrə fəlsəfə doktoru**

2024-cü il yanvarın 26-da Azərbaycan Mərkəzi Bankı tərəfindən maliyyə-bazar sektorunun inkişafına dair Dövlət Proqramı qəbul edilib. Həmin proqrama əsasən 2024–2026-cı illər ərzində ölkəmizdə İslam bankçılığının, o cümlədən İslam qiymətli kağızlarının (suquqların) inkişafı ilə bağlı tədbirlərin həyata keçiriləcəyi nəzərdə tutulur.

2025-ci ilin əvvəllərindən etibarən Mərkəzi Bank tərəfindən bu istiqamətdə mühüm işlər görülür. İlin sonuna kimi həyata keçiriləcək əsas işlərdən biri isə İslam bankçılığına dair qanunvericiliyin hazırlanması və yenidən işlənməsi, digəri isə suquqlarla bağlı qanunvericilik bazasının formalaşdırılmasıdır. Suquqlarla bağlı əsas addımlardan biri ondan ibarətdir ki, Mərkəzi Bankın İslam İnkişaf Bankı Qrupuna müraciəti nəticəsində həmin qurum tərəfindən qrant ayrılıb. Bu qrant çərçivəsində qanunvericilikdə aparılacaq düzəlişlərlə bağlı istiqamətverici işlər həyata keçirilir.

Bundan əlavə, 2024-cü il yanvarın 31-də Mərkəzi Bankın İdarə Heyətinin təsdiqi ilə xüsusi tənzimləmə rejimi – “sandbox” mexanizmi yaradılıb. Həmin sandbox çərçivəsində artıq bir sıra banklar tərəfindən İslam bankçılığı pəncərələrinin (şöbələrinin) açılması ilə bağlı layihələr təqdim edilib.

Eyni zamanda, İslam İnkişaf Bankı Qrupuna daxil olan Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası və İslam Ticarət və Maliyyə Korporasiyası tərəfindən bir sıra banklara özəl sektorun biznes fəaliyyətlərinin maliyyələşdirilməsi üçün orta hesabla 15–20 milyon ABŞ dolları həcmində vəsaitlər ayrılıb. Bu vəsaitlərdən artıq bir sıra yerli sahibkarlıq subyektləri dövriyyə vəsaitlərinin və əsas vəsaitlərin alınmasında fəal şəkildə yararlanır.

Gələcəyə baxdıqda isə, Azərbaycanda İslam bankçılığının inkişafı istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Yaxın perspektivdə suquq bazarının formalaşdırılması ilə yanaşı, İslam sığortası (təkafül) bazarının inkişafı da nəzərdə tutulur.

Qlobal müstəvidə isə qeyd edək ki, hazırda dünyanın 135-dən çox ölkəsində İslam maliyyə sistemi tətbiq olunur. Dünyada İslam maliyyə aktivlərinin həcmi, təxminən, 4,5 trilyon ABŞ dolları səviyyəsindədir. 2024-cü ilin məlumatına əsasən, dünyada 566 İslam bankı və 256 “İslam bankçılığı pəncərəsi” fəaliyyət göstərir.

# “Şəfəq” GES günəşə doğru boy atır

## *Ərazidə arxeoloji qat aşkar edilib*

**Azərbaycanın işğaldan azad edilmiş Cəbrayıl rayonunun ərazisində icra olunan “Şəfəq” Günəş Elektrik Stansiyası (GES) layihəsi çərçivəsində tikinti işləri qrafikə uyğun davam etdirilir. Bu barədə layihənin investorları olan BP, SOCAR-Green və Azərbaycan Biznesinin İnkişafı Fondunun birgə məlumatında bildirilib.**

Qeyd olunub ki, 2025-ci ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra layihə üzrə 2 əsas müqavilə imzalanıb. Dəyəri, təxminən, 117 milyon ABŞ dollar təşkil edən mühəndislik, təchizat və tikinti müqaviləsi “Intec” və “Complant” şirkətlərinə verilib. Müqavilə mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk 2 il ərzində istismar və texniki xidmət işlərini əhatə edir. Artıq layihə sahəsində hazırlıq işləri tamamlanıb. Hazırda tikinti prosesi torpaq işləri və daxili yolların çəkilməsi ilə davam edir.

Modul təchizatı müqaviləsinin dəyəri isə 29 milyon dollardır. Günəş panellərinin təchizatını nəzərdə tutan bu müqavilə “Trina Solar AG” şirkətinə verilib. Müqavilə çərçivəsində işlər artıq başlayıb və ilk panellər 2025-ci ilin avqust ayında uğurla əraziyə çatdırılıb. “Shafag (Jabrayil) Solar Limited” (SJSL) şirkətinin direktoru Kolin Allan SOCAR-Green və Azərbaycan Biznesinin İnkişafı Fondu ilə birlikdə və digər çoxsaylı maraqlı tərəflərlə əməkdaşlıqda həyata keçirilən “Şəfəq” günəş layihəsinin uğurla irəliləməkdən məmnunluğunu bildirib.

Torpaq işləri zamanı layihə ərazisinin şimal hissəsində bir tarixi arxeoloji abidənin aşkarlandığını bildirən şirkət direktorunun sözlərinə görə, hasarlanmamış açıq yaşayış məskəni olan bu tapıntının Tunc və Erkən Dəmir dövrlərinə aid olduğu ehtimal olunur. O deyib: “Arxeoloji sahədə dəyirman daşlarının fraqmentləri, gil saxsı qırıqları (küplər, qablar, bişirmə qazanları) və çay daşlarından düzülmüş tikinti strukturları kimi səth materialları aşkarlanıb. Bu tapıntıların tarixi dəyərini və əhəmiyyətini qiymətləndirmək məqsədilə Azərbaycan Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssisləri ilə sıx işləyirik”.

Layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Bu işlərin yerinə yetirilməsində yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət veriləcək. Tikintinin pik dövründə layihə üzrə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

Xatırladaq ki, 2025-ci ilin iyun ayında təsdiqlənmiş 200 milyon ABŞ dolları dəyərində olan “Şəfəq” layihəsi çərçivəsində Cəbrayıl rayonunda yeni 240 meqavat AC gücündə günəş elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Layihə Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə “virtual enerji ötürmə mexanizmi” adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı “AzərEnerji” ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kilovoltluq elektrik yarımstansiyası inşa ediləcək.



Mövcud proqnozlara və planlara əsasən, “Şəfəq” və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradacaq. Hazırda isə terminal öz enerji ehtiyacını qarşılamaq üçün 7 qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

SJSL şirkətindəki iştirak payları isə belədir: BP 50,01 faiz, SOCAR-Green (bütövlükdə SOCAR-a məxsus törəmə şirkəti) 39,99 faiz və Azərbaycan Biznesinin İnkişafı Fondu 10 faiz. Bütövlükdə isə, “Şəfəq” layihəsi BP şirkətinə məxsus olan Lightsource-BP tərəfindən həyata keçirilir.

# Azərbaycanda ilk 90 tonluq sahil kranı



**Ölkəmizdə ilk dəfə olaraq STS sahil kranının istehsalına başlanılıb. Zirə limanında quraşdırılacaq maksimum yükqaldırma qabiliyyəti 90 ton olan bu nəhəng kran müasir yükaşırma infrastrukturunun inkişafında mühüm addımdır. Bu layihə həm əməliyyatlarının səmərəliliyini artırmaq, həm də təhlükəsizliyi ən yüksək səviyyədə təmin etmək üçün nəzərdə tutulub.**

Bu münasibətlə keçirilən açılış mərasimində STS kranının ərsəyə gəlməsində rolu olan şəxslər, deputatlar və ictimaiyyət nümayənləri iştirak ediblər. Çıxış edənlər bildiriblər ki, Zira limanında inşa olunmuş bu kran Xəzər regionunda logistikanın inkişafına yeni nəfəs verəcək və Azərbaycanın adını dünya sənaye xəritəsində daha da yüksəldəcək. Qeyd olunub ki, işləmə müddəti 15 dəqiqə olan STS kranı mövcud kranlardan 4 dəfə daha sürətlidir. Ən önəmlisi isə budur ki, bu qurğu tamamilə Azərbaycanda istehsal olunub.

Xatırladaq ki, Zirə dəniz limanında quraşdırılmış STS kranı tamamilə yerli mühəndislər tərəfindən tamamilə beynəlxalq standartlara uyğun şəkildə layihələndirilib. Yalnız avtomatlaşdırma sisteminin məhsulları Fransanın dünyaca məşhur “Şinayder” elektrik şirkətindən alınaraq ölkəmizə gətirilib. Bu da onu göstərir ki, ölkəmizdə yüksək texnologiyalara əsaslanan sənaye məhsullarının istehsalı mümkündür. Eyni zamanda, beynəlxalq tərəfdaşlarla əməkdaşlıqda açıq və çevik yanaşma mövcuddur.

Dəniz daşımalarında mühüm rol oynayan Zirə limanının logistika və nəqliyyat infrastrukturu da çox güclüdür. Həmçinin, burada çəkilmiş özəl dəmir yol xətti limana inteqrasiya olunub.

# “Bakı KOB evi”ndə təhlükəsizlik təlimi



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə “Bakı KOB evi”ndə “Maşın və avadanlıqların təhlükəsizliyi haqqında”, “Sürtkü materiallarına, yağlara və xüsusi mayelərə dair tələblər haqqında”, “Yüngül sənaye məhsullarının təhlükəsizliyi haqqında” və “Mebel məhsullarının təhlükəsizliyi haqqında” texniki reqlament layihələrinin ictimai dinləmə və müzakirəsi keçirilib.**

Təlim xarakterli müzakiələrdə yeni texniki reqlamentlərin mahiyyəti, onların istehlakçı təhlükəsizliyinin təmin olunmasında rolu və tətbiqinin bazar iştirakçıları üçün yaradacağı üstünlüklər barədə ətraflı məlumat verilib, iştirakçıların rəy və təklifləri dinlənilib.

KOBİA-nın KOB dostu departamentinin müdir müavini Rauf Tağıyev və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin standartlaşdırma, texniki tənzimləmə və sertifikatlaşdırma şöbəsinin müdiri Elməddin Quluyev çıxışlarında yeni texniki reqlament layihələrinin daxili bazarda təhlükəsiz və keyfiyyətli məhsulların dövriyyəsinin təmin edilməsi, istehlakçı maraqlarının qorunması, eləcə də biznes subyektləri üçün rəqabətədavamlı mühitin gücləndirilməsi baxımından üstünlüklərindən bəhs ediblər. Bununla yanaşı, sahibkarların ictimai dinləmə və müzakirələrdə fəal iştirakı və öz təkliflərini təqdim etmələri üçün çağırış edilib.

Tədbir çərçivəsində texniki reqlament layihələrinin əhatə etdiyi sahələr, əsas təhlükəsizlik tələbləri, onların uyğunluğun qiymətləndirməsi prosesində tətbiqi və keyfiyyət standartlarının artırılmasında roluna dair təqdimat nümayiş olunub. Görüşün sonunda keçirilən sual-cavab sessiyası fəal müzakirələrlə davam etdirilib, iştirakçıların rəy və təklifləri dinlənilib.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi maraqlı tərəflərin texniki reqlamentlərin hazırlanmasında fəal iştirakı, o cümlədən digər yeni milli texniki reqlament layihələrinin ictimai dinləmə və müzakirəsinin təşkili istiqamətində silsilə tədbirlərini davam etdirəcək.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində aidiyyəti dövlət orqanları tərəfindən 43 ədəd milli texniki reqlament layihəsi hazırlanıb, 33 texniki reqlament layihəsi maraqlı tərəflərin rəy və təkliflərinin alınması məqsədilə agentliyin rəsmi internet səhifəsində ictimai dinləmə və müzakirəyə çıxarılıb.

*Səhifəni hazırladı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Günün sualı*

# Qəfil ölümlərə necə sipər çəkək?

**Hər dəfə qəfil ölüm səbəbindən həyatını dəyişən olanda ürəyimizlə bağlı problemə, hətta onun hər vurğusunun yerdəyişməsinə belə diqqət etməli olduğumuz yadımıza düşür. Amma nədənsə vaxt azlığını, məişət qayğıları və iş-gücdən macal olmadığını bəhanə edib həkimə getməyi, müayinə olunmağı və dərdimizə çarə etməyi arxa plana atırıq. Onda ayılırıq ki, artıq gecdir, qarşıda iki yol var: ya əməliyyat, ya da həyata vida!**

Bu yaxınlarda hamıya gülüş bəxş edən, ölümü ilə "gülüş ömrü uzadır" fikrini alt-üst edən əməkdar artist Cabir İmanovun həyatla vidalaşması bir daha qəfil ölümlərin səbəbləri ilə bağlı mütəxəssis fikrini öyrənməyə ehtiyac yaratdı. Sorğumuza Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Musa Qəniyevdən və Elmi-Tədqiqat Kardiologiya İnstitutunun şöbə müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimovadan cavablar aldıq.

**Öncə professor Musa Qəniyevdən soruşduq:**



**– Doktor, idman, fiziki hərəkət və qəfil ölüm – bunların arasında hansı bağlılıq var?**

– Əvvəlcə onu deyək ki, ani ölümlərin, xüsusilə 40–50 yaş arası, idman zallarında böyük güc tələb edən intensiv idman hərəkətləri zamanı baş verməsinin yeganə səbəbi, fiziki gərginliyin təhrik etdiyi məlum və ya gizlin ürək-damar sistemi xəstəliklərinin kəskinləşərək, kompensator mexanizmlərə tabe olmayan sonluğudur. Bu halda ölüm, əsasən, fiziki gərginliyin pik həddində baş verir.

**– Son hadisə bu fikrin doğru olmadığını göstərdi.**

– Doğrudur, diqqətçəkən və müəyyən qədər qaranlıq məqam odur ki, bəzən qəfləti ölüm fiziki gərginliyin yuxarı həddində deyil, bu hərəkətlərdən sonra, insan istirahət etmək üçün oturduqda və ya uzandıqda, yəni orqanizmin bərpaolunma fazasında baş verir. Bu halın incələnməsinin günümüzdə əhəmiyyətini nəzərə alaraq, bəzi məqamları sizinlə bölüşməyi lazım bilirəm.

İntensiv məşqlər zamanı ürək fəaliyyəti yüksək həddə olur. Məşqin sonu – istirahətin ilkin mərhələsində, periferik damar müqaviməti tam bərpa olunmadığından, arterial qan axını hələ də skelet əzələlərinə istiqamətlənir. Bu səbəbdən, ürək yığılmaları zəifləməyə başladıqda, miokardın oksigenə olan tələbat və təminatı arasında disbalans yaranır. Paradoksal olsa da, ürəkdə gizli problemlər varsa (məsələn, koronar arteriyanın anomaliyası), bu hal, kəskin oksigen aclığına və bunun nəticəsi kimi ölümlə nəticələnən miokard infarktına səbəb ola bilir. Eləcə də istirahət zamanı ürəyə qanın venoz dönüşünün kəskin azalması, ürəyin yüklənməs onu daşıyıcı sisteminin, xüsusən magistral damarlarında, periferik damar müqavimətinin bərpa mexanizmlərinin ləngiməsi səbəbindən, arterial təzyiqin kritik minimum həddini keçməsi də ani ölümün baş verməsi səbəblərindən biridir. Digər tərəfdən, baş verən ani ölüm, yüksək faiz nisbətində, ürəkdə elektrik sabitliyinin kritik səviyyədə pozulması ilə əlaqədardır. Çünki ürəyin sinir tənzimi nisbətində ani olaraq kəskin disbalans yaranır.

Simpatik sistemin dominant rolu, parasimpatik sistemin aktivləşməsilə əvəzlənir. Bu kəskin dönüş (ürəyin reperfuziyası), məlum patologiyası olan ürəkdə, əksər hallarda mədəciklərin səyriməsi kimi fetal aritmiyanın meydana çıxması və ani ölümün baş verməsinə səbəb olur.

Ağır və intensiv məşqlərdən sonra baş verən qətil ölümlərdə, əsas risk faktorunun sonuncu mexanizm oynadığı iddia olunur.

Şübhəsiz ki, səbəbindən asılı olmayaraq, xüsusən gənc yaşlarda baş verən qəfləti, ani ölümlərin hamısı faciədir. Bu hal tək bir ailənin deyil, həmin insanı tanıyan, sevən, o cümlədən insanlığı sevən hər kəs üçün faciədir.

Mətləbdən uzaq olsa da, xususən yaşı 25-ə qədər olan müasir gənclik bilməli və dərk etməlidir ki, bütün idman növləri, yalnız bir məqsədə, sağlamlığa xidmət etməlidir. Neyro-humoral sistemin xüsusi fəallığı ilə seçilən bu yaş dövründə gənclər sağlamlıq xatirinə deyil, əksərən özlərinə kumir saydığı idmançılara oxşamaq, nəyə və kiməsə xatir, "bədən yığmaq və ya formada olmaq üçün" idman zallarına üz tuturlar.

**– Gənclər idman zallarına getməsinlər?**

– Getməsinlər demirəm. Amma hazırda əksər idman zallarında anabolik steroid, protein və sair kimi ölüm gətirən vasitələrə çıxış, möhtəkirlərin gəlir yeri olduğundan, demək olar ki, azaddır. Gənclərimiz bilməlidir ki, sağlamlıqları naminə belə maddələrdən mütləq şəkildə uzaq durmalıdırlar. Unutmaq olmaz ki, gənclərin bədən formasına pərəstiş etdiyi və oxşamağa çalışdıqları xarici idmançılar peşəkarlardır. Onları sağlamlıq yox, həyatları bahasına olsa belə, yaşamaq naminə, yalnız maddiyyat düşündürür. Bunun yeganə yolunu isə yalnız əzələli bədənlərinin nümayişində görürlər. Bu cür "məşhur"ların nə qədər yaşadığını isə, sadəcə olaraq, internet mənbələrində axtarış etməklə bilmək olar.

**Ürəyin işemik xəstəliklərinin müalicəsi ilə məşğul olan kardioloq Mədinə**



**Əzimovadan soruşduq:**

**– Hər ürək dayanması mütləq ölümlə nəticələnirmi? Buna nələr səbəb olur?**

– Statistikaya görə, ölümlə nəticələnən xəstəliklər içərisində ürək və qan-damar xəstəlikləri üstünlük təşkil edir. Ürəyin dayanması o deməkdir ki, onun fəaliyyəti qəfil durur və klinik ölüm baş verir. Bu zaman xəstənin huşu itir, iri arteriyalarda nəbz vurmur, küylü nadir tənəffüs, dərinin göyərməsi, bəbəklərin genişlənməsi baş verir. Belə hal irsən kardioloji patologiyaları, ürək-damar problemi olan insanlarda hər an baş verə bilər. Diabet, təzyiq, böyrək çatışmazlığı olan xəstələr risk qrupuna aiddir. Qəfil ürək dayanması infarkt deyil. Ürəyi zəif insan qəfildən çox fiziki yüklənəndə, intensiv idmanla məşğul olan zaman ürəyi dayana bilər. Ürək ölümü dərman, spirtli içki, psixotrop maddə qəbulundan sonra da baş verə bilir.

**– Statistika göstərir ki, ürək xəstəlikləri 20–30 il əvvələ nisbətən cavanlaşıb...**

– Hazırda elm və texnikanın inkişafı ilə paralel ürək xəstəlikləri də artıb və gəncləşib. Bu xəstəlikdə ən önəmli risk amili yaşdır. Yaş artdıqca, ürək-damar xəstəliklərinə məruz qalma riski də çoxalır. Müasir dövrdə iş şəraiti, oturaq həyat tərzinə meyillilik, normadan çox qida qəbulu, piylənmə, stres, siqaret çəkmək, havanın çirklənməsi xəstəliklərin yaranma riskini artırır. Deyə bilərəm ki, yalnız Azərbaycanda yox, dünyada ürək xəstəlikləri cavanlaşıb.

Ürəyin işemik xəstəliyi olan insanlar 80 faiz hallarda ürək dayanmasından ölür. İşemik xəstəliyin nə vaxt başlayacağı isə yaşa baxmır. Bu, 30 yaşdan sonra da ola bilər, 40 yaş ötəndən sonra da. Ona görə də hər kəsin ildə 2 dəfə ürək–damar sistemi yoxlanmalıdır.

Qəfil ürək ölümü problemi həm tibbi-sosial əhəmiyyətinə, həm də dramatik xarakterinə görə, uzun illərdir ki, səhiyyənin aktual problemlərindən biri olaraq qalır. Belə ölüm kliniki simptomlar başlayandan bir saat ərzində, qan dövranının dayanmasının qəfil inkişaf etməsi başa düşülür. Bu nəticə həkimlər üçün də gözlənilməz olur. Çünki hücum ərəfəsində xəstənin vəziyyəti stabil olur. Bəzi insanlarda ani ürək ölümü, çox vaxt xəstəliyin ilk və son təzahürü olur. Səbəb odur ki, qəfil ölüm əksər hallarda aritmik ölümdür. Bu zaman ilk 5–6 dəqiqədə tibbi yardım göstərilməlidir. Təəssüf ki, çox vaxt belə ölüm tibb müəssisəsindən kənarda baş verir.

**– Qəfil ölümlərin qarşısının alınması üçün nə lazımdır?**

– Avropa Kardiologiya Cəmiyyətinin mədəcik aritmiyası olan xəstələrin idarə edilməsi və qəfil ürək ölümünün qarşısının alınması üçün təşkil etdiyi təlimlər yenilənib. Ürək dayanması olan xəstələrin sağ qalmalarına yardım məqsədilə məktəblərdə və əhali arasında ilk tibbi yardım və reanimasiya bacarıqlarının öyrədilməsi tövsiyə olunur.

Dünyada hər il 6 milyon insanda qəfil ürək dayanması baş verir. Bunlardan 10 faizdən az adam sağ qalır. Sənəddə vurğulanır ki, hər kəs, o cümlədən məktəblilər ürək–ağciyər reanimasiyası həyata keçirə bilməli və avtomatik xarici deflibrilatordan istifadə etməyi öyrənməlidir. Bu hərəkətlər ekspertlərin fikrincə, sağ qalmağa kömək edə bilər. Qəfil ürək ölümlərinin 75–80 faizinin səbəbi koronar ürək xəstəliyidir.

**– Həkim tövsiyəsi qəfil ölümlərə sipər ola bilərmi?**

– Qəfil ürək ölümü riskini azaltmaq üçün sağlam həyat tərzi keçirməyi, pəhriz saxlamağı, siqaretdən imtina, çəkiyə nəzarət və aktiv həyat tərzinə riayət etməyi, həmçinin stres səviyyəsini azaltmağı tövsiyə edirəm. Onu da qeyd edim ki, kəskin koronar sindromu olan xəstələrdə revaskulyarizasiya (şuntlama) ilə mədəcik aritmiyasının və ani ürək ölümü ehtimalı azaldıla bilər. Bu, miokardın qan tədarükünü normallaşdıraraq, ürək fəaliyyətini saxlamağa imkan verir.

Kişilər qadınlara nisbətən daha çox ürək dayanması riski daşıyır. Həyati risklərdən qorunmaq üçün vətəndaşları ilkin səhiyyə xidmətlərindən vaxtında yararlanmağa, tibbi müayinələrdən keçməyə çağırıram.

***Sorğunu apardı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Türk dünyasının üz-çənə cərrahları Bakıda

**Bakıda Türk Dövlətlərinin Üz-Çənə Cərrahları üzrə I Konqresi keçirilib. Məclis Beynəlxalq Üz-Çənə Cərrahları Kollecinin 33-cü Dünya Konqresi (ICMFS) və Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin III Beynəlxalq Konqresi ilə paralel təşkil olunub.**



Konqres Türk dünyasının ən nüfuzlu mütəxəssislərini bir araya gətirərək bilik mübadiləsinə, innovasiyalara və gələcək əməkdaşlıqlara zəmin yaradıb.

Müxtəlif ölkələrdən yüzlərlə mütəxəssisin iştirak etdiyi toplantı Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və TƏBİB-in birgə dəstəyi ilə keçirilib.

Açılış mərasimində çıxış edən Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin sədri, professor Çingiz Rəhimov bildirib ki, tədbir tibb elminin inkişafı, müasir müalicə üsullarının paylaşılması və beynəlxalq əməkdaşlıq üçün mühüm platformadır. Qeyd olunub ki, Amerika, İtaliya, Almaniya, Türkiyə, İsrail, Braziliya, Belçika və digər ölkələrdən tanınmış məruzəçilərin qatıldığı elmi-tibbi məclisin proqramı ağız və üz-çənə cərrahiyyəsi ixtisası ilə yanaşı, qonşu peşə sahələrini də əhatə edir. Bunlara stomatologiya, üzün estetik və rekonstruktiv cərrahiyyəsi, baş-boyun onkologiyası, otorinolarinqologiya, dermatologiya və kosmetologiyaya aiddir.

Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini, professor Əziz Əliyev və digərləri çıxış edərək tədbirin elmi əhəmiyyətini vurğulayıb, konqresin işinə uğurlar arzulayıblar.

Üçgünlük müzakirədə baş və boyun cərrahiyyəsində dünya miqyasında tanınmış mütəxəssis, professor Jatin Şah (ABŞ), üz transplantasiyası üzrə 7 əməliyyat təcrübəsinə malik, dünyaşöhrətli üz-çənə cərrahı, professor Jan-Pol Meningaud (Fransa), Hayfa Universitetinin Ağız və Üz-Çənə Cərrahiyyəsi Şöbəsinin müdiri, professor Adi Rachmiel (İsrail), Lokman Hekim Universitetinin Ağız və Üz-Çənə Cərrahiyyəsi Şöbəsinin müdiri, Çənə-Dodaq Yarığı və Əlaqəli Anomaliyalar Mərkəzinin direktoru, professor Reha Kisnisci (Türkiyə) və digərləri maraqlı məruzələrlə çıxış ediblər.

Beynəlxalq mütəxəssislər təcrübə mübadiləsinin üz-çənə cərrahiyyəsinin bütün istiqamətlərinin inkişafına töhfə verəcəyini söyləyib, yüksək səviyyədə təşkilatçılığa görə minnətdarlıqlarını bildiriblər.

Tədbir çərçivəsində plenar iclaslar, simpoziumlar, təqdimatlar və ixtisaslaşmış sərgilərlə zəngin proqram təqdim olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Epidemioloji durum*

# Payız gəldi, virus gətirdi...

*Mövsümidir, yoxsa?..*



**Son günlər ölkəmizdə infeksion xəstəliklərin artması müşahidə olunur. Yaşından asılı olmayaraq bir çox insan müxtəlif viruslarla mübarizə aparır. Virusa yoluxanlar əsasən, yüksək hərarət, davamlı öskürək, boğaz ağrısı kimi əlamətlərdən şikayətlənirlər. Eyni zamanda, cəmiyyətdə COVID-19-un yenidən yayılması ilə bağlı narahatlıqlar və müzakirələr də gündəmdədir. Bəs əslində, nə baş verir? Hazırda yayılan virus nə dərəcədə təhlükəlidir və proses nəzarət altındadırmı?**

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov bildirdi ki, hazırda ölkədə epidemioloji durum sabitdir:**



– Havaların soyuması və payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il qrip və digər kəskin respirator virus infeksiyalarına yoluxma hallarında artımlar müşahidə olunur. Hazırda ölkədə epidemioloji durum sabitdir, keçən ilin müvafiq dövrü ilə müqayisədə yoluxma hallarının sayında əhəmiyyətli fərqlər yoxdur, epidemioloji durum fəslə uyğun qənaətbəxş hesab olunur.

Cəmiyyətdə COVID-19-la bağlı narahatlıqlara gəldikdə isə, klinik müşahidəyə görə KRVİ və COVID-19 çox oxşar olduğu üçün bunları biri-birindən ayırmaq mümkün deyil. COVID-19 xəstəliyinin təsdiqlənməsi üçün şəxsin müayinədən keçməsi tələb edilir. Hazırda yeni koronavirus infeksiyasına yoluxma sayında artımlar qeyd olunmur.

Əhali arasında ümumi və respirator əlamətlərlə müşahidə edilən xəstəlik kəskin respirator virus infeksiyalarıdır (KRVİ). Hava-damcı üsulu ilə yayılan bütün KRVİ-dan qorunma üsulu universaldır. Bundan başqa, xəstələnmiş insanların aşkarlanması və kollektivdən müvəqqəti kənarlaşdırılması, otaqların tez-tez havalandırılması, qapalı məkanlarda toplanmış şəxslər arasında xəstələnmə hallarında maskadan istifadə, əl gigiyenasına riayət olunması mütləqdir.

Eyni zamanda, sağlam həyat tərzi, düzgün qidalanma və açıq havada fiziki aktivliyi gözləməklə immuniteti yüksək səviyyədə saxlamaq, habelə dəyişkən havalarda düzgün geyim seçimi etmək yoluxma hallarının azalmasında önəm daşıyır. Risk qruplarında olan insanların birinci növbədə qripə qarşı vaksinasiyası ciddi tövsiyə edilir.

**ATU-nun Tədris Terapevtik Klinikasının uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin rəhbəri, II uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr Qoşqar İsmayılov söylədi ki, mövsümlə yanaşı, məktəblərin açılması səbəbindən uşaqların qapalı məkanlarda daha çox vaxt keçirmələri də respirator virusların yayılmasına şərait yaradır. Onun sözlərinə görə bu, COVID-19 da ola bilər:**



– Ən çox müşahidə olunan infeksiyalar qrip və paraqrip viruslarıdır. COVID-19 və bakterial proseslərin də olması mümkündür. Əsas klinik əlamətlər burun axıntısı, hərarətin yüksəlməsi, quru öskürəkdən bəlğəmli öskürəyə keçidlə özünü göstərir. Valideynlərə tövsiyəm odur ki, əgər bu şikayətlər başlayıbsa, mütləq həkimə müraciət etsinlər. Xəstənin immun sistemi zəifdirsə və üstəlik vaxtında üzərinə düşülməzsə, bakterial prosesin işə qoşulması ilə vəziyyət daha da ağırlaşar. Bakterial bronxit pnevmoniya mərhələsinə keçə bilər ki, bu da sətəlcəm olan uşağın xəstəxanaya düşməsi ilə nəticələnər. Pediatr ilk növbədə uşaqların düzgün qidalanmasını, yuxu rejiminə əməl etməsini, eyni zamanda vitamin qəbulunu vacib hesab edir.

**TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri həkim, infeksionist Vasif Əliyev də təsdiqlədi ki, hazırda mövsümlə əlaqədar olaraq kəskin respirator virus, qripəbənzər yuxarı tənəffüs yolları infeksiyalarına həm uşaqlarda, həm də böyüklərdə tez-tez rast gəlinir:**



– Məhz bu dövrdə bir sıra viruslar aktivləşir: onların arasında rinovirus, adenovirus, rotavirus (xüsusilə uşaqlarda bu virus həm də bağırsaq infeksiyalarına səbəb olur), influenza (qrip), noravirus və koronaviruslar əsas yer tutur. Sözügedən viruslar əksər hallarda yuxarı tənəffüs yolları xəstəliklərinə yol açır.

COVID-19-la bağlı məsələyə gəlincə, mütəxəssis vurğuladı ki, dünyada bu virusun yeni ştamlarına yoluxmalar artıb:

– Bu ştamların simptomları əvvəlkilərdən fərqlənmir. Demək olar ki, qrip əlamətlərinə bənzərdir. Ona görə də onu digərlərindən fərqləndirmək çətindir. Lakin hazırda konkret diaqnostika aparılmadığı üçün yoluxmanın hansı virusa aid olduğunu dəqiq müəyyən etmək mümkün deyil. Buna ciddi ehtiyac da yoxdur, çünki simptomlar bir-birinə oxşardır və tətbiq olunan müalicə üsulları demək olar ki, eynidir.

Məlumat üçün bildirək ki, bu ilin ortalarından etibarən dünyada COVID-19-un yeni ştamları yayılmağa başlayıb. Bu yeni variantlar əsasən "Stratus", "Nimbus" adları ilə tanınır və müxtəlif ölkələrdə yoluxma hallarının artmasına səbəb olub. "Stratus" adlı yeni ştam ilk dəfə Böyük Britaniyada aşkarlanıb və XFG.3 subvariantı ilə tanınır. Bu, "Omikron" ştamının nəslindəndir və əvvəlki variantlardan daha yoluxucu ola bilər. "Nimbus" isə ilk dəfə 2025-ci ilin yazında Böyük Britaniyada aşkarlanıb və artıq Hindistan, ABŞ və digər ölkələrdə də yayılıb. Bu variantın əsas simptomları kəskin boğaz ağrısı, ümumi zəiflik, temperaturun yüksəlməsi və titrəmədir. Ümumdünya Səhiyyə Təşkilatı bu variantı əvvəlki ştamlarla müqayisədə daha ağır hesab etmir, lakin vəziyyəti nəzarətdə saxlayır.

Yeni ştamların yayılması, xüsusilə payız-qış mövsümündə respirator virusların artması ilə üst-üstə düşür. Bu səbəbdən də mövsümün başlanması ilə əlaqədar ölkə ərazisində kəskin respirator virus infeksiyalarının, habelə qripin yayılmasının qarşısının alınması məqsədilə ənənəvi profilaktik tədbirlər həyata keçirilir. TƏBİB-dən aldığımız məlumata görə, əhalinin sağlamlığının qorunması məqsədilə tibb müəssisələrində sanitar-gigiyenik rejimin gücləndirilməsi ilə yanaşı, xüsusilə risk qruplarında olan şəxslər arasında qrip əleyhinə peyvəndlənmə tədbirlərinə başlanılıb. İnaktivləşdirilmiş vaksinlər mövsümi xarakter daşıyır və onların tətbiqi uşaqların, yaşlıların, xroniki xəstəlikləri olan şəxslərin, həmçinin tibb işçilərinin qrip və onun ağırlaşmalarından qorunmasında mühüm əhəmiyyət kəsb edir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Dünənin tale ortaqları keçmişi unuda bilməzlər





(əvvəli 1-ci səhifədə)

...Mənim doğulduğum balaca dağ kəndi keçmiş SSRİ ilə İran sərhədinin yaxınlığındadır. Atam və iki əmim faşizmə qarşı vuruşmuşdu. 20 yaşlı bir gənc olan, hələ ailə qurmamış atam savaşa 1939-cu ildə Fin müharibəsində başlamış, sonra İkinci Dünya müharibəsində Belorusiya cəbhəsində ağır yaralanmış, Kiyev və Saratov hospitallarında müalicə olunub evə buraxılmışdı. O biri qardaşlardan biri bütün blokada dövrünü Leninqradın müdafiəsində keçirmişdi. Digərinin savaş yolu Yaponiya sahillərində bitmişdi.

Biz, müharibədən sonra doğulmuş uşaqlar, böyüklərimizin Rusiya, Ukrayna, Belorusiya torpaqlarında keçən savaş illəri haqqında söhbətlərini milli qəhrəmanlıq dastanlarımız qədər maraq və qürurla dinləyirdik. Atamın evimizin divarından asılı qalan dəri gödəkcəsindən uzun illər Rusiya, Belorusiya çöllərinin barıt iyinə qarışıq qoxusu çəkilməmişdi.

Zastavalara gedən sovet sərhədçilərinin yolu tez-tez bizim kənddən düşürdü. Atam yol yorğunu olan əsgərləri görəndə hökmən bizim balaca evimizə döndərir, ya açıq eyvanda, ya da evin böyründəki çəmənlikdə onları yedizdirib-içizdirib yola salırdı. Qonaqlarımızın hansı millətdən olması kimsəni düşündürmürdü. Atam üçün isə onlar keçmiş döyüş yoldaşlarının övladları, sərhəddə keşik çəkən əsgər idilər! Onda hələ biz onların qoruduğu sərhədin Azərbaycanı iki yerə böldüyünü bilmirdik.

Keçmiş Sovetlər Birliyindən qopmuş respublikaların heç birində ruslar özlərini Azərbaycandakı qədər ərköyün hiss etməyiblər və son ilin nisbi soyuqluğuna baxmayaraq, bu durum indi də davam edir. Bu ona görə deyil ki, ruslar Azərbaycana xoşbəxtlik gətirib və ya bizə həmişə qardaş gözü ilə baxıblar. Yox! Rusiyanın Cənubi Qafqaza gəlişi nəticəsində, əslində, Azərbaycan türklərinə məxsus Qacar səltənəti ikiyə bölündü, kiçik də olsalar, hərəsi müstəqil bir dövlət olan xanlıqların varlığına xitam verildi. Azərbaycanın böyük hissəsi indi də İran deyilən dövlətin daxilindədir.

Bunun ardınca Azərbaycanın İrəvan və Qarabağ xanlıqlarının ərazisinə ermənilərin köçürülmə prosesi, yəni tarixi Azərbaycan vilayətlərinin erməniləşdirilməsi dönəmi başlandı, sonralar isə İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaradıldı. Bu hadisələr Azərbaycan tarixində, ədəbiyyatında geniş işıqlandırılıb. Çar Rusiyasının öz ərazilərini genişləndirmək üçün Qafqazda apardığı ikili siyasətdən, müsəlman əhaliyə soyuq və bəzən amansız münasibətindən bəhs edən çox araşdırmalar var.

Lakin bunların heç birində birbaşa rus xalqı hədəf seçilməyib, düşmən elan edilməyib, ruslara qarşı nifrət, qisasçılıq toxumu səpilməyib. Əksinə, XII yüzildə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvidən başlayaraq ədəbiyyatımız Azərbaycan xalqının xarakterindəki humanizmə, tolerantlığa, insan sevgisinə sadiq qalaraq, bədii əsərlərdə rusların da obrazları yaradılıb, insan münasibətləri həmişə dəyişkən siyasətlərdən yüksək tutulub…

Sadə insanlar üçün İranda qalmış Güney Azərbaycanla ovaxtkı Sovet Azərbaycanını müqayisə etmək imkanı var idi və Arazın bu tayı nə qədər irəlidə, üstün görünürdüsə, bunun hamısını Rusiyanın adı və təsirinə bağlayır, "Rusiya üzümüzə Avropanı açdı" – deyirdilər. Quzey Azərbaycanda Şərqin ilk demokratik respublikası qurulub, teatrdan, baletdən, simfoniyadan tutmuş bir sıra çağdaş mədəniyyət növləri Rusiya üzərindən gəlmiş və Azərbaycanda bu sənət növlərinin dahi yaradıcıları yetişib.

Xalq çar Rusiyasının iki əsr boyu tökdüyü qanları da, 1920-ci il bolşevik işğalı zamanı milli hökumətin yüz minlərlə tərəfdarına tutulmuş divanı da, 1937-ci il repressiyasını, deportasiyaları, kütləvi sürgünləri də, nəhayət, 1990-cı ilin Qanlı Yanvarını – yəni Sovet ordusunun Azərbaycana amansız hücumunu da xatırlayır...

Lakin azərbaycanlıların təbiətində keçmişə baxıb göz yaşı tökmək, tarixin faktlarını əbədi bir düşmənçilik mövzusuna çevirmək xasiyyəti yoxdur. Bu, yaxşıdır, pisdir - deyə bilmərəm. Lakin biz qaranlıq səhifələri tez unudub ürəyimizi işığa, yaxşılığa, xeyirxahlığa, qəhrəmanlığa yönləndirməyə vərdiş eləmişik. Bunun əzabını çəkdiyimiz vaxtlar da olub, bununla belə, xasiyyətimiz dəyişilməyib və milli mentalitetin əlamətlərindən birinə çevrilib. Əksinə, Rusiyanın Azərbaycana qarşı hər bir xoş niyyəti həmişə minnətdarlıqla qarşılanıb.

Son iki əsrdə həyatımızdakı müsbət dəyişiklikləri Rusiyanın təsiri ilə əlaqələndirmək təkcə sovet ideologiyasının təbliğatı deyildi, bu, həm də xalqın səmimi qonşuluq, dostluq istəklərinin, Rusiya–Azərbaycan münasibətlərini möhkəmləndirmək arzusunun ifadəsi idi. XIX yüzildən başlayaraq Azərbaycanın iqtisadi, mədəni, mənəvi həyatında yeni bir dövr başlanıb. Demokratik fikrin, realist ədəbiyyatın, xalqçılıq və maarifçiliyin, bir sıra çağdaş sənət növlərinin və ictimai mübarizə təfəkkürünün inkişafındakı bu yeni mərhələdə Rusiyanın, Rusiya üzərindən gələn Avropa yeniləşməsinin rolu inkaredilməzdir.

Neft sənayesinin sürətli inkişafı Bakını bütün dünyanın diqqət mərkəzinə çevirmişdi. İmperiyanın müxtəlif guşələrindən insanların Azərbaycana axını başlanmışdı. Bu mühitdə yetişən, Rusiya və Avropada təhsil almış yeni ziyalılar dəstəsi Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) yaranmasına nail olmuşdular. Bütün bu dövrlərdə tərəqqipərvər rus ziyalıları həmişə Azərbaycana dəstək vermişdilər.

Ancaq Azərbaycan da borclu qalmamışdı. Mən yalnız bir neçə epizodu xatırlatmaq istəyirəm. Çar Rusiyasında Mirzə Kazım bəy şərqşünaslığın, general Əliağa Şıxlinski rus artilleriyasının atası sayılırdı. "Şərqin Lenini" adlandırılan Nəriman Nərimanov SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 4 sədrindən biri idi. İ.Stalinin repressiv siyasətini gördüyünə və buna etiraz etdiyinə görə zəhərlənib öldürülmüşdü. Məzarı bu gün də Kreml divarları yanında uyuyur.

Səksəninci illərdə hakim Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini mövqeyinə yüksəlmiş Heydər Əliyev XX yüzildə sovet tarixinin ən parlaq simalarından biri olmuşdu. Onun xidmətləri və sıravi ruslar arasındakı hörməti unudulmayıb. Keçmiş SSRİ-də "İkinci Bakı", "Üçüncü Bakı" neft yataqlarının açılmasında, neft-qaz sənayesinin qurulması və inkişafında Azərbaycan alimləri və mühəndislərinin xidməti necə unudula bilər?

Bütün tarixçilərin və hərbçilərin etiraf etdiyi kimi, SSRİ-nin faşizm üzərində qələbəsində Bakı nefti müstəsna rol oynayıb. Hitler 1941-ci ildə Bakının işğalını əsas hədəf seçmişdi və qüvvələrinin böyük hissəsini Qafqaza yönəltmişdi. SSRİ-nin neft mənbələrindən biri olan Qroznı düşmən əlinə keçəndən sonra bütün ağırlıq Bakının və Azərbaycan neftçilərinin üzərinə düşmüşdü. SSRİ-nin neft ehtiyacının 70 faizini, təyyarə, tank yanacağının 90 faizini Bakı verirdi.

Azərbaycanın müharibədə qazanılan qələbədəki rolu barədə həm Almaniya tərəfinin, həm də Sovet ordusu sərkərdələrinin fikirləri də unudulmayıb. Almaniya reyxi açıq-aşkar deyirdi: "Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq". Sovet İttifaqı marşalları da Azərbaycan neftçilərinin qələbədəki həlledici xidmətlərini dəfələrlə qeyd etmişdilər. Marşal K.Rokossovski demişdi: "Hər bir hərbi təyyarəmizin, tank ekipajının düşmənə zərbəsində Bakı neftçilərinin payı vardır". Vaxtilə SSRİ Dövlət Plan Komitəsinin sədri olmuş Nikolay Baybakovun fikrincə: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini, bəlkə, heç bir respublika etməmişdir". Azərbaycanın iqtisadiyyatı, bütövlüklə, hərbi ehtiyacların ödənilməsinə xidmət edirdi. Müharibədən sonrakı illərdə də tez-tez "SSRİ bu müharibəni Mikulinin matorları, Yakovlevin təyyarələri və azərbaycanlı akademik Yusif Məmmədəliyevin benzini hesabına uddu" – deyirdilər.

SSRİ-nin müharibədəki qələbəsi ilə qürur duyan heç kəs Azərbaycanın bu fədakarlığını unutmamalıdır. Bu bir vicdan işidir. Müharibə illərində Azərbaycan xəstəxanalarında yarım milyona yaxın yaralı müalicə olunmuşdu. Azərbaycanlılardan ibarət 5 diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçmişdi. Azərbaycan övladları təkcə SSRİ ərazisində yox, Avropanın müxtəlif bölgələrində də partizan hərəkatına qoşulub böyük qəhrəmanlıqlar göstərmişdilər.

1941-ci ildə Azərbaycanın əhalisi 3,4 milyon nəfər idi. Əhalinin sayına görə İkinci Dünya müharibəsində ən çox itki verən respublika Azərbaycandır. Əhalinin hər 4 nəfərindən biri cəbhədə vuruşmuş, 8 nəfərindən biri həlak olmuşdu. Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının, general və komandirlərin igidliyi bütün SSRİ-də dillərdə gəzirdi.

Müharibədən sonrakı quruculuq illərində də Azərbaycanın alimləri, mühəndisləri SSRİ-nin, demək olar ki, bütün ərazisində sənayenin və iqtisadiyyatın dirçəlməsi və yüksəlişində öz xalqlarının başını ucaldan bir səviyyədə çalışıblar. Mülki sənayedən başlamış, atom gəmiqayırmasına, kosmik tədqiqatlara, təbabətə qədər bir sıra sahələrdə yüzlərlə azərbaycanlı şərəflə çalışıb, ad-san qazanıblar.

Bütün maneələrə və ümidsiz proqnozlara baxmayaraq, Urenqoyda və Sibirdə qazın olduğuna inanan və onu kəşf edən SSRİ qaz sənayesi naziri, azərbaycanlı Sabit Orucov olmuşdu. Bu gün dünyanın bir sıra ölkələrinin möhtac olduğu Rusiya neftinin ən çox çıxarıldığı Qərbi Sibir, Tümen neft yataqlarını kəşf edən də azərbaycanlı geoloq Fərman Salmanov idi. Mərkəzdən "Qərbi Sibir və Tümendə neft ola bilməz!" – deyərək onu bu yoldan çəkindirməyə çalışsalar da, Salmanov ağır cəza gözləyə-gözləyə, bir az da Şimala çəkilmiş və xoşbəxtlikdən, icazəsiz qazdığı buruqdan neft fantan vurmuşdu. "Cinayətkar" bir gündə qəhrəman olmuşdu. Fərman Salmanov Rusiyada yüzdən çox neft yatağı aşkarlayıb istifadəyə vermişdi. Məşhur bakılı alim Eyyub Tağıyevın başçılıq etdiyi institut neft quyularının maili üsulla qazılma texnologiyasını kəşf etmişdi. Dünyanın 50-dən çox ölkəsi bu texnologiyanı SSSİ-dən almışdı. Bu kəşflərinə görə soydaşımız 3 dəfə "Stalin" mükafatına layiq görülmüşdü. Sovet kosmik proqramının banilərindən biri, pilotlu gəmilərin sınaq uçuşları üzrə dövlət komissiyasının sədri də azərbaycanlı general-leytenant Kərim Kərimov idi. Nüvə silahından dinc məqsədlərlə istifadə üzrə Sovet Dövlət Komissiyasına da uzun illər soydaşımız Abbas Çayxorski rəhbərlik etmişdi.

Mədəniyyət və ədəbiyyat sahəsində də Rusiya və Azərbaycan sənətçiləri, qələm sahibləri çiyin-çiyinə çalışıblar. Rus klassik ədəbiyyatının əsas nümunələri Azərbaycan türkcəsinə tərcümə edilib. Rus şairlərinin Bakı həyatı, Azərbaycanın və Rusiyanın böyük söz ustalarının dostluqları əfsanələrə çevrilib.

Azərbaycanın Xalq rəssamı Tahir Salahov Rusiya Rəssamlar İttifaqının vitse-prezidenti idi. Rüstəm İbrahimbəyov 4 dəfə Rusiya Federasiyasının dövlət mükafatına layiq görülmüş yeganə kinodramaturq və rejissor idi. Azərbaycan vokal məktəbinin yetirmələri Bülbül, Rəşid Behbudov, Müslüm Maqomayev, Polad Bülbüloğlu dünyada həm də SSRİ və Rusiya təmsilçiləri kimi seviliblər. Əsərləri dünyanı dolaşan bəstəkarlardan Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Arif Məlikov həm də sovet musiqi məktəbinə şöhrət gətiriblər.

Onların bəzisi öz yaradıcılıq həyatını Moskva ilə bağlamışdır. Rüstəm İbrahimbəyovun "Səhranın bəyaz günəşi" filmi orbitdə kosmonavtlara nümayiş etdirilirdi. Bu, bir ənənə idi. Heykəltaraşlarımızın yaratdığı əsərlər Bakı ilə yanaşı, SSRİ-nin bir sıra başqa şəhərlərinin də meydanlarını bəzəyir.

Bu sətirləri yazarkən yadıma lap gənclik illərindən qatıldığım müxtəlif poeziya festivalları, SSRİ gənc yazıçılarının konfransları, müxtəlif respublikaların Azərbaycanda keçirilən ədəbiyyat günləri, SSRİ yazıçılarının qurultayları düşür. Bakıda biz Moskvadan gəlmiş həmkarlarımızı böyük hörmətlə qarşılayırdıq. Yeni kitabların qarşılıqlı şəkildə tərcüməsi və təbliği həyatımızın normasına çevrilmişdi.

34 ildir ki, Rusiya ilə Azərbaycan öz müstəqil yolları ilə irəliləyirlər. Lakin Moskvadan başlamış Vladivostoka, Çukotkaya qədər Rusiyanın müxtəlif bölgələrində artıq Rusiya vətəndaşlığı daşıyan yüz minlərlə azərbaycanlı yaşayır. Onlar artıq Azərbaycanın da daxil olduğu SSRİ-yə yox, konkret olaraq Rusiyaya xidmət edir, Rusiyanın inkişafına çalışırlar. Bu insanların uşaqları rus dilində təhsil alır, rus ordusunda xidmət göstərirlər. Həmin soydaşlarımızın arasından çıxan istedadlı ziyalılar Rusiya elminin və mədəniyyətinin əsgərləridir. Onları Rusiyanın digər vətəndaşlarından ayırmaq Azərbaycana düşmənçilikdən daha artıq Rusiyaya düşmənçilikdir. Arada pozuculuq, ayrı-seçkilik salmaq Rusiya cəmiyyətinin təməllərini sarsıtmaqdır. Şübhəsiz, öz dövlətinə məhəbbəti olan heç bir ağıllı adam bunu istəməz.

Mən hər zaman Azərbaycanın müstəqilliyinin tərəfdarı olmuşam, bununla belə, köhnə ədəbi, mədəni əlaqələrin qorunmasını da zəruri hesab etmişəm. Müstəqillik bizi bir-birimizdən nə qədər ayırsa da, keçdiyimiz yolları tariximizdən və yaddaşımızdan silə bilmərik. "SSRİ-nin qardaş xalqları" sözü unudulub, amma içimizdə bir yaxınlıq duyğusu həmişə yaşayır. Dünyanın başqa dövlətləri ilə müqayisədə SSRİ-dən qopmuş dövlətlərə həmişə öz tale ortağımız, dostumuz kimi baxırıq.

Azərbaycanda rus dilində təhsil verən xeyli məktəb var. Bakıda Moskvanın 2 böyük universitetinin filialı fəaliyyət göstərir. Rusdilli bağçalar da ləğv edilməyib. Rus dilində buraxılan mətbuat orqanlarının, televiziyanın heç biri qıcıq yaratmır. Bakıdan uzaqda, əyalətlərdə rus-molakan kəndləri də hələ yerindədir. Bu insanlar bizim vətəndaşlarımızdır. Onlar bizimlə eyni sevinci və kədəri bölüşürlər.

Bu gün Rusiya televiziyalarında azərbaycanlıların söyülməsi, təhqir edilməsi, cəmiyyətdə ciddi narahatlıq doğursa da, bu Azərbaycanda yaşayan heç bir rusa qarşı aqressiyaya çevrilmir. Siyasi hoqqabazlarla sadə insanları qarışdırmaq olmaz. Rusiyada da, Azərbaycanda da iki dövləti, iki xalqı, dövlət başçılarını üz-üzə qoymaq, aranı qarışdırmaq istəyən qüvvələr var. Bəzi dünya dövlətləri də Azərbaycan–Rusiya münasibətlərinin pozulmasında maraqlıdırlar. Bizə də, Rusiyaya da düşmən gözündə baxan bəzi qonşularımız isə nifaq toxumu səpməkdə davam edirlər.

Rusiya mətbuatında Azərbaycanı yer üzündən silmək, ölkəmizə qarşı ikinci cəbhə açmaq, azərbaycanlıları cəzalandırmaq şüarları gündən-günə daha bərkdən səslənir. Eyni şəkildə, Azərbaycanda da "bizə heç nə edə bilməzlər" kimi məsuliyyətsiz bəyanatlar eşidilir. Moskvada da, Bakıda da sıravi vətəndaşın durumunu nəzərə almayan, özünü yalançı vətənpərvər, qəhrəman donunda göstərmək istəyən boşboğaz politoloqların sayı artır və insan bu məsuliyyətsiz bəyanatlara sakit qulaq asa bilmir.

Azərbaycanın Rusiyadan inciməsinin səbəbləri isə bəllidir. Rusiya vurulan təyyarədə ölən Azərbaycan vətəndaşlarının ailələrinə, yaxınlarına nə boyda bir faciə üz verdiyini nəzərə almadan bununla bağlı zəruri addımları atmadan azərbaycanlılara qarşı sərt rəftarını, cinayət xarakterli ölüm hallarını davam etdirib. Bunlar çox ağır faktlardır. Münasibətlər də meşə yanğını kimidir, vaxtında qarşısı alınmazsa, söndürülməzsə, getdikcə daha böyük əraziləri bürüyər. Əzab çəkən isə xatalı siyasi bəyənatların müəllifləri deyil, sadə adamlardır.

Rusiyada bəzən azərbaycanlı deyilən kimi bazar sözünü atırlar ortaya. Amma heç kim azərbaycanlıların Rusiya bazarlarına nə vaxt, necə üz tutduqlarını düşünmür. Bu, xalqın xarakteri və həvəsi ilə bağlı deyil, keçmiş SSRİ rəhbərliyinin ikiüzlü, riyakar münasibətinin nəticəsidir. 1988-ci ildən başlayaraq Ermənistandan, onun ardınca Azərbaycanın öz ərazisi olan Qarabağdan yüz minlərlə insan qovulanda, didərgin salınanda onların bir çoxu uşaqlarını ölümdən xilas etmək, ailələrini qorumaq, ac qalmamaq üçün SSRİ-nin başqa bölgələrinə üz tutdular. Evsiz, eşiksiz, köməksiz insanlar uşaqlarının gündəlik yeməyini çıxarmağın ən qısa və asan yolunu bazarlarda görürdülər. Onların bir çoxu Rusiya bazarlarında Azərbaycan məhsulları satır, bolluq yaradır.

Bazarlarda çalışanların hamısı bazar adamı deyil. Onların içərisində yüksək təhsilli insanlar da var. Təsadüfi deyil ki, aralarından bir xeyli iş adamı, Rusiya iqtisadiyyatının inkişafına kömək edən mütəxəssislər çıxıb. Onların hamısına bir gözlə baxıb aşağılamaq olmaz. Onlar dağılan imperiyanın yaralarını sinələrində daşıyan insanlardır. Və bu gün onlara yara üstündən yara vurmaq günahdır.

Axır ki, Rusiya ilə Azərbaycan arasındakı bu soyuqluq aradan qaldırılma yoluna çıxarılır. Bu gün Rusiyada baş aparan və cəzasızlıq şəraitində istədiklərini edən icazəli-icazəsiz güc strukturları və şovinist qruplar, şübhəsiz, durdurulacaqdır.

Mən yazının bura qədər olan əsas hissəsini bir ay öncə yazmışdım. Bu günlərdə Düşənbədə MDB Dövlət Başçılarının Zirvə görüşü zamanı Azərbaycan və Rusiya prezidentləri arasında keçirilən görüş və Vladimir Putinin Şimali Qafqazda Azərbaycan təyyarəsinin vurulması ilə bağlı bir daha üzrxahlıq etməsi, öz ölkəsinin öhdəsinə düşən hüquqi vəzifələrin yerinə yetiriləcəyini vəd etməsi, münasibətlərin nizamlanması istəyini dilə gətirməsi nə vaxtdır gözlənilən addım olmaqla yanaşı, arzu etdiklərimizin təsdiqidir.

Tarix boyu hər bir ölkənin ziyalı təbəqəsi odun üstünə yağ yox, su tökən olub. Hətta ən böyük dövlətlərin, ən güclü imperatorluqların müdrik, ağıllı adamları öz dövlətləri üçün münaqişə yaranmasını istəməzlər. Çünki müharibənin də, siyasi qarşıdurmaların da əzabını çəkən sıravi insanlardır, xalqdır. Bu gün dünya ölkələri quduz bir ehtirasla silahlanır və öldürücü silahların, hətta dünya sivilizasiyasının sonunu gətirə bilən texnoloji fəlakətlərin axtarışı güclənir. Bu pullarla dünyada aclığın, xəstəliklərin qarşısını almaq olardı.

Amma yox, unudulmaz şairimiz Əli Kərim demiş, qədim insanın bir-birinə atdığı daş zaman-zaman oxa, nizəyə, qılınca, topa-tüfəngə, raketə, atoma çevrilərək elə o daş atan insanın başına bəla olmaqdadır. Kim dayandıracaq bu dünyanın sonunu yaxınlaşdıran fəlakət axınını?

Böyük Azərbaycan dramaturqu Hüseyn Cavid əbəs yerə demirdi:

**Kəssə hər kim tökülən qan izini,**
**Qurtaran dahi odur Yer üzünü.**

Təəssüf ki, elm-texnika, dahilər Yer üzündə savaşların durdurulmağından daha çox, yeni silahların icadına çalışırlar.

Günün birində Rusiya–Ukrayna savaşı da bitəcək. Əbədi müharibə yoxdur. Xüsusən iki qardaş xalq arasında. Qonşular da sonsuz savaşa bilməzlər. Sonra axan qanlar quruyacaq, vurulan yaralar tez-gec sağalacaq, amma bir sualın cavabı heç vaxt tapılmayacaq: Bu qardaş xalqlar, qonşular öz problemlərini qansız-qadasız həll edə bilməzdilərmi?

Dünyada cəmi bir ömür yaşayan insanların çəkdiyi zülmlərin məsuliyyəti bəs kimin boynunda qalacaq?

*Sabir RÜSTƏMXANLI,*
*Xalq şairi*

*Təqvim yada salır*

# Sözün solmayan çəhrayı rəngi

**İstiqlal şairimiz Məmməd Arazı 72 yaşınadək hər il 14 oktyabrda dünyaya göz açdığı gün münasibətilə yaşadığı mənzildə təbrik edir, ona cansağlığı, uzun ömür arzulayır, sevgi-sayğılarımızı üzbəüz çatdırırdıq. 20 ildir ki, unudulmaz sənətkarımızın əziz xatirəsini onun əbədiyyət ünvanında – Fəxri xiyabandakı məzarını ziyarətlə yad edirik.**

Bədii sözün təsiri ilə fırçanın ecazkar nəqşələri arasında bir yaxınlıq, oxşarlıq duyuram hər zaman. Sözlər rənglidir, sanıram. Odur ki, hər şair ilhamının mənimçün öz rəmzi boyası, rəmzi predmeti var. Məmməd Araz çəhrayı rəng və Sal Qaya ilə, Nəriman Həsənzadə yaşıl rəng və göy qurşağıyla, Fikrət Qoca ağ rəng və çiçəklərlə təsəvvürümə gəlir.

Gün doğmamışdan dan yeri çəhrayı bir sevinclə üzə gülür. Çiçək kimi çırtlayan xəfif çəhrayı içində bir azdan qızaracaq üfüqün dodaqları səyriyir və göyün üzünə ilk qızartılar gəlir. Üfüqün bağrında əvvəl-əvvəl çəhrayı bir aydınlıq cilvələnir, cilvələndikcə pərdə-pərdə sökülür, açılır. Ürəyinə aydınlıq sevinci dolmağa başlayır. Dan yerinin həmin aydınlıq sevincidir mənim üçün Məmməd Araz şeiri. Haçan oxuyuram, sübhün çəhrayı şəfəqləri qədər xoş bir həyəcan dolur içimə, qəlbim duyğulanır, xəyalım qanadlanır. Bir də günəş batanda çəhrayı olur üfüq. Çəhrayı şüalar buluddan-buluda, üfüqdən-üfüqə şərid-şərid uzanaraq əngin göy tağlarında çiçəkləyir elə bil. Dünyanı çəhrayı bir sevincdə çimizdirir batan günəş. Bəxtəvər olur göz də, könül də. Mənim üçün bəxtəvərlikdi Məmməd Araz şeiri. Haçan dinləyirəm, bəxtəvər oluram. Nə vaxt eşidirəm, arzularıma qovuşuram elə bil.

O çəhrayı şəfəqləri payəndaz edib Süvəlan bağlarından "Təbrizüstü vadilərəcən" getdiyim olub - Məmməd Araz şeirini oxuyandan sonra.

Tünd çəhrayı o rəng - qaşını çatmış Təbriz ümididi, elə bilmişəm. "Təbriz nə istəyir? - Təbriz - qurtuluş!". Tünd çəhrayı rəng - Məmməd Arazın siyirməqılınc misralarıdı. Bir baxın: "Torpaq altda gizlətmişik gur səsini babaların".

Məmməd Araz iki-üç şairimizdən birincisi idi ki, 1988-ci ildə azadlıq və ədalət eşqi ilə dalğalanan Meydanımızı salamladı, öyüd verdi bizə. Xalq sevdiyi, hörmət etdiyi adamın öyüd-nəsihətini qəbul edir. Şair səhhəti ilə əlaqədar mitinqə gələ bilməmişdi. Onun məktubunu Sabir Rüstəmxanlı oxuyurdu. Onda hələ Meydana ad qoymamışdıq. Meydana ilk adı Məmməd Araz verdi: Sahil meydanı. Böyük birlik nəğməmiz ilk dəfə Sahil meydanında gurladı...

Babək qılıncının ovxarı var Məmməd Araz sözündə. Səsimi səslərə, yumruğumu yumruqlara qoşub "Koroğlu uvertürası"na qəlbim dağa dönəndə bu sözləri az pıçıldamadım: "Qoy bu günün düşməni də at çapmasın harın-harın!".

Sonralar sübhün-axşamın çəhrayı şüalarına gözüm sataşanda gördüm ki, heç demə, çəhrayının şəhid qanı kimi saçıla-saçıla yayılmağı da varmış. Bunu sonralar - 20 yanvar 1990-cı ildə qeyrətimin gözləri qan çəkəndə fəhm elədim - Bakıda, Naxçıvanda, Lənkəranda azadlıq istəyim neçənci dəfə qana qəltan oldu... Məmməd Araz "Amandı, qoruyun bir-birinizi" deyirdi. Qoruya bilmədik. "Qəfəsi gildən, papağı küldən" olanlarımız da vardı... Allah eləsin, innən belə olmasın.

Məmməd Arazın şeirlərində güclü həyat eşqi, ehtiraslı milli kolorit var. Tünd çəhrayı rəng - Məmməd Arazın həmin rəngdə təcəssüm edən poetik ehtirasıdır, elə bilirəm.

Məmməd Araz poeziyasının yaddaşı möhkəmdir. Bu, Azərbaycan tarixinin, Azərbaycan torpağının və xalqının yaddaşıdır. Şair, elə bil, yaddaş qalasının mazğallarından tarix çöllərinə nəzər salır...

Bu yurda, bu torpağa o gündən ki, Araz çayı tənbölən olub, ruhumuzun bir guşəsinin qəmqalaq eləmişik. Yan ki, yanasan. Çək ki, çəkəsən. Laqeydliyi, biganəliyi bu cür qınamaq lazım idi. Əcdadların ruhuna belə ərk eləyərlər: "Səndən ötdü, mənə dəydi, Məndən ötdü, sənə dəydi, Səndən, məndən ötən zərbə Vətən, Vətən, sənə dəydi". Ulu tənə, müqəddəs giley deyərəm bu sözlərə. Qobustan qayalarına həkk olunmalı sözlərdi. Görk üçün!

Gündəliyimdə Məmməd Arazın neçə-neçə çəhrayı misrası var... "Dəli gülüşlərim ağlar başımda, Təbriz oxuyurdu dağlar başında". Ruhundan qopub gələn dəli gülüşlərlə güləsən, sonra həmin dəli gülüşlər ağlaya sənin başında... Dəli gülüşlərlə ağlamağı var şair qəlbinin. İllah da ki, Məmməd Araz qəlbi ola. "Neyləyim mən, neyləyim? Qələm aldım əlimə, Araz gəlir dilimə".

Böyük rus rəssamı İ.Levitan irili-xırdalı, payızı təsvir edən yüzdən çox rəsm, etüd, tablo çəkib. Rus meşəsinin payızı ömrü boyu rəssamın fırçasına ilham verib. Bu mənada Məmməd Arazın bütün şeirlərində simvolik bir Qaya görünür. Azərbaycan Qayası. Vətən Qayası. Sergey Yesenin üçün ağcaqayın ağacı nədirsə, Məmməd Araz üçün Qaya odur. Əzəmətli, sal bir Qaya bu poeziyanın daimi yol yoldaşıdır. Qardaşdır Məmməd Arazla bu Qaya ("A daş qardaş!"). Dərinə daha çox boy vermiş olar bu Qaya. Dərinə daha çox boy verən Qayadır Məmməd Arazın poetik idrakı. Vətənin daş-qayasını Məmməd Araz kimi öyəsən! Dağları Məmməd Araz kimi duyasan!

Niyə Məmməd Araz poeziyası məhz çəhrayı rəng effekti oyadır məndə? Yəni əslində mənə elə gəlir. Bax, bu "mənə elə gəlir"in sirri nədir görən?

**Haşiyə.** Xalq şairi Sabir Rüstəmxanlı "Ömür kitabı"nda yazır: "... Naxçıvanlılar kosmonavt Leonovun sözlərini yaxşı xatırlayırlar. Məşhur kosmonavt görüşlərinin birində bu sözləri deyib: "Kosmosdan Yer kürəsi son dərəcə gözəl, çəhrayı rəngdə görünür. Yerə qayıdandan sonra hara yolum düşürdüsə, həmin rəngi axtarırdım. Nəhayət, Naxçıvanda tapdım. Kosmosdan bütün Yer kürəsi Naxçıvan torpağının rəngində (çəhrayı) görünür". Bax, belə. Heç demə, Məmməd Arazın poetik spektrində dönə-dönə mənim gözümə görünən rəng Naxçıvan torpağının öz rəngidi. Məmməd İnfil oğlu İbrahimovun doğma yurdu Naxçıvan torpağının, Nursu kəndinin. Bu cür kökə, özünə, torpağa bağlılıq Məmməd Araz sözünün mayasındadır.

1989-cu ilin noyabrında Naxçıvan-İran sərhədindən kəsilib gətirilmiş bir arşın tikanlı məftilin Bakıda mitinq iştirakçılarının göz yaşı ilə qarşıladıqları yadımdadır. 200 illik həsrətin tikanı necə dərinə işləmişdi. Və birdən sahillər qovuşmuş, "Araz üstə görüş mahnıları çalınmışdı". Mənim dilimdə kədərli bir nida yarpaqladı onda: "Şəhriyar gəlmədi". Bu "gəlmədi" sözündə necə ağır bir təəssüf vardı. Yanıb yaxıldım. Qulağımda isə iynəsi bir cığıra düşüb çıxa bilməyən patefon valı kimi bir misra elə hey səslənirdi: "Deyirlər tapılıb Babək qılıncı...". "Deyirlər...". Bəs sonra? Sonrası..? Sonra nə olsun, axı?!

Beləcə, həmişə gərəyimizdi Məmməd Araz sözü. Bütün ovqatlarda əlimizdən tutan sözdü. Haçansa Məmməd Araz adına ekslibris çəkən olsa, o Qayanı, o Çəhrayını hökmən təsvir etsin gərək.

Məmməd Araz sözünün alovu adamı uzaqdan vurur. Atəşgah bacasından çıxan ilğım kimi istidi, hənirlidi bu söz. Tünd çəhrayıdı bu söz. Bir baxın: "Azərbaycan - mayası nur, qayəsi nur ki, Hər daşından alov dilli ox ola bilər...". Beləcə, yurdun ulu daşlarına dil verib oxudur Məmməd Araz.

Vətən sevgisinin Məmməd Arazyana təəssübü, xalq ruhundan gələn yenilməzlik, xalq və torpaq yaddaşına hədsiz sədaqət, üstəgəl Araz həsrətinə tutuşan bağrımız - Məmməd Araz yaradıcılığında məni ən çox heyrətləndirən mövzulardır. Məmməd Arazın şeirlərində sözlə fikir, mənayla hiss, düşüncə ilə bədiilik biri-birinin içində itib. Qapıları biri-birinin içinə açılır bu misraların.




Ey şöhrət hərisləri, təvazökarlıqda Məmməd Araza düzlənin! Onda görərsiz ki, "tərifsiz ömrün də öz tərifi var".

Məmməd Araz Azərbaycan təbiətinin coşqun təəssübkeşidir. Onun ilhamında vətəndaşlıq qeyrəti dinir, xalqımızın qeyrət damarı vurur. Bu torpağın canlı bir əzasıdır Məmməd Araz şeiri.

Əgər belə demək mümkünsə, Məmməd Arazda bir səmədvurğunluq var. Ona həsr olunmuş şeirləri bir yerə toplasaq, bir kitab alınar. Nədir bu bağlılığın sirri? Hər şeydən əvvəl, Məmməd Arazın Vətən məhəbbəti, "Ana yurdum, hər daşına üz qoyum" sevgisi, bir də "ürəyimsiz kəlmə yazan deyiləm" səmimiyyəti. Məmməd Arazın Vətən məhəbbəti özgə cür dinir, özgə cür danışır. Şairin epiqraf misraları neçə-neçə şeir yazdırıb. Bütövlükdə Məmməd Araz poeziyası epiqraf poeziyadır, qanadlandıran, coşduran, çağıran poeziyadır. Məğrurluq və qürur poeziyasıdır. Mənəvi ucalığa çağırır bizi. "Keçmişinlə öyün, bu gününlə yaşa, sabahım yarat", - deyir Məmməd Araz poeziyası.

Xəyal apardı məni. Gördüm dirsək-dirsək ucalmış azman dağlar arasında bir Şair "ürəyinə qulaq asmağa" gəlib. Ürək onu dirəyib divara, o - ürəyi. Özünü yaşamağa gah haqlı sayır, gah haqsız. İlhamın əbədi çək-çeviri. Kim cavab axtarmadı bu suala – "Mən kiməm, mən nəçiyəm". Bu sualın cavabı varlığın, mövcudluğun nüvəsidir bəlkə. Özünü tanımayan kimsəni tanıya bilməz. Tanıyaq özümüzü! Hərdən bu sualla ayıldaq özümüzü gərək! "Dağda yıxılanda dağdan yapışdım, Enmədim kiçiyin kiçik dizinə. Əldən yapışanda haqdan yapışdım, Əldən yapışmadım əlim işinə!".

Dağ-dağ böyüyür adamın ürəyi. Gördüm dirsək-dirsək ucalmış o azman dağlar Od Yurdunun dağlarıdı, o Şair - Məmməd Araz. Bu dağlar arasında ürəyinə qulaq asmağa gəlib. Deməli, "vaxt tapıb ürəyinə qulaq asmağa". Vaxt tapıb! Tapıb!

***Firidun AĞAZADƏ,***
***şair-tərcüməçi***

*Möcüzəli makroaləm*

# Ulu göylərin sirri dərindir

## *Kosmik axtarışlar isə yeni kəşflərə yol açır*

**Qədim dövrlərdən bəri bəşəriyyət ulduzların və kainatın strukturunu anlamağa çalışmışdır. İlk sadə müşahidələrdən müasir yüksək texnologiyalı kosmik aparatlara qədər uzun bir inkişaf yolu qət edən elmi tədqiqatlar, insanın kosmosa səyahətinin və onun sərhədlərini genişləndirməsinin əsasını qoymuşdur. Kosmosun kəşfi yalnız elm sahəsində deyil, həm də texnologiyada, iqtisadiyyatda və mədəniyyət sahəsində böyük inqilaba səbəb olmuşdur.**

Elmi və texnoloji nailiyyətlər göstərdi ki, yalnız Yer səthində deyil, kosmosda da mövcuddur. Son illərdə kosmos elmi sürətlə irəliləyir və gələcəkdə daha da mühüm kəşflər mümkündür. Marsda üzvi molekulların tapılması, ekzoplanetlərin tədqiqi, kosmik teleskopların kainatın ən qədim dövrlərinə işıq tutması və özəl sektorun kosmosa yatırımlarını artırması insanlığın kainatı anlamaq istəyinin başlanğıcıdır. Yeni məlumatlar kainatın yaranışı, həyatın mənşəyi və kosmosdakı yeri ilə bağlı fundamental suallara cavab axtarışında bizə yardım edir.

**Elm və Təhsil Nazirliyi N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işçisi, Xəzər Universitetinin müəllimi Aytac İskəndərova** bildirdi ki, son 5 il ərzində kosmos elmi sahəsində çoxsaylı kəşflər və texnoloji irəliləyişlər müşahidə olunub. Bunların arasında ən diqqətçəkənlərdən biri 2021-ci ildə fəaliyyətə başlayan Ceyms Vebb kosmik teleskopudur (JWST). Habbl teleskopunun varisi sayılan JWST infraqırmızı spektrdə müşahidələr aparaaraq kainatın ən qədim qalaktikalarını, ulduzların yaranma proseslərini və ekzoplanetlərin atmosfer tərkibini yüksək dəqiqliklə araşdırmağa imkan verir. Məsələn, JWST vasitəsilə HR 8799 ulduz sistemi və GJ 3929b ekzoplanetində karbon dioksid və digər molekulların mövcudluğu aşkar edilmişdir ki, bu da həyat üçün əlverişli şəraitin müəyyənləşdirilməsi istiqamətində önəmli addımdır.

Mars tədqiqatları da son illərdə yeni mərhələyə qədəm qoyub. NASA-nın Perseverance roveri 2021-ci ildən başlayaraq



Mars səthində üzvi molekulların və qədim su izlərinin araşdırılması üzrə önəmli məlumatlar toplayıb. 2024-cü ilin mart ayında Perseverance tərəfindən Mars atmosferində gözünən işıqda auroranın ilk dəfə müşahidə olunması planetin atmosferində dinamik dəyişikliklərin olduğunu göstərir. Bununla yanaşı, Çinin Tianwen-1 missiyası və Zhurong roveri Marsın geoloji və atmosfer tərkibi ilə bağlı yeni məlumatlar təqdim edib. Bununla yanaşı, ekzoplanetlərin kəşfi və elmi tədqiqi də müasir dövrdə yeni tədqiqat səviyyəsinə yüksəlib. Son illərdə minlərlə ekzoplanet aşkar edilib, onların bir qisminin yaşana bilən zonada yerləşdiyi təsdiqlənib. JWST bu planetlərin atmosferlərini təhlil edərək potensial həyat şəraitini müəyyənləşdirməyə kömək edir.

Yeni mərhələdə kosmos elmi yalnız müşahidə və kəşf missiyaları ilə məhdudlaşmır, həmçinin təhlükəsizlik və müdafiə aspektlərini də özündə birləşdirir. Bu mənada, NASA-nın DART (Double Asteroid Redirection Test) missiyası xüsusi yer tutur. DART kosmik obyektlərin istiqamətini dəyişdirməklə Yerə yaxınlaşan təhlükəli asteroidlərin yolunu səmərəli şəkildə dəyişdirməyin mümkünlüyünü sınaqdan keçirdi. 2021-ci ildə həyata keçirilən DART missiyası NASA tərəfindən hazırlanmış ilk kosmik müdafiə təcrübəsi idi. Missiyanın məqsədi Didymos adlı ikili asteroid sisteminin kiçik peyki Dimorphos asteroidinə süni təsir göstərərək onun orbitini dəyişmək idi. Bu, Yerə potensial təhlükə yarada biləcək asteroidlərin yolunun dəyişdirilməsinin mümkünlüyünü sübut etmək üçün atılmış önəmli addım oldu. 2022-ci ilin sentyabr ayında DART peyki Dimorphos asteroidinə sürətlə çırpıldı və onun orbitində əhəmiyyətli dəyişiklik müşahidə edildi. Bu uğur elmi ictimaiyyətdə böyük əks-səda doğurdu və planet müdafiəsi sahəsində yeni perspektivlər açdı.

NASA-nın Artemis proqramı ilə Ayda yenidən insan missiyalarının həyata keçirilməsi, eləcə də Marsa insanlı səyahətlərin planlaşdırılması yaxın illərdə reallaşacaq ambisiyalı layihələrdəndir. Ayda daimi elmi baza qurulması və resursların hasilatı gələcək kosmik tədqiqatların mühüm tərkib hissəsi olacaq. Özəl sektorun kosmik





texnologiyalara cəlb olunması da prosesi sürətləndirir. "SpaceX" və "Blue Origin" kimi şirkətlər raketlərin təkrar istifadəsi və kosmik turizmin inkişafı sahəsində böyük irəliləyişlər əldə edirlər. Bu, kosmosun daha geniş auditoriyaya açılması və ticarət məqsədli missiyaların sayının artması deməkdir.

Astrobiologiya sahəsində yeni kəşflər, xüsusilə Mars və digər planetlərdə həyatın izlərinin tapılması istiqamətində aparılan tədqiqatlar ən önəmli elmi araşdırmalardandır. Həmçinin qaranlıq materiya və enerji kimi fundamental kosmik hadisələrin anlaşılması üçün yeni teleskoplar və müşahidə sistemləri inkişaf etdirilir.

Süni intellekt və avtonom sistemlərin kosmik missiyalarda tətbiqi ilə həm məsafəli planetlərdə robotların idarə olunması, həm də müşahidə məlumatlarının sürətli emalı mümkün olacaq. Bu texnologiyalar gələcək kəşflərin səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaq. Gələcəkdə kosmik tədqiqatlar yalnız Yer kürəsi ilə məhdudlaşmayacaq, eyni zamanda kainatın daha uzaq və mürəkkəb bölgələr araşdırılacaq. Elmi nailiyyətlər, texnoloji innovasiyalar kosmosun dərinliklərinə dair anlayışımızı genişləndirəcək və yeni kəşflərə yol açacaq.

***Mustafa KAMAL***
***XQ***

*Fazil Güney – 80*

# Nəsrimizin “güney yeri”...




**Yazıçı-publisist, Əməkdar jurnalist, ərəb filologiyası üzrə fəlsəfə doktoru Fazil Güney Azərbaycanın tanınmış qələm sahiblərindəndir. Ömrünün 80-ci onilliyində də maraqlı bədii və araşdırma yazıları ilə gündəmdən düşməyib. Onun Qarabağ münaqişəsindən bəhs edən “Qara qan” tarixi roman-trilogiyasının yenilənmiş 5-ci nəşri ədəbi aləmdə hadisəyə çevrilib.**

Fazil Abbasov (Güney) Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsində təhsil aldığı vaxtlardan bədii yaradıcılığa başlayıb. Suriya, İraq və Liviyada hərbi və mülki tərcüməçi olduğu illərdə milli-mənəvi dəyərlərimizin, ədəbiyyatımızın təbliği istiqamətində mühüm işlər görüb.

...Ötən əsrin sonlarında baş verən hadisələr, müstəqillik ab-havası Fazil Güneyin yaradıcılıq yönümünü daha çox ictimai-siyasi mövzulara, təhlili jurnalistikaya yönəldib. 1991-ci ilin əvvəlində yaradılan “Assa-İradə” adlı ilk Azərbaycan Beynəlxalq Xəbər Agentliyinin, 1997-ci ildən çıxmağa başlamış ingiliscə “AzerNews” qəzetinin təsisçisi və baş redaktoru, “Azeri Observer” jurnalının direktoru olan Fazil Güney Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm işlər görüb. İslam Əməkdaşlıq Təşkilatı Ölkələri Jurnalistlər Assosiasiyasının sədri kimi də imkanlarından istifadə edərək, Azərbaycanın haqq işinin dəstəkçilərinin sayı və sanbalının artmasına çalışıb. Beynəlxalq toplantılar, konfranslar keçirib, haqq işimizin müdafiəsi üçün bəyanatlar imzalanmasına, xarici həmkarlarının Qarabağ haqqında dəyərli kitablar yazıb yaymasına vəsilə olub. O, eyni zamanda, ədəbi fəaliyyətini davam etdirib və milli-mənəvi dəyərlər baxımından çox qiymətli bir əsər olan “Qara qan” trilogiyasını 30 ilə ərsəyə gətirib. Bu roman ədəbiyyat tariximizdə öz layiqli yerini tutmağa iddialı ən dəyərli bədii yaradıcılıq nümunəsi kimi xarakterizə edilir.

Məhsuldar çalışan şərqşünas-diplomat Fazil Güneyin özünəməxsus yaradıcılıq yolu, fərdi üslubu var. “Ulduz sövdəsi” pamfletlər toplusunun, “Qara qan” romanının, müxtəlif illərdə yazdığı hekayə, esse və povestlərindən seçmələrin toplandığı “Yalanın gerçəkliyi” kitabının müəllifi kimi şöhrət qazanıb. “Yalanın gerçəkliyi” ABŞ-da ingilis dilində nəşr edilib. Seçmələr arasında romantik, fəlsəfi əsərlərlə yanaşı, sarkazmla yazılmış “Yalanın gerçəyi” povestində, “Amazon”, “Cənnəti də pulla almaq istədi”, “Nostalji” hekayələrində yazıçı qəhrəmanlarının iç dünyasını açmaq üçün düşündürücü satiradan, “Qloballaşma dərsi”, “Artıq kişi necə hayıf aldı” və digər hekayələrində islahedici yumordan məharətlə istifadə edib. Əbəs yerə mərhum professor Nizaməddin Şəmsizadə Fazil Güneyi Azərbaycan gülüş mədəniyyətini qoruyub saxlayan və onu silah kimi işlətməyi bacaran yazıçı kimi dəyərləndirməyib.

Mətbuat Şurasının sədri, şair-publisist Rəşad Məcidin təbirincə desək, “ərəbun məğribini də, məşriqini də bilən” Fazil Güneyin bir alim kimi də maraqlı araşdırmaları var. Onun “Müasir Suriya romanı” və “Suriya qadın yazıçılarının əsərlərində qadın emansipasiyası” monoqrafiyası mütəxəssislər tərəfindən bəyənilib və bu mövzuda yazan müəlliflər üçün istinad mənbəyinə çevrilib.

Yazıçının Qarabağ münaqişəsinin ilk günlərindən qələmə aldığı, uzunmüddətli yaradıcılıq axtarışlarının yekunu olan, ana torpağa məhəbbət və yurd təəssübkeşliyi ruhunda yazılan 1076 səhifəlik, bədii-fəlsəfi siqlətli epopeyanı – “Qara qan” əsərini ədəbiyyatşünaslar yetərincə təhlil edib, layiqincə dəyərləndiriblər. Fəlsəfə elməri doktoru, professor Rafiq Əliyev yazıb ki, “qara” sözünün əsərdə göstərildiyi kimi, türkcə “böyük, torpaq və rəng” mənaları var. “Vətən müharibəsində tarixi qələbədən sonra bu sözün 1-ci mənası öz yerini alır – qüdrətli xalqa böyük Qələbə, güclü siyasi lider çox yaraşır!”.

Hələ 3 il əvvəl Azərbaycan Yazıçılar Birliyində keçirilən təqdimatda tanınmış türkoloq, Əməkdar elm xadimi, professor Tofiq Məlikli “Qara qan”ı fundamental bir nəşr nümunəsi kimi dəyərləndirib və bu nəşrin Qarabağ həqiqətlərinin əhatəli, doğru-düzgün mənzərəsini yaradan, tarixi faciəni bu gün və gələcək üçün salnaməleşdirən misilsiz bir mənbə, “Qara qan”la yazılmış çağdaş Qarabağnamə olduğunu söyləyib. Sənədli epopeyanın düşmən qüvvələrlə mübarizədə mənəvi bir silah gücündə olduğu vurğulanıb. Əsərin qəhrəmanlarından biri olan Əməkdar həkim Nadir İsmayılov bədii yaradıcılığın bəsitləşdiyi, kitablara marağın azaldığı bir dövrdə “Qara qan” romanının ədəbi aləmdə ciddi və maraqlı bir nəşr kimi qarşılandığını diqqətə çatdırıb.

Qarabağ münaqişəsinin əhatəli bədii-sənədli xronikası olan roman-epopeyada döyüş səhnələri canlı və inandırıcı boyalarla qələmə alınıb. Burada insan taleləri ön plana çəkilib və ayrı-ayrı millətlərin nümayəndələrinin mənəvi aləmi də peşəkarlıqla əks olunub. Əsər sevgi və ismət sınağı ilə qarşı-qarşıya qalmış Aysunun əsirliyi fonunda Qarabağ savaşının geniş və dərin mənzərəsini əks etdirir. Bakıdan ata yurduna gəlib əsir düşmüş gənc jurnalist qız Aysunun sonra, 2016-cı ilin məlum Aprel döyüşlərinin təsiri ilə yazdığı sözlər, sanki əsərin qayəsini və qəhrəmanın inamını dəqiq ifadə edir: “20 ildən artıqdı Azərbaycan xalqı, bütün türk dünyası gözləyirdi bu xəbəri. Amma hər an qulaqları səksəkədə olan, etnik təmizlənməyə uğramış Qarabağ qaçqın-köçkünləri hamıdan çox intizarındaydı bu günün… Qocalar min-min illərdir əcdadlarının uyuduqları torpaqlarda basdırılmaq, ruhlarını tapşırmaq üçün Allaha dua edirdilər. Orta yaşlılar gənclik çağlarında ata yurdunda qoyub çıxdıqları yarımçıq həyatlarını davam etmək istəyirdilər…

2016-cı il aprelin 4 günü qızıl hərflərlə yazıldı bu xalqın müharibələr salnaməsinə. Həmin 4 gün qurtardı bu milləti töhmətdən”. Və bu sözləri yazarkən Aysu göz yaşlarını saxlaya bilmədi...

Toğrulun Hadruta Aysunu xilas etməyə getməsi ilə bağlı təfsilat da son dərəcə təsirlidir. Epopeyanın 3-cü kitabında əsirlik əzablarından əsəbləri korlanmış Aysunun əkiz övladları ilə Bakıya dönməsindən, Azərbaycanın öz torpaqlarına və tarixinə sahib çıxmasından, ölkəmizin böyük iqtisadi, siyasi və diplomatik nüfuz qazanmasından, nəhayət, tarixi qələbəmizdən inadla və inamla, cəlbedici lirik-romantik üslubda söhbət açılır.

Roman insanların haqsız olaraq zülm və işgəncələrə məruz qalması, doğma yurdunu, ev-eşiyini itirməsi fonunda müharibənin doğurduğu mühiti, əsirlik əzabı çəkən insanların düşüncə tərzini, zülmə mərdliklə sinə gərdiklərini, habelə erməni faşizminin insanlığa təhlükə olduğunu açıq-aydın göstərir. Əsərdə hayların Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər, hərbi və siyasi gerçəkliklər inandırıcı boyalarla təqdim olunur. Yazıçının mənsub olduğu ulu soyun övladlarını başımıza gətirilənlərdən xəbərdar etməkdən ötrü hərbi-siyasi, tarixi və məhəbbət süjeti üstündə qurulmuş romanı çox maraqlı, oxunaqlı və bitkin təəssürat yaradır.

Fazil Güney milli ruhumuzu diri saxlayan “Qara qan”a yazdığı “Müəllifdən” adlı müxtəsər ön sözdə 30 illik arzularının gerçəkləşdiyini gördüyünü qeyd edir: “Romanın belə uzun sürədə yazılması məndən asılı deyildi, buna səbəb Qarabağ müharibəsinin uzadılması oldu. Düşmən və arxasında duranlar zaman keçdikcə Azərbaycanın bu itki ilə barışmaq zorunda qalacağını düşünürdülər. Amma çox yanılırdılar. Tarixdən öncəki tarixi, ilk mədəniyyəti, ilk yazını yaratmış, çox “ilk”lərə imza atmış əcdadları olan bir xalq üçün Qarabağın ölüm və ya olum məsələsi olduğunu anlamırdılar... Şanlı Azərbaycan Ordusu yenilməz sərkərdə İlham Əliyevin başçılığı ilə Qarabağı mənfur, insanlıqdan uzaq yağılardan təmizlədi. Bununla da xalqımızın qəhrəmanlıq salnaməsi “Qara qan”ın son cümləsinin nöqtəsi qoyuldu”.

Biz isə düşünürük ki, dünyaya səs salmış 44 günlük qəhrəmanlıq, mərdanəlik, Zəfər yürüşümüzü və nəticələrini bədii ədəbiyyatda pafosa, eyforiyaya uymadan, gerçək lövhələrlə əks etdirəcək yeni, sanballı əsərlər yazılmalıdır. Bildiyimiz qədərincə, Fazil Güney artıq növbəti əsərini – “Qızıl qan” adlı romanını yazmağa başlayıb. İnanırıq ki, bu da Qələbəmizin epik panoramına dair layiqli əsər olacaq. Çünki müəllifin 60 illik yetkin bədii təcrübəsi və güclü müşahidə qabiliyyətinin olması şəksizdir.

Artıq yazıçının bu yöndə yeni ədəbi çalışmalarının müəyyən işartıları da görünür. Məsələn, Vətən müharibəsində möhtəşəm Zəfərdən sonra Fazil Güney “Mif dağılır” adlı bir hekayəsini yazıb. Aşağıda sitat gətirdiyimiz sonluq parçasından da görünür ki, beynəlxalq miqyasda Azərbaycanın haqq işinin qalibiyyətini müəllif konkret müşahidələri əsasında necə ustalıqla qələmə alıb: “44 gün davam edən müharibə ermənilərin təslim olması ilə durdurulduqdan sonra Mişel Beyrutun küçələrində, dükan-bazarında erməni məhlələrində başqa mənzərə gördü. Adətən dik gəzən, adamlara yuxarıdan baxan hay-ermənlərin boynu bükülmüş, belləri əyilmişdi, üzlərindəki yekəxanalıq ifadəsini hamıya irişən əsl erməni sifəti – qorxaqlıq, yaltaqlıq əvəz eləmişdi. Qardaşı Qarabağda öldürülmüş Aşotu küçədə görən Mişel onu güclə tanıdı. Çəliklə axsaya-axsaya yeriyirdi, arıqlamış, gözləri çuxura düşmüşdü. Sifətində əvvəlki təkəbbürdən əsər-əlamət qalmamışdı... Qos-qoca Livan görürdü: ermənilərin özlərini aldadaraq uydurub yaratdıqları mif necə dağılır...”.

...Ömrünün 80-ci “zirvə”sinə çatmış Fazil Güneyin roman, povest və hekayələrini Azərbaycan nəsrinin “güney yeri” adlandırmaq olar. Dağın güneyinin işığı, hərarəti hər kəsi cəlb etdiyi kimi, Fazil Güneyin əsərləri də oxucunu özünə çəkərək, ayrı bir zövq vəd eləyir. Oxuyub qurtardıqdan sonra uzun müddət həmin yazıların təsir dairəsindən çıxmaq olmur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycanda Türkmənistan Mədəniyyəti Günləri

**Dünən Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Türkmənistan Mədəniyyəti Günlərinin rəsmi açılışı olub.**



Mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov bildirib ki, xalqlarımızı ortaq tarix, mədəni köklər və sarsılmaz dostluq münasibətləri birləşdirir. Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olması isə bir-birimizi daha yaxından tanımağa, qarşılıqlı mədəni mübadilənin genişlənməsinə və gələcəkdə birgə layihələrin reallaşdırılmasına əlverişli şərait yaradır.

Türkmənistan mədəniyyət nazirinin müavini Nursəhet Şirimov isə qeyd edib ki, Azərbaycanda Türkmənistan Mədəniyyəti Günlərinin keçirilməsi xalqlarımız arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. Mədəniyyət sahəsində əməkdaşlıq gələcəkdə daha da genişlənəcək.



Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli isə söyləyib ki, mədəniyyət və ədəbiyyatlarımız ortaq dəyərlərimizin tərcümanı, mənəvi dəyərlər körpüsüdür. Mədəni əməkdaşlığımız çoxəsrlik qardaşlığımızın çağdaş təcəssümüdür.

Mərasim iştirakçıları türkmən xalqının zəngin mədəni irsini əks etdirən fotosərgi ilə tanış olublar. Konsert proqramında isə türkmən rəqsləri və musiqi nömrələri təqdim edilib.

Türkmənistan Mədəniyyət Günləri oktyabrın 15-dək Bakıda və Gəncədə davam edəcək.

***XQ***

# AMEA milli dövlətçiliyimizin xidmətində




**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında AMEA-nın 80 illik yubileyi münasibətilə Yeni Azərbaycan Partiyası ilə birgə toplantı keçirilib.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin “Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında” sərəncamının Azərbaycan elminə, aliminə, yeni elmi nəslə dövlət səviyyəsində verilən yüksək qiymətin və ehtiramın ifadəsi olduğunu bildirib. O, AMEA-nın taleyində ulu öndər Heydər Əliyevin elmi qurumun fəaliyyətini daim diqqət mərkəzində saxladığını vurğulayıb. AMEA-nın yubileyi ilə bağlı müxtəlif formatlarda tədbirlərin təşkil olunduğunu söyləyən akademik ötən 80 ildə milli elmin böyük yol keçdiyini, azərbaycançılıq ideologiyasına, milli kadr hazırlığına töhfə verdiyini, görkəmli alimlər nəsli yetişdirdiyini söyləyib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, AMEA-nın fəaliyyətinin mühüm istiqamətlərindən biri milli dövlətçilik ideologiyasının elmi əsaslarının formalaşdırılması, azərbaycançılıq məfkurəsinin təbliği və cəmiyyətdə milli həmrəyliyin möhkəmləndirilməsidir. AMEA əməkdaşlarının YAP sıralarına daxil olması isə partiyanın keyfiyyət tərkibini daha da zənginləşdirməklə yanaşı, elmi fikrin ictimai proseslərdə daha fəal iştirakına şərait yaradır. Azərbaycan alimləri və ziyalıları intellektual və mənəvi potensialları ilə dövlətçiliyimizin inkişafına mühüm töhfə vermişlər.

Tahir Budaqov partiya sıralarına yeni qoşulan gəncləri ölkənin elmi-ictimai həyatında fəal iştirak etməyə, milli dəyərlərə və dövlətçiliyə sədaqət prinsiplərini daim uca tutmağa çağırıb.

Mərasimdə YAP sıralarına qəbul olunan AMEA əməkdaşlarına üzvlük vəsiqələri təqdim olunub.

***XQ***

# Lənkəranın şair oğluna sevgi və ehtiram

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Lənkəran Bölməsi, Lənkəran Şəhər Heydər Əliyev Mərkəzi və "Söz" jurnalı redaksiya heyətinin birgə təşkilatçılığı ilə unudulmaz şair Şəkər Aslanın 90 illik yubileyi qeyd olunub.**

"Söz" jurnalının baş redaktoru Sevda Əlibəyli Şəkər Aslanın həyat və yaradıcılığı barədə ətraflı məlumat verərək deyib ki, Lənkəranın Boladi kəndində anadan olan, M.Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunu bitirən, uzun müddət Lənkəran rayon qəzeti və "Söz" jurnalının baş redaktoru işləyən, ömrünün son illərində AYB Lənkəran bölməsinə rəhbərlik edən Şəkər Aslan poeziyasevərlərin həvəslə oxuduğu istedadlı şairlərdən olub. Xalq şairi Nəbi Xəzrinin “Uğurlu yol”u ilə ədəbiyyata gələn Şəkər Aslan Xalq şairi Məmməd Arazın onun haqqında dediyi "Sən bölgə şairi deyil, ölkə şairisən", - sözlərini doğruldub.

AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli Şəkər Aslanın Azərbaycan ədəbiyyatına gə-




tirdiyi yeniliklərdən danışıb, sonetlər çələngi yazmaq ənənəsinin bu gün də davam etdirildiyini bildirib. AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli bölgədə ədəbi mühitin inkişaf etdirilməsində Şəkər Aslanın xüsusi rolu olduğunu qeyd edib. Onun yaradıcı insanlara göstərdiyi qayğıdan, xeyirxah ziyalı olduğundan bəhs edib. Xalq şairi Sabir Rüstəmxanlı, poliqrafçı-alim Şəddat Cəfərov, hüquq elmləri doktoru, professor İbrahim Quliyev, "Aşkarlıq" qəzetinin baş redaktoru, yazıçı-publisist Hacı Etibar Əhədov Şəkər Aslan haqqında xatirələrini bölüşüblər. Şairlərdən Xudaverdi Cavadov, Ağamir Cavad, Əhməd Haqsevər, Ofelya Nəzərova şair haqqında xatirələrini danışıb, ona həsr etdikləri şeirlərini oxuyublar.

Sonda Şəkər Aslanın qızı Aytel Aslanova tədbirin təşkilatçılarına, atası haqqında xoş söz deyən çıxışçılara və tədbirin bütün iştirakçılarına ailəsi adından minnətdarlığını bildirib.

Tədbirin ertəsi günü Lənkəran ziyalılarının bir qrupu və Boladi kəndinin ziyalıları Şəkər Aslanın məzarını ziyarət edib, şairin xoş xatirələrdə yaşadığı, adının daim ehtiramla anıldığı vurğulanıb. Boladi kənd 2 saylı məktəbin gənc qiraətçiləri şairin şeirlərini səsləndiriblər.

***Ə.ƏLİYEV***
***XQ***

# İqtisadiyyat sahəsində Nobel mükafatçıları

**2025-ci il üçün iqtisadiyyat üzrə də Nobel mükafatı laureatlarının adları açıqlanıb. İsveç Kral Elmlər Akademiyası oktyabrın 13-də Joel Mokirin “Texnoloji tərəqqi vasitəsilə davamlı iqtisadi artım üçün zəruri şərtləri müəyyən etdiyinə görə”, Filipp Aqhionun və Piter Hauittin “Yaradıcı dağıdıcılıq vasitəsilə davamlı iqtisadi artım nəzəriyyəsinə görə” Nobel mükafatına layiq görüldüklərini elan edib.**

İsveç Kral Elmlər Akademiyasının üzvlərinin sözlərinə görə, laureatlar bu mükafata “innovasiyaya əsaslanan iqtisadi artımı izah etdiklərinə görə” layiq görülüblər. Nobel Komitəsinin saytında verilən açıqlamaya görə, Joel Mokir davamlı iqtisadi artımın mahiyyətini nümayiş etdirmək üçün tarixi mənbələrdən istifadə edib. Onun araşdırmasında göstərdiyi kimi, innovasiyanın uğur qazanması üçün “nəyinsə işlədiyini bilmək kifayət deyil, həm də onun niyə belə etdiyini izah edən əsasa sahib olmaq” lazımdır: “İnnovasiyalar Sənaye İnqilabına qədər olmayıb və bu da yeni kəşflərə və ixtiralara mane olub. “O, cəmiyyətin yeni ideyalara açıq olmasının və dəyişməyə hazır olmasının vacibliyini də vurğulayıb”.




İqtisadiyyat üzrə Nobel Mükafatı Komitəsinin sədri Con Hassler deyib: “Laureatların işi göstərir ki, iqtisadi artımı təbii qəbul etmək olmaz. Biz durğunluğun qarşısını almaq üçün yaradıcı məhvin altında yatan mexanizmləri dəstəkləməliyik”.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Bar-bərəkətli payızım...



**Bu günlər ölkəmizin hər bir guşəsində payızın ilıq, məhrəm nəfəsi duyulur. Axı payız həm bar-bərəkət, həm də sevinc, toy-büsat fəslidir. İnsanlar ilboyu tarlalarda min bir zəhmət hesabına bol məhsul yetişdiriblər.**

Bu günlərdə Kəlbəcərdə bal, Masallıda çəltik, Şamaxıda şərab festivalları keçirilib. Qubada alma, Göyçayda nar bayramlarına hazırlaşırlar. Bütün bölgələrimizdə bayram əhvali-ruhiyyəsi var.

El-oba, əkin-biçin adamı sevinəndə, torpaq da bərəkətini əsirgəmir. Kəndli də beləcə əməyinin bəhrəsini görəndə, torpağa daha ürəkdən bağlanır. Tarlaların məhsulu anbarlara, bazarlara daşınsa da, kəndli torpaqdan ayrıla bilmir. Növbəti ilin bol məhsulu barədə düşünür.

Ulu Naxçıvanın meyvə və üzüm bağları, Qarabağın payızlıq taxıl əkinləri, Lənkəranın, Astaranın çay plantasiyaları, Salyanın, İmişlinin qışlaqları sübh açılandan gün batanadək əməkçilərin, maldarların nəfəsi ilə isinir.

Növrağın mübarək, gözəl məmləkətim!

## Lənkəranın "qızılı mövsümü"

### *Yeni bağlar, ənənəvi məhsullar*



**"Bağa baxarsan, bağ olar, baxmasan dağ" məşhur kəlamını ta qədimdən ata-babalarımız deyib. Lənkəran rayonunun səfalı İstisu qəsəbəsində yerləşən "Sitrus Valley" fermer təsərrüfatının ərazisi vaxtilə cəngəlliyi xatırladırdı. İxtisasca müəllim olan Rəftarə Şükürova dövlətimizin dəstəyi ilə bu baxımsız, kol-kos basmış torpaqda indi gözəlliyi gözoxşayan meyvə bağı salıb. Nizamla, müasir aqrotexniki qaydalara uyğun olaraq 6 hektar sahədə feyxoa, 3,5 hektarda kivi, 4 hektarda naringi, portağal, limon, 0,3 hektarda kinkan ağacları əkib.**

Ötən ildə olduğu kimi, bu il də məhsul boldur. Meyvənin ağırlığından feyxoa, naringi, portağal, limon, kivi ağaclarının budaqları əyilib. Təsərrüfatın rəhbəri Rəftarə xanım yığım mövsümü ilə əlaqədar görülmüş işlər barədə söhbət açır:

–Artıq bir neçə gündür ki, feyxoa yığımına başlamışıq. Bildiyiniz kimi, feyxoanın vətəni Cənubi Amerikadır. Daha çox subtropik iqlim şəraitində becərilir, soyuğa davamlıdır, hətta mənfi 14 dərəcəyə qədər olan şaxtalara dözə bilir. Əkiləndən 3 il sonra bar verir. Rütubəti çox sevir. Deyirlər ki, feyxoa ağacı ayağından da, başından da su içir. Bu il yayda havaların hədsiz isti keçməsi nəticəsində məhsul gec yetişir. Odur ki, yığımı mərhələli şəkildə aparırıq.

Feyxoa gəlirli, yüksək məhsuldarlığa malik bitkidir. Yaxşı qulluq etsən, hər hektardan 20 ton məhsul götürmək olar. Hazırda hər bir kiloqramının ortalama qiyməti 1 manat 10 qəpikdir. Mövsüm başlanandan 1 tondan artıq feyxoa yığılıb. Fəhlələrdən İqbal Qurbanov, Tural Şiriyev, Könül Eminova, Gülzadə Talıbova, Adilə Eminova hər gün 100 kiloqramdan artıq məhsul yığırlar.

Təsərrüfatın "Araz" supermarketlər şəbəkəsi ilə müqaviləsi var. Məhsulun bir hissəsi Bakı şəhərinə göndərilir. Təsərrüfatın nəzdində kiçik emal sexi fəaliyyət göstərir. Sexdə meyvələrdən kompot, cem, mürəbbə, müxtəlif turşular hazırlanıb ölkəmizin daxili bazarlarına çıxarılır. Kivi və feyxoa turşusuna, naringi, kivi, feyxoa, kinkan mürəbbələrinə tələbat daha böyükdür.

Rəftarə xanımla ərazini gəzirik. İnnovativ üsullara əsaslanan müasir suvarma sistemi ilə təchiz olunmuş bağda aqrotexniki qaydalara yüksək səviyyədə əməl olunur. Sitrus ağaclarının dadlı, meyvələrinin xoş ətri ətrafa yayılıb. Rəftarə xanım deyir ki, naringi, portağal hələ göy rəngdədir, yaxın günlərdə yetişəcək və yığıma başlayacağıq. Havalar imkan versə, məhsul istehsalı keçənilkindən çox olacaq.

"Sitrus Valley" təkcə Lənkəranda deyil, respublikamızda qabaqcıl, nümunəvi fermer təsərrüfatı kimi tanınır. Mayda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən respublikamızda "Nümunəvi bağ" adına layiq görülmüş iki təsərrüfatdan biridir. Mövsüm işlərə burada 40-50 fəhlə cəlb olunur.

"Sitrus Valley" həm də nümunəvi aqroturizm mərkəzlərindən biridir. Son illər bir sıra xarici ölkələrin Azərbaycandakı səfirliklərinin əməkdaşları, çoxlu sayda yerli və xarici turistlər təsərrüfatda olublar. Qonaqlar sitrus və subtropik meyvələrin yetişdirilməsi ilə maraqlanıblar. Burada onlara Lənkəran mətbəxinin dadlı, ləzzətli təamları təqdim olunub. Əcnəbi turistlər xoş, səmimi ünsiyyətə, yüksək qonaqpərvərliyə görə razılıqlarını ifadə ediblər.

Fermer Rəftarə Şükürova Kənd Təsərrüfatı Nazirliyinin, eləcə də bir çox özəl qurumların təşkil etdikləri layihələrdə fəal iştirak edir. "Aqrar Tədarük və Təchizat" ASC-nın "Şəhərdən kəndə" layihəsinin təqdimat mərasimi bu təsərrüfatda keçirilib. Layihə çərçivəsində təsərrüfatda aqroturizm infrastrukturunun yaradılmasına köməklik göstərilib.

Rəftarə xanımın təşəbbüsü və rəhbərliyi ilə yerli sahibkar qadınları birləşdirən "İvradamon" adlı kooperativ yaradılıb. Qadın fermerlər səylərini birləşdirib məhsul istehsalını və emalını artırır, istehsal etdikləri ekoloji cəhətdən təmiz, keyfiyyətli məhsulları yarmarkalarda, sərgilərdə nümayiş etdirirlər.

Sahibkar xanım, həmçinin Türkiyədə və digər xarici ölkələrdə kənd təsərrüfatı məhsullarının sərgilərində, treninqlərdə fəal iştirak edərək qabaqcıl dünya təcrübəsilə yaxından tanış olub. Cənub bölgəsindən 6 fermerlə "Lənkəran-Astara iqtisadi rayonunda meyvə-tərəvəz sektorunda rəqabət qabiliyyətinin, əməkdaşlığın və müasirləşmənin təşviqi" layihəsi üzrə İtaliyada olub. Səfər çərçivəsində regionda aqrar sahənin potensial imkanları, perspektivləri, meyvə-tərəvəz sektorunda əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. Xanım fermer təlim kurslarında iştirak edib, emal müəssisələrinin, aqroturizm obyektlərinin fəaliyyəti ilə tanış olub.

Rəftarə xanım müasir xarici təcrübəni tətbiq etməklə təsərrüfatı genişləndirmək, məhsul istehsalı və emalını artırmaq, ərzaq bolluğu yaratmaq əzmilə çalışır.

Separadi kəndində salınmış "Lenk Fruit" MMC-yə məxsus yeni sitrus bağı rayonda iri sitrusçuluq təsərrüfatı sayılır. Bağın ümumi ərazisi 150 hektardır. Burada Türkiyədən gətirilmiş 141 min ədəd sitrus, şaftalı və nektarin ağacları əkilib. Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 16-da Lənkəran rayonuna növbəti səfəri zamanı "Lenk Fruit" MMC-yə məxsus sitrus bağında yaradılan şəraitlə tanış olub.

Təsərrüfatın rəhbəri Namiq Cəbiyev sitrus yığımına ciddi hazırlaşdıqlarını bildirdi. Bu il naringi bağlarının 15 hektar artırıldığını, yeni gecyetişən naringi sortunun əkildiyini vurğuladı. Keçən il 3 min tona yaxın məhsul yığıldığını, hektarın məhsuldarlığının 27 tona çatdırıldığını söylədi. "Bu il bağlarda məhsul çoxdur, daha yüksək nəticələrə nail olacağıq", – dedi.

Lənkəran Şəhər Statistika İdarəsindən aldığımız məlumata görə, rayonda 920 hektar sitrus bağı var. Keçən il bağlardan 10 min 126 ton məhsul yığılıb. Hektarın orta məhsuldarlığı 11,2 tona çatdırılıb. Limon, naringi bağlarının məhsuldarlığı daha yüksək olub. Bu il 60,4 hektar sahədə yeni sitrus və subtropik meyvə bağları salınıb.

Bir neçə gündən sonra bağların "qızıl dövrü" başlanır. Sitrus və subtropik meyvə bağlarında yenidən iş bulaq kimi qaynayacaq, rayonun kənd əməkçiləri ənənələrə sadiq qalaraq aqrar sahənin inkişafına öz layiqli töhfələrini verəcəklər.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

## Qobustanın dəmyə buğda çörəyi

**Qobustan ölkəmizin ən böyük taxılçılıq rayonlarındandır. Burada ildə orta hesabla 40 min tondan çox arpa və buğda yetişdirilərək tədarük edilir. Rayon əhalisi sayı 40 min nəfərə yaxın olduğunu nəzərə alsaq, deməli, hər sakinə 1 min tondan çox taxıl düşür.**



Bu, yaxşı göstəricidir. Öz əhalisini taxılla təmin edən azsaylı rayonlardandır Qobustan! Təəssüf ki, belə bölgələrimiz çox deyil. Qobustanda taxıl və arpa sahələri əsasən dəmyə torpaqlarda yerləşir. Taxılçılar yaxşı bilirlər ki, dəmyə sahələrdə bol məhsul yetişdirmək heç də asan iş deyil. Bəzən təbiət yağmur sarıdan xəsislik edir. Bir də görürsən ki, həftələrlə göydən yerə bir damla yağış belə düşmür.

Lakin qobustanlı fermerlər çox səriştəlidirlər. Onların çoxu hava şəraitinin əlverişsiz olduğu illərdə belə növbəli əkin üsullarından və zəruri aqrotexniki tədbirlərdən bəhrələndikləri üçün sahələrdə məhsuldarlığın kəskin azalmasına imkan vermirlər. Qobustanda torpağın yaxşı dilini bilən fermerlər çoxdur. Yerli fermerlərin uğuru, ilk növbədə, yüksək reproduksiyalı buğda və arpa toxumlarından istifadə etmələrindən qaynaqlanır.

Məlumdur ki, rayonda fəaliyyət göstərən Qobustan Bölgə Təcrübə Stansiyası seleksiya və toxumçuluq istiqamətində ixtisaslaşıb. Stansiyada hər il 350-400 tona qədər rayonlaşmış elit reproduksiyalı yumşaq buğda, arpa, noxud sortlarının toxumları istehsal olunur və Kənd Təsərrüfatı Nazirliyinin (KTN) bölgüsü əsasında ölkəmizin bir çox dövlət və özəl toxumçuluq təsərrüfatlarına verilir.

KTN rəhbərliyi qobustanlı fermerlərin təcrübəsinin ölkə ərazisində geniş yayılması üçün əməli işlər görür. Bir müddət əvvəl rayonda nazirliyin Aqrar İnnovasiya Mərkəzi, rayon icra hakimiyyəti və Aqrar Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə Aqrar Biznes Festivalı və toxum sərgi-satış yarmarkası keçirilib.

Yarmarkada Dağlıq Şirvan iqtisadi rayonunda fəaliyyət göstərən toxum istehsalçıları, eləcə də dövlət qurumları və özəl şirkətlərin nümayəndələri iştirak ediblər. Yarmarka çərçivəsində KTN mütəxəssisləri tərəfindən yaradılan vahid stenddə ölkənin müxtəlif bölgələri üçün sertifikatlaşdırılmış və rayonlaşdırılmış toxum nümunələri nümayiş etdirilib, fermerlərin diqqətinə torpaq və iqlim xüsusiyyətlərinə uyğun toxumların seçilməsinin əhəmiyyəti çatdırılıb.

Bildirilib ki, Dağlıq Şirvan iqtisadi rayonu üzrə "Lider", "Ləyaqətli-80", "Yubiley-90", "Gaudio", "Maurizio", "Lucilla" yumşaq buğda sortları, eləcə də "İdra", "Dəyanətli" və "Finola" arpa sortlarının istifadəsi daha məqsədəuyğundur.

Festival çərçivəsində "EMA Agro" şirkətinin təcrübəli aqronomları fermerlərə "Dənli bitkilərin əkinqabağı mühafizəsi qaydaları" mövzusunda təlim keçiblər. Təlimdə əkindən öncə profilaktik aqrotexniki tədbirlərin görülməsi və məhsul itkisinin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmağın yolları barədə məlumat verilib.

Festivalda iştirak edən fermerlərdən biri bizimlə söhbət zamanı dedi ki, bu cür festivallar onların bilik və bacarıqlarını artırmağa kömək edir. Bundan başqa, fermerlər dövlətin dəstək proqramları barədə maarifləndirilir ki, bu da, öz növbəsində, taxılçılığın səmərəliliyinə müsbət təsir göstərir.

Bu yerdə bu kiçik yazıya nöqtə qoymaq olardı. Amma bir məqamı yada salmağa ehtiyac duyuruq. O da budur ki, rayonun dəmyə torpaqlarında min bir zəhmət hesabına araya-ərsəyə gətirilən buğdadan hazırlanan çörəyin ətri və dadı, bir başqadır.

***M.HACIXANLI***
***XQ***

*Naxçıvan xəbərləri*

## Regional "ASAN xidmət"də toplantı



**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Naxçıvan regional "ASAN xidmət" mərkəzində Yeni Azərbaycan Partiyası ərazi partiya təşkilatının yaradılması ilə bağlı toplantı keçirilib.**

Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov iclasda müstəqil Azərbaycanın banisi, ümummilli lider Heydər Əliyevin ölkəmizin inkişafında və dövlətçiliyin möhkəmlənməsindəki tarixi xidmətlərini qeyd edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar bu möhkəm təməl üzərində ölkəmizi yeni uğurlara aparır. O, YAP ərazi təşkilatının yaradılması ilə bağlı partiya üzvlərini təbrik edib, onlara fəaliyyətində uğurlar arzulayıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli söyləyib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP dahi liderin milli dövlətçilik ideyalarına sadiq qalaraq onların həyata keçirilməsini ardıcıl şəkildə təmin edir. Prezident, YAP sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dinamik inkişaf və tərəqqi yolundadır.

İclasda təşkilati məsələlərə baxılıb, ərazi partiya təşkilatının sədri və müavini seçilib.

## Şahbulaqda Xalq Yaradıcılığı Günü



**Muxtar Respublika Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şahbulaq kəndinin turizm potensialının yenidən dəyərləndirilməsi və infrastrukturunun inkişafı ilə bağlı olaraq Şərur Rayon Mədəniyyət İdarəsinin tabeliyindəki müəssisələrin iştirakı ilə "Bir gün kənddə – bir ömürlük xatirə" adlı xalq, nehrəçalxama xalq məişəti nümunələrini təqdim ediblər.**

Çal-çağırda nənələrin bayatısı səslənib, qonaqlar samovar çayına, bala qonaq edilib. Şənlik xalq musiqisi və rəqs nümunələri ilə davam edib.

## Qarğıdalı yığımı



**Naxçıvan Muxtar Respublikasında qarğıdalı yığımına başlanılıb. Cari mövsümdə muxtar respublika üzrə 834 hektardan çox sahədə qarğıdalı yığımının həyata keçirilməsi nəzərdə tutulur. Əkin sahələrinin böyük hissəsi əvvəlki illərdə olduğu kimi, Şərur rayonunun payına düşür. Rayon ərazisində bu il 700 hektara yaxın sahədə qarğıdalı əkilib.**

Hazırda Şərurda 200 hektar sahədə biçin aparılıb və 1 min 300 tondan artıq qarğıdalı tədarük olunub. Qeyd edək ki, Muxtar Respublikada qarğıdalı əkin sahələri ötən illə müqayisədə artıb. Bu il əkin sahəsinin artırılması isə daha yüksək istehsal həcmi gözləməyə əsas verir.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

*Qayıdışın addımları*

# Ballıca və Xanyurdu torpaqları da ölkəyə bar-bərəkət yetirəcək



**Xocalı rayonunun Ballıca və Xanyurdu kəndlərinin sakinləri ilə torpaqların əkin məqsədli istifadəyə verilməsinə dair icarə müqavilələri imzalanıb. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təşkil olunan imzalanma mərasimində Kənd Təsərrüfatı Nazirliyinin, Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları, Nazirliyin Aparatı və tabeliyində olan qurumların məsul şəxsləri, Xocalı Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları, kənd sakinləri, fermerlər və sahibkarlar iştirak ediblər.**

Kənd Təsərrüfatı Nazirliyinin Fermerlər, Assosiasiyalar və Kooperativlərlə İş Şöbəsinin müdiri Leyli Ağayeva bildirib ki, Ballıca və Xanyurdu kəndləri üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli, 236 nömrəli Fərmanının 4.1-ci bəndi və Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli, 544 nömrəli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçirilir.

Şöbə müdiri qeyd edib ki, ümumilikdə Ballıca və Xanyurdu sakinlərindən kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi ilə bağlı 177 müraciət daxil olub. Torpaqların istifadəyə verilməsi prosesinin nəzərdə tutulan vaxtda yekunlaşdırılması məqsədilə Xocalı Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları tərəfindən kənd sakinlərinə hərtərəfli texniki dəstək göstərilib.

Daxil olan müraciətlər təhlil edilib, təqdim edilən parsellərə müraciətlər çox olduğu üçün Qaydalara əsasən birləşmə imkanları barədə məlumatlandırma aparılıb. Nəticədə, müraciətləri təsdiqlənmiş şəxslərdən 64 nəfər tərəfindən 8 kooperativ, 14 nəfər tərəfindən isə 4 ailə – kəndli təsərrüfatı formalaşdırılıb. İlk mərhələdə Kənd Təsərrüfatı Nazirliyi ilə kooperativlər və ailə – kəndli təsərrüfatlarında birləşmiş kənd sakinləri arasında icarə müqavilələri imzalanıb.

Qaydalara əsasən, istifadəsinə torpaq sahələri verilmiş kənd sakinləri torpaqlardan təyinatına uyğun istifadə etməli, ərazinin iqlim şəraitinə uyğun və mütəxəssislərin tövsiyə etdikləri bitkiləri yetişdirməli, yalnız sertifikatlı toxum və tinglərdən istifadə etməli, torpaqların mühafizəsi, keyfiyyətinin qorunması, bərpası və yaxşılaşdırılması üçün müvafiq aqrotexniki tədbirlər görməlidirlər. Müəyyən olunmuş qaydalara əməl etməyən sakinlərlə bağlanmış icarə müqavilələrinə xitam veriləcək, torpaq sahələri təyinatına uyğun istifadə üçün digər kənd sakinlərinin istifadəsinə veriləcək.

İcarə müqavilələrinin müddəti birillik bitkilər və yonca üçün 2 il, çoxillik bitkilər üçün isə 5 il təşkil edir. Növbəti illərdə torpaqdan səmərəli istifadənin nəticələrinə uyğun olaraq müqavilələrin müddəti uzadıla bilər.

Xatırladaq ki, kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi ilə bağlı keçirilən təlimlərdə Ballıca və Xanyurdu kəndləri üzrə torpaqların istifadəyə verilməsi üçün EKTİS vasitəsilə müraciətlərin qəbulu qaydaları, şərtlər və tələblər, müasir suvarma sistemlərinin əhəmiyyəti, səmərəli təsərrüfatçılığın təşkili, texnikalardan səmərəli istifadə qaydaları, tərəvəzçilik, bitkiçilik, meyvəçilik, əkinçilik, aqrar sahədə fermerlərə göstərilən dövlət dəstəyi tədbirləri, işğaldan azad olunmuş ərazilərdə davranış qaydaları və iqlim dəyişkənliyinin kənd təsərrüfatına təsirləri mövzularında məlumatlandırma aparılıb. Təlimləri uğurla başa vuran kənd sakinlərinə sertifikatlar təqdim olunub.

***Müşfiq MİRZƏ***
***XQ***

# Yaxın Şərq üçün tarixi qurtuluş

*Dünya Trampın sülh təşəbbüsünü ehtiyatlı nikbinliklə qarşılayır*

**ABŞ Prezidenti Donald Tramp 2025-ci ilin sentyabrında Qəzzada davam edən İsrail–HƏMAS münaqişəsinin dayandırılması məqsədilə yeni sülh planı təqdim edib. Təşəbbüsün əsas məqsədi bölgədə uzunmüddətli sabitlik və təhlükəsizliyin təmin olunması, humanitar böhranın aradan qaldırılması və siyasi dialoqun bərpasıdır.**



Plan 20 maddədən ibarətdir və mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. İlk mərhələdə tərəflər arasında tam atəşkəs elan olunub, Qəzza əhalisinin humanitar yardımlara çıxışı təmin ediləcək, beynəlxalq təşkilatların fəaliyyəti üçün şərait yaradılacaq. HƏMAS bütün sağ qalan girovları İsrail tərəfinə təhvil verəcək, əvəzində İsrail 250 məhbusu və Qəzzada saxlanılan təxminən 1700 nəfəri azad edəcək. Artıq hər iki tərəf girov və məhbuslarla bağlı öhdəliklərini yerinə yetirib.

Sülh planına əsasən, Qəzzada siyasətdən kənar ixtisaslı şəxslərdən ibarət müvəqqəti "Texnokratik İdarəetmə Şurası" yaradılacaq və onun fəaliyyətinə beynəlxalq müşahidəçilər nəzarət edəcək. ABŞ-ın təşəbbüsü ilə "Sülh Şurası" adlı beynəlxalq idarəetmə orqanı formalaşdırılacaq. Təhlükəsizlik bölməsinə əsasən, HƏMAS-ın hərbi infrastrukturu – tunellər, silah anbarları və istehsal sahələri ləğv ediləcək. Qəzzada təhlükəsizliyi təmin etmək üçün "Beynəlxalq Sabitlik Qüvvəsi" yaradılacaq və bu qüvvə həm təhlükəsizliyi qoruyacaq, həm də yerli polis qüvvələrini təlimləndirəcək.

İqtisadi bərpa istiqamətində Qəzzanın elektrik, su və rabitə sistemləri daxil olmaqla bütün infrastrukturunun yenidən qurulması üçün beynəlxalq donor fondu təsis ediləcək. Bu prosesdə ABŞ, Avropa İttifaqı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinin iştirak edəcəyi bildirilir. HƏMAS planın bəzi bəndlərinə ehtiyatla yanaşsa da, ilkin mərhələdə atəşkəs və girov mübadiləsinə razılıq verib. İsrail hökuməti planı "reallığa əsaslanan və təhlükəsizlik maraqlarını qoruyan çərçivə" kimi qiymətləndirib, lakin Qəzzada beynəlxalq nəzarətin mexanizmlərinin daha dəqiq müəyyən edilməsinin vacibliyini vurğulayıb.

BMT, Avropa İttifaqı və Misir Trampın təşəbbüsünü "mümkün diplomatik dönüş nöqtəsi" adlandırıblar. Qətər və Türkiyə planın humanitar aspektlərini müsbət qiymətləndirsələr də, Qəzzanın siyasi statusu ilə bağlı müddəaları qeyri-müəyyən hesab ediblər. Analitiklərin fikrincə, planın uğuru yalnız ABŞ və İsrailin mövqeyindən deyil, həm də ərəb dövlətləri və beynəlxalq təşkilatların koordinasiyasından asılı olacaq.

Sülh razılaşmasının əldə olunmasından sonra Donald Tramp İsrail Knessetində çıxış edərək fələstinliləri və regional tərəfdaşları Qəzzanın yenidən qurulmasına diqqət yönəltməyə çağırıb. O, ABŞ-ın yenidənqurma prosesinə dəstək verəcəyini və digər ölkələri bu təşəbbüsə qoşulmağa dəvət edib. Tramp bu tərəfdaşlar qrupunun "Sülh Şurası" adlandırılacağını qeyd edib. Çıxışında o, İsrailin Baş naziri Benyamin Netanyahu ilə hərbi əməkdaşlıq barədə zarafatla danışaraq bəzi silah sistemləri barədə qeyri-rəsmi dialoqa toxunub.

Tramp çıxışının sonunda "Yeni Yaxın Şərq üçün tarixi şəfəq" ifadəsini işlədərək, bölgədə uzun illər davam edən müharibələrdən sonra sülh dövrünün başlaya biləcəyini bildirib. ABŞ Prezidenti əlavə edib ki, Vaşinqton müharibə istəmir, lakin lazım gələrsə, təhlükəsizlik maraqlarını qorumaq üçün qətiyyətlə hərəkət edəcək. İsrailin Baş naziri Benyamin Netanyahu Trampın girovların azad edilməsindəki rolunu xüsusi qeyd edərək təşəbbüsü regionda real sülhün başlanğıcı kimi qiymətləndirib.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Gəlimli-gedimli dünya...*

# "Aç qoynunu, anam, gəldim"

**Tanınmış şair Əlisəmid Kür (Cəfərli) də ömrünün 71-ci ilində işıqlı dünyaya əlvida deyib getdi.**



Bir aya yaxın idi ki, media və sosial şəbəkələrdə onun səhhətində problem yarandığı üçün Respublika Klinik Xəstəxanasında müalicəyə götürüldüyü ilə bağlı məlumatlar verilirdi. Dünən səhər isə eşitdik ki, şair dünyasını dəyişib.

Elə dünən "Facebook"da Ülviyyə Heydərovanın belə bir qeydini oxuduq ki, şairin oğlu – aktyor Qorqud Cəfər onun şeirlərini öz ifasında çəkib və "YouTube" kanalında yerləşdirib. Ardınca müəllif Allahdan şairə sağlıq diləyirdi: "Əlisəmid müəllim, Bakının küləkli küçələri sizin üçün darıxır...". Bir də şərh bölümündə Əlisəmid Kürün məşhur bir misrasını xatırlatmışdıq:

**İçərişəhərdən keçən küləyə**
**Yüyürdüm, yüyürdüm, çata bilmədim...**

Bu gün isə səhəri bəd xəbərlə açdıq. Poeziyamızda onun adı ilə coşğun bir Kür öz axınını dayandırdı. Sən demə, "Gecələr qanadını qanadına vurub uçurdu ucalığa"... Beləcə, Tanrı dərgahına yetişdi Əlisəmid Kür.

İstedadlı qələm dostumuzun "Xoşqədəmli" adlı ilk şeiri 46 il əvvəl "Azərbaycan gəncləri" qəzetində çap olunub. Sonra adına, imzasına layiq yazıları ilə özünün "Uğurlu yol"unu özü yazıb. Hələ heç bir kitabı çıxmamış, istedadının etirafı olaraq, Yazıçılar İttifaqına üzv qəbul edilib. "Rəngli kölgələr" (1989), "Əlisəmid və qırx tanış üz" (1991), "Kentavr" (1995), "Çaylar məcrasından çıxanda" (2004), "Tənha kentavr" (2024) kitabları ilə ard-arda ədəbi tənqidin, necə deyərlər, zəndini doğruldub. Onun mətbuatda çıxan hər şeiri, nəşriyyatlarda çap olunan hər kitabı ədəbi cameəyə səs salır, poetik duyğu və düşüncələri dillərdə gəzirdi. Şeirləri dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdu, xarici almanaxlarda, ədəbi dərgilərdə dərc edilirdi. 20 il ərzində dünyanın bir çox şəhərlərində keçirilən şeir toplantılarında Əlisəmid Kür Azərbaycanı layiqincə təmsil edib.

**Əqrəbləri itmiş saat kimiyəm,**
**Vaxt ölür, çökür içimdə.**
**Cin çapmış at kimiyəm,**
**Qan-tər içindəyəm, anam,**
**Qan-tər içində.**
**Ürəyim əlimdən gedir,**
**Çırpınır qollarım qoynumda...**

Əlisəmid Kür 1954-cü ildə Salyan şəhərində müəllim ailəsində doğulub. Orada 3 saylı orta məktəbi fərqlənmə attestatı ilə, sonra isə İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirib.

Dövlət Teleradio Verilişləri Komitəsində, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, Teatr Muzeyində, Dövlət Tərcümə Mərkəzində müxtəlif vəzifələrdə çalışıb. 1991–1994-cü illərdə "Yol" bədii-publisistik qəzetinin baş redaktoru olub. Son dövrlərə qədər Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin "Xəzər" dünya ədəbiyyatı dərgisinin məsul katibi idi.

Şair təpədən-dırnağa milli ruh daşıyıcısı idi. Deyirdi: "Xoşbəxtəm ki, əsgərlərimiz Şuşaya girəndə mənim şeirimi səsləndiriblər. Araz Elsəs şeirimə mahnı bəstələyib, bax, onu oxuyublar. Həm də ona görə xoşbəxtəm ki, bu şeiri hər dəfə Təbrizin "Traktorsazi" stadionunda on minlərlə soydaşımız coşqu ilə səsləndirir".

O, siyasətdən uzaq adam idi. Amma bəzən könlünü güldürən hadisələrə bir şair kimi biganə qala bilmirdi. Məsələn, Azərbaycanın 44 günlük "Zəfər yürüşü" münasibətilə belə misralar yazdı:

**Mən burdayam, gəlmişəm! –**
**Belə demişdi Əmir Teymur,**
**Firdovsinin məzarı başında.**
**Belə dedi Ali Baş Komandan,**
**Dağıdılmış Ağdam məscidinin qarşısında –**
**Mən burdayam, gəlmişəm!..**

Əlisəmid Kür dünən Salyanda torpağa tapşırılıb. Onun illər öncə Təbrizdə bir kitabı nəşr edilmişdi – "Sonuncu dua". Düşünürük ki, şeirlərinin birində "Hamı iftar açır günah içində" misrasının da yer aldığı şairin dəfn günü məzarı başında səslənən dualar sonuncu olmayacaq. Dostları, yaxınları, oxucuları onun ruhuna daim dualar oxuyacaqlar...

Artıq haqq dünyasında mərhum anasının ruhunu qucaqlayan Əlisəmid Kür daha kürlük eləmir. Sadəcə deyir:

**Aç qoynunu, ana!**
**Qol-boyun gördükcə bizi**
**Dostlar da başlayar**
**Bir-birini qucaqlamağa.**

***Əli NƏCƏFXANLI***
***XQ***

# Kentavr

**Bir gecə vağzalın yanından keçəndə şəhərdə qəfildən işıqlar söndü. Kürəyində yük daşıyan adamlar mənə kentavrları xatırlatdı… Bir də qulaqlarıma at kişnərtisi gəldi…**

Dərdin arxasınca dördnala çapan
Bədəni at, başı adam,
Bu yarıat, yarıadam
Qaçmağa hallı adam
hara gedir, Yaradan?!
Sözünün dalında dağ kimi durub,
Hər gün bir sevdayla döyüşə gedir.
Dalına atdığı şələyə baxmır.
Xəndəyə yıxılmır, tələyə baxmır,
Özüylə söyüşə-söyüşə gedir.
At kimi yeriyir qəmin üstünə
Çapır, dördnala çapır,
Hara gedir qəm gətirir
Bir gün çörək tapır,
bir gün də tapmır…
"Mersedes" gözəllər keçir yanından
Vaxtı yox onlara gözucu baxa.
Faytona qoşulmuş ata boylanır,
Bu yarıat, yarıadama
ana boylanır,
ata boylanır.

Kentavr şəhərdən baş aça bilmir.
Dəyənək qorxusu çıxmır canından.
Bu köçkün kentavr,
qaçqın kentavr
Polisin əlindən qaça da bilmir.
Bu qovur, o qovur,
Göydə Allah qovur, yerdə bəndəsi
Kəpənək yuxusu qaçıb gözündən
Hələ kütə gedir onun kündəsi.
– Hara qaçırsan, KENTAVR?
– Kimdən qaçırsan, KENTAVR?
Başın bədənindən ayrı,
Bədənin başından ayrı,
Özün-özündən qaçırsan,
Gedirsən qəmin üstünə
söyüşə-söyüşə,
Yaşamaqçün, ölməməkçün
Atlar örüşə gedir,
Kentavrlar – döyüşə!

***Əlisəmid KÜR***


# Azərbaycan Dövlət Aqrar Universiteti

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın 1-ci bəndinin 1.3 yarımbəndini rəhbər tutaraq aşağıdakı kafedraların müdiri vəzifələrini tutmaq məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

**1.** Torpaqşünaslıq və aqrokimya kafedrası.

**2.** Bitki mühafizəsi kafedrası.

**3.** İnformasiya texnologiyaları kafedrası.

Mövcud qaydalara müvafiq olaraq müsabiqədə iştirak etmək üçün sənədlər elan dərc olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Telefonlar: (022) 266-00-56, 266-89-57.**

**Ünvan: Gəncə şəhəri, Atatürk prospekti 450.**

***REKTORLUQ***



# "Xətai Tikinti Mexanizasiya" ASC səhmdarlarının nəzərinə!

27 noyabr 2025-ci il saat 15:30-da "Xətai Tikinti Mexanizasiya" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Sabunçu rayonu, B.Bünyadov küçəsi 3 nömrəli ünvanda keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının hesabatı.

**2.** Səhmdar cəmiyyətin hüquqi ünvanının dəyişdirilməsi.

Səhmdarlar sənədlərlə hər həftənin 2-ci və 5-ci günləri saat 14:00-dan 16:00-a qədər ASC-nin inzibati binasında Bakı şəhəri, Sabunçu rayonu, Ə.Əliyev küçəsi 4 nömrəli ünvanda tanış ola bilərlər.

***Müşahidə şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 220 (30914) 14 oktyabr 2025-ci il, çərşənbə axşamı

# Zirə – dadlı nemətlər yetirən torpaq





**Paytaxtdan 40 kilometrliyində yerləşən Xəzər rayonu Zirə qəsəbəsi qədim yaşayış məskənlərindən biridir. Qədim qəsəbə adət-ənənələrini bu gün də qoruyub saxlaması ilə seçilir. Arxeoloji tapıntılar göstərir ki, min illər əvvəl burada insanlar məskunlaşıb. Zirə tarixən ovçuluq, əkinçilik, balıqçılıq və bağçılıqla məşğul olan kənd kimi tanınıb.**

İstər paytaxt, istərsə də rayon yaşayış məntəqələrinin hansınasa yolum düşürsə, ilk növbədə tarixi ilə maraqlanıram. Gəzib-görməli yerlərini hökmən ziyarət edirəm. Hər qəsəbə, kənd özlüyündə bir tarixdir.

**Zirə qəsəbəsindəyik. Bələdçimiz Zirə "Cümə məscidi" dini icmasının sədri və imamı Qədir Nəcəfzadə qəsəbənin tarixi haqqında ətraflı məlumat verir:**

– Zirə kəndinin adının haradan yaranmasıyla bağlı müxtəlif versiyalar var. Bəzi etnoqraflar burada tarix boyu Cirə (Zirə) bitkisinin yaxşı becərildiyinə görə kəndə də Zirə deyildiyi fikrini irəli sürür. Bəzi alimlər isə bu kəndin adının farsca Zir (ərəb əlifbasında hərflərin aşağısına qoyulan və "i" səsini ifadə edən işarə) sözündən əmələ gəldiyini və "aşağı yer", "aşağıda olan yer" anlamını verdiyi fikrinin üstündə dayanırlar. Zirə toponiminin ərəbcə "Ziraət" (əkinçilik) sözündən də əmələ gəlməsi fikri irəli sürülmüşdür.

Ədəbiyyatçı alimlərin yazdıqlarına görə, Zirə qəsəbəsi ölkənin ən şərq nöqtəsində yerləşdiyi üçün günəş Azərbaycana məhz buradan doğur. Həqiqətən də Zirə ən şərq nöqtədə Şah Dili qoruğunda yerləşən bir qəsəbədir. Şah Dili dil olaraq Azərbaycanın materikdə yerləşən ən ucqar şərq nöqtəsidir. İnzibati cəhətdən isə Zirə qəsəbəsi ərazisinə daxildir.

3 tərəfdən su ilə əhatə olunduğuna görə min illər əvvəl Cəzirə deyiblər. Sonralar Zirə adlandırılıb. Maraqlı məqamlardan biri budur ki, ölkəmizdə 9 mayakdan 2-si məhz Zirədə yerləşir. 1858-60-cı illərdə o mayaklar 2 il fasilə ilə tikilib: Böyük Zirə və Abşeron mayakı. Bu mayakların da 165-170 yaşları var.

Kəndin yaxınlığındakı qədim insan məskənləri nəzərə alınmasa müasir Zirə kəndinin 350-400 il tarixi var. Bu məlumatı kəndin köhnə qəbiristanlığındakı Pirin daşlarının üzərindəki yazılardan da oxumaq mümkündür. Kəndin cənub-şərq tərəfində "Qubələ" adlı yaşayış məskəninin olduğu da alimlər tərəfindən təsdiqlənmişdir.

Zirənin Xəzər dənizinə yaxınlığı ticarət və yaşayış üçün əlverişli məkan olmasına şərait yaradıb. Türkmənistana, İrana dəniz vasitəsilə qayıqla balıq, üzüm, əncir, kişmiş qurusu aparıb parçaya, əsasən də çaya, düyüyə dəyişirmişlər.

Qədir Nəcəfzadə söhbətinə davam edərək bildirir ki, Abşeron yarımadasının digər kəndləri kimi, Zirə də qədimdə kiçik kənd icmaları şəklində formalaşıb. Bakı və Bakıətrafı qəsəbələrin kameral təsvirində qeyd olunur ki, 1823-25-ci illərdə qəsəbədə 249 sakin yaşayıb. 30 evdən ibarət olub. Bu ailələrin böyük əraziyə malik torpaq sahələri də böyük təsərrüfatla məşğul olmağa imkan yaradıb. Qəsəbənin şərqində yerləşən Gürgan su altında qaldığından oradan xeyli sayda əhali bura köçüb. Kameral təsvirdə də göstərilir ki, 1896-cı ildə orada qalan 4 ailə də Zirəyə köçüb. Zirə qəsəbəsinin sakinləri vaxtilə İrandan, Qazaxıstandan, Quba və Xızıdan köç ediblər.

Hazırda 18 min əhalidən 15 mini yerlidir. Qalan 3 mini Şamaxı və Suraxanıdan vaxtilə Zirə sovxoz deyilən ərazidə köç edib yaşayanlardır.

Qədir Nəcəfzadə daha sonra qeyd edir ki, Zirənin torpaqları şoran olduğundan məhsullarının dadı-tamı da diqqət çəkib. Badam, üzüm, əncir, püstə, xartutu, özünəməxsus cirəsi, zəfəranı ilə tanınıb. Hətta İtaliyada, İspaniyada, İraqda, Səudiyyə Ərəbistanında, Şərq və Avropa ölkələrində Zirə göbələyinin, zeytununun satışına rast gəlib.

Qəsəbənin cənub hissəsində Dübəndi bağları deyilən ərazidəki mağaralardan həm qışda, həm də yayda heyvanların saxlanc yerləri kimi istifadə olunub. Şirin su quyularının qazılması ilə heyvandarlıq inkişaf edib. Kolxoz dövründə geniş kanallar çəkilib və əkin sahələri yaradılıb, burada taxıl, arpa, yonca əkilib.

Vaxtilə Azərbaycan ilan zəhəri istehsalı sahəsində keçmiş SSRİ məkanının lider ölkəsi hesab olunub. Zirə kəndində fəaliyyət göstərən Herpetoloji Kombinat 70-ci illərdə SSRİ-nin müxtəlif əczaçılıq zavodlarına hər il olduqca yüksək qiymətə zəhər ixdal edirmiş. Bu zəhərdən müxtəlif farmokoloji kombinatlarda dərman preparatlarının hazırlanmasında istifadə olunub. 1995-ci ilə qədər kombinat fəaliyyət göstərib və ildə 25 litrə qədər ilan zəhəri toplanıb.

Zirənin tanınmış adamlarından xəttatçı Mirzəhməd Əlizadə Şərq ölkələri arasında tanınmış simalardan olub. Əlyazmalar Fondunda nüsxələri və nəfis əl işləri var. Şərq ədəbiyyatından qəzəlləri, divanları olduğu kimi yazıb bərpa edib.

Cümhuriyyət dövründə ictimai–siyasi xadim, yazıçı-publisist və dilçi kimi tanınan Mirzəbala Məmmədzadə Məhəmməd Əmin Rəsulzadənin silahdaşlarından biri olub. Məzarı Türkiyədədir. Zirəli şərqşünas–alim Xəlil Hüseynzadə Məhsəti irsinin araşdırmaçısı kimi tanınıb. Digər tanınmış şəxsi Baba Əliyev dünyaşöhrətli rəssamdır. Rəsm əsərləri bir çox dünya ölkələrində sərgilənib. Nəvəsi Fərid Əliyev isə vokalçıdır.

Qəsəbədə Dostəli adlı bir tanınmış neftçi, neftçi Qurbanın və bir çoxlarının müəllimi hesab olunurmuş. Pirallahı neft yataqlarının və Neft Daşlarının, Zirədə qazılan neft buruqlarının, demək olar ki, ustası olub. Təhsili olmasa da, geoloji sahədə püxtələşmiş mükəmməl bir insan kimi tanınıb. Yataqların və buruqların istismarına, çıxan neftin tonuna qədər əvvəlcədən söyləyərmiş. Sovet dövründə fəaliyyətə başlayan "Azneft"in təşkil olunmasında Dostəli kişinin böyük məsləhətləri olub. Neft sahəsində tanınmış neftçilərdən biri də Rəhman Qurbanovdur. Rəhman müəllim fəhləlikdən "Azneft"də çalışıb. Xoşbəxt Yusifzadə kimi, Rəhman müəllim də neft sahəsinin qocaman simalarındandır.

Ərazisində kiçik qalalar və məscidlər də mövcud olub. Bu da onun həm müdafiə, həm də dini mərkəz kimi əhəmiyyət daşıdığını göstərir. Qəsəbədə ölkə əhəmiyyətli heç yerdə təkrarı olmayan Qələndəriyyə Xanəgahı məzarlığı var. Qələndərxana yataq yeri olmayan müsafirlər üçün qonaq evi kimi istifadə olunub. Bu tikilinin 5 əsr yaşı və ətrafında məzarlıq da var. Ölkə əhəmiyyətli tarixi məzarlıq abidələri siyahısına daxil edilib.

Zirə "Cümə məscidi" də yerli əhəmiyyətli tarixi abidədir. Qoşa minarəli məscid kompleksidir. Bu məscidin 5 əsr yaşı var. Müxtəlif illərdə məsciddə təmir-tikinti, bərpa işləri aparılıb. El xanımı 1749-cu ildə Məhəmməd Ağaverdi oğlu tərəfindən inşa olunub. İkigünbəzli və 8 tağdan ibarət olan həmin 19-cu əsrin 80-ci illərində işlək vəziyyətdə olmuşdur. Sonralar baxımsız vəziyyətə düşsə də, 2005-ci ildən etibarən Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilmişdir.

Zirə ənənəvi dəyərləri, müasir Azərbaycan ruhunu birləşdirən nadir ünvanlardan biri kimi həm də zəngin mədəni həyatı ilə tanınır. "Zirə İncəsənət Kəndi" 2015-ci ildə yaradılıb və Azərbaycan incəsənətinə yeni nəfəs verib. Layihənin əsas məqsədi Azərbaycanın milli sənətkarlıq ənənələrini qorumaq, gənc rəssamları və sənətsevərləri bir araya gətirməkdir. Kompleks milli memarlıq üslubunda tikilib və həm müasir, həm də ənənəvi mədəni ornamentləri özündə birləşdirir. Bu mərkəz yerli və beynəlxalq səviyyəli mədəniyyət turizminin inkişafına öz töhfəsini verir.

*Müşfiq MİRZƏ*
*XQ*

## İDMAN

### Kişi şahmatçılarımız 1-ci pilləyə yüksəlib



**Kişi şahmatçılardan ibarət Azərbaycan millisi Gürcüstanın Batumi şəhərində təşkil olunan komandalararası Avropa çempionatında növbəti görüşünü keçirib.**

VIII turda Ukrayna seçməsi ilə qarşılaşan millimiz rəqibinə 2,5:1,5 hesabı ilə qalib gələrək xallarını 13-ə çatdırıb. və liderliyə yüksəlib. Yığmamızın heyətində yeganə qələbəni 2-ci lövhədə ağ fiqurlarla çıxış edən Rauf Məmmədov ukraynalı Andrey Voloktinlə mübarizədə qazanıb. Şəhriyar Məmmədyarov, Aydın Süleymanlı və Eltac Səfərli isə heç-heçəylə razılaşıblar.

Komandamız son turda qələbə qazansa, dördüncü dəfə Avropa çempionluğunu bayram edəcək.

Xatırladaq ki, VII turda kişi şahmatçılarımız Macarıstan komandasına 3:1 hesabı ilə qalib gəlib.

Azərbaycanın qadın yığması isə dünən rumıniyalı həmkarları ilə qarşılaşıb. VIII tur çərçivəsində keçirilən görüş 2,5:1,5 hesabı ilə həmyerlilərimizin xeyrinə başa çatıb. Komandamızın heyətində Xanım Balacayeva və Gülnar Məmmədli qalib gəlib, Ülviyyə Fətəliyeva heç-heçə edib, Ayan Allahverdiyeva isə məğlub olub. Bu gün çempionatın son turunda qadın şahmatçılarımız Polşa komandası ilə qarşılaşacaq.

### Açıq Asiya Turnirində 3-cü




**Qazaxıstanın Aktau şəhərində keçirilən Açıq Asiya Turniri başa çatıb. Son yarış günündə milli komandamızın daha 4 üzvü fəxri kürsüyə qalxıb.**

Qadınlar arasında 70 kiloqram çəki dərəcəsinin finalı Azərbaycan derbisi ilə əlamətdar olub. Südabə Ağayeva qızıl, Aytac Qardaşxanlı gümüş medal qazanıb.

78 kiloqram çəki dərəcəsində çıxış edən Günel Həsənli də gümüş medala layiq görülüb. Kişilərin mübarizəsində Elmar Qasımov (100 kq) bürünc medalla kifayətlənib.

Bundan əvvəl Tofiq Məmmədov (60 kq), Gültac Məmmədəliyeva (52 kq) qızıl, Hüseyn Allahyarov (60 kq), Ülviyyə Bayramova (57 kq) gümüş, Elşən Əsədov (66 kq) və İbrahim Əliyev (73 kq) bürünc medalla qazanıblar.

Yekunda 3 qızıl, 4 gümüş və 3 bürünc olmaqla 10 medal qazanan Azərbaycan ümumi komanda hesabında üçüncü yeri tutub.

### Soydaşımız kartinqin ən sürətlisi olub




**Azərbaycanlı Davin Cəfərov İtaliyanın Lonato şəhərində yerləşən "International South Garda" trekində keçirilən 24-cü dünya kartinq çempionatında 8-ci olub. O, "Birel Art" (Portuqaliya) komandasının heyətində ilk dəfə BMB kateqoriyasında və Dünya çempionatında çıxış edib.**

Təsnifat mərhələsində yüngül qəza səbəbindən 32-ci yerdən start götürməyə məcbur olan Cəfərov yarımfinal və final mərhələlərinə yüksəlib. O, finalda 24 ötmə edərək italyan pilot Lorentso Pinanellinin 14 ötməlik rekordunu aşıb və eyni zamanda, yarışın ən sürətli dövrəsini (fastest lap) nümayiş etdirib.

Qeyd edək ki, Avropa və dünya çempionlarının da yer aldığı yarışa dünyanın müxəlif ölkələrindən 607 pilot qatılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Azərbaycan Hava Yolları" QSC-yə məxsus bütün struktur bölmələri və region hava limanları üzrə dezinfeksiya, dezinseksiya və deratizasiya xidmətlərinin satınalınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyən iddiaçılar, prosedurun Əsas Şərtlər Toplusunu (ƏŞT) əldə etmək üçün vusala.aghababayeva@azal.az elektron poçt ünvanına yazılı müraciət edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 28 oktyabr 2025-ci il saat 15.00-dır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs: Vüsalə Ağababayeva.

Satınalma üzrə aparıcı mütəxəssis-satınalma idarəsi, "Azərbaycan Hava Yolları" QSC.

**vusala.aghababayeva@azal.az**

**İş telefonu: (+99412) 497-26-00 (daxili 1451).**

**Mobil: +99450-327-20-21.**


## HAVA

### Bəzi rayonlarda yağış, dolu və sulu qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin oktyabrın 13-dən 14-nə keçən gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturunun gecə 15-17, gündüz 19-23 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər Böyük Qafqazın bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 11-16, gündüz 21-26, dağlarda gecə 0-5, gündüz 5-10 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi şair-publisist

**ƏLİSƏMİD KÜRÜN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi rayonundan Rafil Hüseynov

**ZABİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu şair-publisist

**ƏLİSƏMİD KÜRÜN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi qurumun departament müdiri Oleq Şelaqinova atası

**YEVGENİ ŞELAQİNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kollektivi assistent Nərgiz Kəlbiyevaya qayınanası

**TAMİLLA HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kollektivi assistent Rövşən Əmirəliyevə bibisi

**ADİLƏ BƏDƏLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3514
SİFARİŞ 1951
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00